

# İşğaldan azad edilən torpaqlarda dövlətin bərpa strategiyası

*“Sona çatan 2020-ci il Azərbaycan tarixində müstəsna il kimi qalacaq. Çünki 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə son qoyub. Bu şanlı zəfərin təmin olunması üçün həyatlarını qurban vermiş şəhidləri böyük ehtiramla anırıq. Onların uğrunda şəhid olduqları vətən torpaqlarının yenidən qurulması bu gün qarşımızda duran ən ümdə məsələdir.*

Səh.13

UNİKAL

№44 (2039) 25 dekabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru



# Elman Rüstəmovun qəribə məntiqi...

## Mərkəzi Bank rəhbəri ictimai müzakirələrə niyə sərt reaksiya verir?

*Bu həftə Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov yenidən devalvasiyanın olacağı barədə səsələnən fikirlərə münasibət bildirdi və bunu cəfəngiyyat adlandırdı. Onun sözlərinə görə, indiki halda belə söhbətlərə gərək yoxdur: ”Hamı qələbəyə köklənib. Devalvasiyanın olması xəbərləri boş söhbətlərdir”. Müstəqil iqtisadçı ekspertlərdən tutmuş sıravi vətəndaşlaracan bir çoxu isə Elman Rüstəmovun bu sözlərini anlaşılmaz sayır. Xüsusilə o mənada ki, manatın ucuzlaşa biləcəyi barədə iddialarla Ordumuzun qazandığı şanlı Qələbə arasında bağlantı qurmaq cəhdini başa düşmək həqiqətən çətindir. Üstəlik, devalvasiya proqnozları havadan yaranmayıb.*

Səh.7

Səh.3



# Prezident Qubadlı və Zəngilandan mühüm mesajlar verdi

## “Rusiya Paşinyana qarşı bütün gücü ilə mübarizə aparır”



*27 sentyabrdan başlayan Vətən Müharibəsinin Ermənistanın məğlubiyyəti ilə başa çatmasından sonra Nikol Paşinyana qarşı başlayan narazılıq kritik həddə çatıb. Artıq Paşinyana qarşı bütün təbəqələr müxalif mövqeyə keçib. Hətta dini sektorun təmsilçiləri də Paşinyana asi düşüblər.*

Səh.4

## Misir Mərdanov dövründə ilişib qalan kadrların biabırçı qalmaqalları...



*Yola salmaq üzrə olduğumuz həftə Bakının qalmaqallı məktəb direktoru bu dəfə karantin qaydalarını pozmaqla gündəm olub. Belə ki, 187 nömrəli tam orta məktəbin direktoru Nailə Məmmədova evində təşkil etdiyi doğum günü məclisi ilə karantin qaydalarını kobud şəkildə pozub.*

Səh.6

## “Biz yeni dövrə qədəm qoymuşuq” - Tahir Mirkişili



*“Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən “Büdcə sistemi haqqında” Qanununun 12-ci maddəsinə müvafiq olaraq “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Qanun layihəsi və Büdcə Zərfinə daxil olan digər qanun layihələri Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur.*

Səh.10

# “Ayıb deyil, utanmırsan?” - Əli Mirəliyevdən Mətanət İsgəndərliyə



***Xüsusi karantin rejimi qaydalarını kobud şəkildə pozan 187 saylı məktəbin direktoru Nailə Məmmədovanın ad günündə Əməkdar artist Mətanət İsgəndərlinin də iştirak etdiyi barədə məlumat verməşdik.***

Əməkdar artistin bu addımı isə birmənalı qarşılanmayıb. “Unikal” bildirir ki, məsələyə biganə qalmayan müğənni Əli Mirəliyev baş verənlərlə bağlı sfera.az-adanışıb: ”Özünə hörmət edən müğənni bu addımı atmazdı. Mən şəxsən indiki məqamda müğənnilərin efirə çıxıb, oxumağını da düzgün hesab eləmirəm. Hələ bizim şəhidlərimizin 40-ı çıxmayıb, onların qanı qurumayıb. Ayıb deyil, utanmırsınız? Özünüzü kimə göstərirsiniz?”

Sənətçi söhbət əsnasında hazırda ciddi təcrid şəraitində yaşadığını deyib: ”Biz də insanıq da, bu xəstəlik kütləvi şəkildə varsa, demək mənə də keçə bilər. Xəstəlik axtarmıyacaq ki, bu Əlidir, Mətanətdir, ona olmaz. Bax, mən özüm ailəmin yanından ayrılıb, gəlmişəm Mərdəkana, tək yaşayıram. Toyuqlarımla, göyərçinimlə başımı qatıram. Heç yerə çıxmıram. Guya mən efirə çıxa bilmərəm? Hazırda ARB telekanalında yeni veriliş məni gözləyir. Özü də Əməkdar artist Tünzalə Əliyeva ilə birlikdə aparacağıq. Amma hələ gözləyirik ki, vəziyyət biraz sabitləşsin”.

Xatırladaq ki, ötən gün təhsil naziri Emin Əmrullayev məktəb direktoruna şiddətli töhmət verib. Daxili İşlər Nazirliyində Nailə Məmmədova başda olmaqla məclisdə iştirak edən bir neçə nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsilə protokollar tərtib edilib.

# "Ad günümdə ən böyük hədiyyəni aldım" - Namiq

***”Şuşa üçün can atıram. Hər zaman pis olurdum ki, oranı görməmişəm. Oranı görmək mənim üçün inanılmaz idi. Şuşalı dostlarım çoxdur. Onlarla oturanda o qədər danışırlar ki... Onlar qədər Şuşa üçün darıxırdım. Ən böyük arzum ora getməkdir. Noyabrın 8-i ad günüm idi. Dostlarım təbrik üçün yığışmaq istəyirdi, razılaşmadım. Amma ad günümdə ən böyük hədiyyə Şuşanın azad olunması oldu. Mənim üçün ikiqat bayram oldu. Həmin gün həm də ad günüm idi”.***



“Unikal” axşam.az-a istinadən bildirir ki, bu sözləri meyxanaçı Namiq Qaraçuxurlu ”Onların səsi” proqramında deyib. Sənətçi Şuşa sevgisindən və yazdığı yeni mahnıdan bəhs edib: ”Üstündə işləyirəm, düşünürəm onu Şuşada ifa edəcəm. Bu mənim ilk vətənpərvərlik mövzusunda olan mahnım deyil. Çox belə bəstələrim olub”.



# "Sənəti pula satdılar, indi acından ölürlər" - Elza Seyidcahan

***”Toylara gedirdim, yaradıcılığımdan uzaq düşürdüm. Sənətimdən uzaq qalırdım. İnsan var toy olanda sevinirdi, mən yox. Vaxtımı alırdılar. Parçalanıram, sənətimdən ayrılıram. Tarixdə yaşamaq üçün insanın rəssamlığı, bəstəkarlığı olmalıdır”.***

“Unikal” axşam.az-a istinadən bildirir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan ”Anamın yeməyindən yoxdur” verilişində deyib. Müğənni karantində toyların ləğv edilməsinə sevindiyini deyib:

”Sənətkarlar ac qalmırlar. Onların sənəti onları qidalandırır. Bir əsər ərsəyə gətirəndə elə bilirəm bir qazan plov etmişəm. Sənətini pula satanlar indi acından ölürlər, pis gündədir. Ağlayırlar ki, pul yoxdur. Qorxurlar bir qızılı, evi, maşını azalacaq. Anam hər zaman deyir ki, pulu sənətə xərcləyirsən. Deyirəm ki, insanın əmlakı, obyekti, sərmayəsi elə sənətidir”.

# Ali Baş Komandan xəyallarımızı gerçəkləşdirdi” - Xalq artisti

***“Prezident İlham Əliyev bizim xəyallarımızı gerçəkləşdirən sərkərdə oldu. Ağlımıza gəlməyəni həyata keçirdi”.***



Bunu Azvision.az-a Azərbaycanın Xalq artisti Bilal Əliyev deyib. Tanınmış xanəndə dövlət başçısını doğum günü münasibətilə təbrik edərək deyib: “Hamıda ruh düşkünlüyü var idi, fikirləşirdik ki, 30 il keçib, Qarabağı bir də görə biləcəyikmi? Prezident İlham Əliyev bizim xəyallarımızı gerçəkləşdirən sərkərdə oldu. Ali Baş Komandan bütün varlığı ilə çalışdı ki, həm qalib olaq, həm də döyüşdə itkilərimiz az olsun. Döyüşün bütün məsuliyyətini üzərinə götürmüşdü. Ona görə də gərək böyük ağıl, zəka sahibi olasan, böyük bir məktəb görəsən ki, bu işlərin öhdəsindən gələsən. Dövlət başçısı tarixi qələbə qazanaraq bizə böyük sevinc bəxş etdi.

Cənab Prezident doğum günü öncəsi Qubadlıya, Zəngilana səfər etdi. Hərbçilərimizlə görüşdü. Orada bildirdi ki, dünya bu dəqiqə bizim apardığımız müharibəni araşdırır, 21-ci əsrdə belə bir müharənı necə apardıq və qalib olduq. Misli görünməyən qələbədir. Həm zəfər çaldıq, həm itkilərimiz az oldu. Düşmən ikiqat çox itki verdi.

Biz bundan sonra da dəmir yumruq kimi Ali Baş Komandan İlham Əliyevin ətrafında möhkəm birləşməliyik. Prezidentimiz qələbə xəbərlərini verəndə bəlkə də dünyada məndən xoşbəxt adam olmazdı. Hər gün 8-10 kəndin azad olunması xəbərini eşitməK bilirsiniz nə demək idi? Hər an xalqa hesab verirdi. Arzu edirəm ki, dövlət başçısı növbəti doğum günlərini Şuşada və azad edilmiş digər ərazilərimizdə qeyd etsin”.

# Təhsil Nazirliyi işçilərinin vəzifə maaşlarından əlavə ödənişlər ediləcək - RƏSMİ



***Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin nazirliyin hesabına köçürülən büdcədənkənar vəsaitdən istifadə qaydası müəyyənləşib.***

"Unikal" xəbər verir ki, bu, Nazirlər Kabinetinin təsdiq etdiyi "Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülən vəsaitdən istifadə qaydası"nda öz əksini tapıb.

Büdcədənkənar vəsait Təhsil Nazirliyinin işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə aşağıdakı istiqamətlər üzrə xərclənir:

- işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması;
- işçilərin vəzifə maaşlarına əlavələrin verilməsi;
- işçilərə maddi yardımın göstərilməsi.

İşçilərin kollektiv mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

- işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- mühüm dövlət tapşırıqlarının vaxtında yerinə yetirilməsi;
- qanunla müəyyən edilmiş bayram günləri ilə, həmçinin digər əlamətdar hadisələrlə əlaqədar.

İşçilərin fərdi mükafatlandırılması aşağıdakı hallarda həyata keçirilir:

- vəzifə təlimatında nəzərdə tutulan vəzifələrin vaxtında və peşəkarlıqla yerinə yetirilməsi, səmərələşdirici təkliflər verilməsi, təşəbbüskarlıq göstərilməsi, işdə yeni forma və metodların tətbiqi;
- rəhbərliyin tapşırıqlarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi;
- normativ hüquqi aktların layihələrinin hazırlanmasında fərqlənmə.

İşçilər xüsusi əhəmiyyətli vacib tapşırıqların, mürəkkəb işlərin yerinə yetirilməsi ilə əlaqədar, həmçinin layiqli işinə görə bayram və digər əlamətdar günlərdə fərdi qaydada (birdəfəlik) mükafatlandırıla bilərlər.

Verilən mükafatların məbləği aylıq vəzifə maaşının 2 (iki) mislindən çox olmamaq şərtilə müəyyən edilir.

İşçilərin fərdi mükafatlandırılması məqsədilə vəsait qiymətli hədiyyələrin alınmasına da xərclənə bilər.

İşçilərin fərdi mükafatlandırılması əmrlə rəsmiləşdirilir.

İşçilərə aylıq vəzifə maaşlarının 2 (iki) mislindən çox olmamaqla vəzifə maaşlarına əlavələr verilir.

Aylıq vəzifə maaşına əlavənin ödənilməsi ayda bir dəfə olmaqla, hər ay üçün növbəti ayın 20-dək, dekabr ayı üçün isə həmin ayın 25-i (dekabrın 25-i qeyri-iş gününə düşdükdə növbəti iş günü) həyata keçirilir.

Vəzifə maaşına əlavə aşağıdakı günlər üçün hesablanmır:

- işçinin əmək məzuniyyətində olduğu günlər, əmək qabiliyyətini müvəqqəti itirdiyi, həmçinin hamiləliyə və doğuşa görə məzuniyyətdə olduğu günlər;

-mişçinin ödənişli yaradıcılıq və təhsil məzuniyyətində, qismən ödənişli sosial məzuniyyətdə və ödənişsiz məzuniyyətdə olduğu günlər.

İşçilərə maddi yardımın verilməsi əmrlə rəsmiləşdirilir.

Büdcədənkənar vəsaitdən təyinatı üzrə istifadə edilməməsinə görə vəzifəli şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətatlar Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

# "Cənubi Qafqazda münaqişə potensialı qalır" - Baş Qərargah rəisi



***Rusiya Baş Qərargah rəisi Valeri Gerasimov xarici attaşelər üçün birfinq keçirib.***

"Unikal" xəbər verir ki, o, Qarabağ münaqişəsinə də toxunub. Ordu generalı Cənubi Qafqzda münaqişə potensialının qaldığını diqqətə çatdırıb.

"Rusiyanın sülhməramlı kontingenti humanitar böhranın qarşısını almaq və dinc sakinləri qorumaq üçün Dağlıq Qarabağa yerləşdirilib. Dağlıq Qarabağ və Laçın dəhlizi Rusiya sülhməramlıları tərəfindən tam nəzarətdədur"- deyə o söyləyib.

Gerasimov Dağlıq Qarabağda 23 müşahidə postu qurulduğun da diqqətə çatdırıb.

# İcra başçılarının 2020 qorxusu...

## Yeni ilin əvvəllərində bir neçə rayon rəhbərini xoşagəlməz sürpriz gözləyir



***2019-cu ilin sonlarından etibarən Azərbaycanda icra başçılarına qarşı xüsusi əməliyyatlara start verilib. Hüquq-mühafizə orqanlarının həyata keçirdiyi bu əməliyyatlar nəticəsində 6 icra başçısı korrupsiya və rüşvət faktlarına görə saxlanılıb, barələrində həbs qətimkan tədbiri seçilib.***

"Unikal"ın məlumatına görə, hələ də qanunsuz əməllərini davam etdirən rayon rəhbərləri üçün qarşıdan gələn yeni - 2021-ci ilin daha çətin keçməsi gözlənilir.

44 günlük Vətən müharibəsində qazanılan Şanlı Qələbənin ardından yeni mərhələyə start verən ölkə rəhbərliyi diqqəti işğaldan azad edilən torpaqlarda quruculuq və abadlıq işlərinə yönəltməklə yanaşı, genişmiqyaslı islahatları davam etdirməkdə israrlıdır. Bu islahatların əsas hədəflərindən biri isə Azərbycanda məmur-vətəndaş münasibətlərini daha da sağlamlaşdırmaq, ölkənin yüksəlişinə əngəl yaradan zərərli meylləri, o cümlədən də rüşvət və korrupsiyanı tamamilə aradan qaldırmaqdır.

Bu mənada hüquq-mühafizə orqanlarının mənfi reputasiyalı vəzifə sahiblərinə yönəlmiş xüsusi əməliyyatlarının mütəmad şahidi olacağımıza şübhə yoxdur. Belə vəzifə sahibləri arasında isə icra başçılarının öz yeri var.

Dəfələrlə vurğulandığı kimi, Azərbaycanda şəhər və rayon icra hakimiyyətləri ən çox tənqid, irad , ittiham hədəfi olan dövlət qurumlarının ön cərgəsində yer alır. İcra başçıları çox zaman vətəndaşlarla kobud rəftarı, laqeyd münasibəti, korrupsiyaya meylliliyi ilə gündəmə gəlib. Sovet dövrünün idarəetmə sisteminin təsirindən irəli gələn haldır ki, bəzi icra başçıları özlərini az qala əyalət padşahı kimi aparırlar.

Diqqətçəkən maraqlı məqamlardan biri də onların bir çoxunun sırf kommunist ruhlu olmasıdır. Müqayisə edəndə icra başçılarının Sovet dövrünün raykom katiblərindən fərqlənmədiyini görürük. Hətta bir çoxları düşünür ki, bu cür şəraitdə sözügedən orqanların ölkədə həyata keçirilən islahatlarla ayaqlaşması qeyri-mümkündür. Onların fikrincə, icra başçılarının bu postlara təyinatla gəlməsi rahatlıq yaradır, vətəndaş qarşısında məsuliyyətlərini dərk etməyə mane olur. Odur ki, yerli icra hakimiyyətlərinin ləğvini təklif edənlər də az deyil. Belələrinin fikrincə, əgər rayonlara, şəhərlərə əsas rəhbərlik bələdiyyələrə verilsə, mənzərə xeyli dəyişə bilər. Bələdiyyə başçıları, üzvləri növbəti seçkidə səs ala bilmək üçün camaata daha çox can yandıra, onların problemlərinə daha çox həssaslıq göstərə, təmiz işləməyə çalışa bilərlər.

Hər bir halda görünən odur ki, ölkədə xeyli rayon və ya şəhər icra başçısı ölkədəki islahatlar dalğası fonunda yeni çağırışlara cavab vermək iqtidarında deyillər, köhnə (və zərərli!) vərdişlərdən qurtulmaqda çətinlik çəkir, rüşvət və korrupsiyadan tutmuş vətəndaşların problemlərinə həssas münasibətəcən xeyli məsələdə öz fəaliyyətlərini korrekt etmək istəmirlər.

Bu cür rayon rəhbərlərini isə hazırda dəmir barmaqlıqlar arxında olan Nizaməddin Quliyevin, Qoca Səmədovun, İsmayıl Vəliyevin, Ceyhun Səfərovun, Mahir Quliyevin aqibətinin gözlədiyini düşünməmək sadəlövhlük olardı. Elə Vətən müharibəsindən dərhal sonra daha bir icra başçısının - Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalovun da həbs edilməsi bu fikri təsdiqləyir. Şübhə qalmır ki, qarşıdan gələn 2021-ci il rayon rəhbərləri üçün builkindən heç də asan keçməyəcək. Hətta yeni ildə bitmək üzrə olan 2020-ci illə müqayisədə daha çox rayon rəhbərinin müxtəlif şəkildə cəzalandırılması - bəzilərinin postlarını, bəzilərinin isə postları ilə bərabər azadlıqlarını da itirməsi qətiyyən təəccüb doğurmayacaq...

***Elvin Rüstəmov***

# "Bəzi şəxslər süni şəkildə dərman qıtlığı yaradırdlar" - Əhliman Əmiraslanov

***«2021-ci ilin dövlət büdcəsində səhiyyə xərcləri nəzərəçarpacaq qədər artırılıb. Həmin vəsaitin böyük bir qismi ölkəmizdə icbari tibbi sığortanın tətbiqinə yönəldilib".***

"Unikal" xəbər verir ki, bunu parlamentin bu gün keçirilən iclasında Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib.

Əhliman Əmiraslanov 2021-ci ilin yanvarından 31 şəhər və rayonda icbari tibbi sığorta həyata keçirilməyə başlanılacağını da söyləyib: "Bu məqsədlə büdcədən 1 milyard 45 milyon manat vəsait ayrılıb. İllərdir ki, insalarımız bunu gözləyirdi".

Komitə sədri bildirib ki, pandemiyaya qarşı mübarizə üçün də xeyli vəsait ayrılıb: "Pandemiya elan olunduğu ilk gündən etibarən Prezidentin tapşırığı ilə Operativ Qərargah yaradıldı. Pandemiyanın ikinci mərhələsində yoluxmanın sayı kəskin artsa da səhiyyə sistemimiz çökmədi. Bu gün 45 tibb müəssisəsi və 30 müasir laboratoriya pandemiya ilə mübarizəyə cəlb olunub. Məndə olan məlumata görə, ölkəmizdə dərman ehtiyatı var. Ancaq bəzi şəxslər bu qıtlığı süni şəkildə yaradırdlar. 2021-ci ilin ilk aylarında ölkəmizə vaksinlər gətiriləcək".



# İşğaldan azad edilən torpaqlarda dövlətin bərpa strategiyası

## Ekspertlər hesab edirlər ki, bütün şəhər və qəsəbələr 21-ci əsr vizionu ilə salınmalıdır

***"Sona çatan 2020-ci il Azərbaycan tarixində müstəsna il kimi qalacaq. Çünki 2020-ci ildə Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə son qoyub. Bu şanlı zəfərin təmin olunması üçün həyatlarını qurban vermiş şəhidləri böyük ehtiramla anırıq. Onların uğrunda şəhid olduqları vətən torpaqlarının yenidən qurulması bu gün qarşımızda duran ən ümdə məsələdir. Bu məqsədlə gələn ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılması nəzərdə tutulub".***

"Unikal" xəbər verir ki, bunu parlamentin iclasında Maliyyə naziri Samir Şərifov deyib. Nazir qeyd edib ki, Prezident İlham Əliyev vətəndaşların rifahının daha da yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Bu, gələn ilin büdcə layihəsində də öz əksini tapıb.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov deyib ki, bu zəfər Azərbaycanın və eləcə də bütün regionun iqtisadi inkişafına ciddi təsir göstərməklə ölkəmizdə tamamilə yeni iqtisadi inkişaf amillərini formalaşdırdı. Onun qənaətincə, bu amillərdən ən vacibi Qarabağda əldə edilmiş hərbi qələbəni Azərbaycanın gələcək dinamik, davamlı sosial-iqtisadi inkişafına transformasiya edə biləcək əhali, xalq məmnunluğudur: "İnanırıq ki, məmnun xalqımızın Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşməsi Post-müharibə dövründə iqtisadi və sosial islahatlara dəstəyi və etimadı daha da yüksəldəcək, islahatların səmərəliliyini əhəmiyyətli artıracaq. Eləcə də, xalq dövlət birliyinin güclənməsi və güclü siyasi iradənin mövcudluğu insanların həm də gələcəyə ümidini artıracaq. Nəticədə ölkənin iqtisadi gücünün və iqtisadi potensialının artımının əsas şərti təmin olunacaq".

Ə.Muradovun sözlərinə görə, Azərbaycan kiçik iqtisadiyyatlı ölkədir və bu amil həm iri həcmli qeyri-neft investisiyaların cəlb edilməsi, istehsalın həcminin kəskin artması, həm də dünyada proteksionist tədbirlərin gücləndirilməsi ixracın artırılması üçün müəyyən problemlər yaradır.

"Qarabağın azad edilməsi Naxçıvanla Azərbaycanın birbaşa nəqliyyat əlaqələrinin qurulması nəticəsində ölkənin iqtisadi ərazisinin böyüdülməsi baxımdan Azərbaycan-Türkiyə-Gürcüstan azad ticarət zonası iqtisadi regionlaşma çərçivəsində yeni perspektivlər vəd edən layihələrdən biri kimi görünür.

Digər çox ciddi bir layihə kimi, "Bir kəmər- bir yol" layihəsində Azərbaycanın Qarabağ zəfərindən sonra rolunun artmasıdır. Məlumat üçün qeyd edim ki, bu layihə uğurla reallaşdığı halda dünyanın 65% ÜDM-ni istehsal edən 65 ölkəsini birləşdirəcək. Bu layihə dünya əhalisinin 70%-ni, kəşf edilmiş enerji resurslarının 75%-ni əhatə edir".

UNEC rektoru qeyd edib ki, Zəfərdən sonra Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişafında bir növ dönüş baş verdiyini, bundan sonra bu əlaqələrin davamlı dərinləşərək davam edəcəyini demək mümkündür.



"Zəfərdən əvvəl ölkələrimiz arasında preferesial ticarət sazişi imzalanmış, Zəfərdən sonra isə bir çox istiqamətlərdə yeni əməkdaşlıq sazişləri bağlanmışdır. Bura iki ölkə arasında gediş-gəlişdə vizanın aradan qaldırılması, şəxsiyyət vəsiqələri ilə qarşılıqlı gediş-gəlişin təmin edilməsi, İqdır-Naxçıvan qaz xəttinin çəkilməsi, Qars-İqdır-Naxçıvan dəmiryolu xəttinin tamamlanması, KOB, investisiyalar, nəqliyyat, inşaat və media sahəsində strateji əməkdaşlıq daxildir. Prezident İlham Əliyevin də elan etdiyi kimi Qarabağın inşasında Azərbaycan və Türkiyə şirkətləri bərabər şəkildə fəaliyyət göstərəcəklər".

Real Partiyanın icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli işğaldan azad edilən torpaqların bərpası üçün gələn il 2,2 mlrd. manat pulun ayrılacağına toxunub. O bildirib ki, bir çox insanlar bunun az, ya da çox olmasını müzakirə edirlər - əslində səhv yanaşmadı, pulun miqdarı yox, Azərbaycan hökumətinin bu məsələ ilə bağlı "vizionu" müzakirəyə açılmalıdır: "Aydındır ki, gələn il 2,2 mlrd. manat əsasən minalardan təmizləmə, işğaldan azad edilmiş 127 km İran, 400 km-dən çox Ermənistan sərhəddinin yenidən təsis edilib möhkəmləndirilməsinə, ilkin infrastruktur (yol, elektrik, qaz, su) layihələrinə xərclənəcək, yəni, gələn il şəhər və qəsəbələrin bərpası hələ nəzərdə tutulmur - bir tək Şuşada bəzi bərpa işlərinin olması gözlənilir. Ümid edirəm ki, 2021-ci ildə hökumət bərpa "vizionunu" cəmiyyətə açıqlayacaq, bu haqda ciddi elmi müzakirələr olacaq. Hələ ki, doğru olmayan yanaşma görünür, məsələn, flan şəhərdə binalar belə olacaq, göydələnlər tikiləcək və s. kimi yanaşmalar kökündən yanlışdır. Düşünürəm ki:

Ərazilərin bərpa planı bütöv olmalı, kompleks yanaşma ilə tərtip edilməlidir, yəni, hər şəhərin ayrıca planı olmaqla yanaşı, ərazilərin tamamını əhatə edən uzlaşdırıcı və bağlayıcı məqamlar olmalıdır.

Bərpa planının ən son mərhələsi arxitekturadır, əvvəl bilməliyik ki, biz nə istəyirik, hər şəhərin iqtisadi və sosial rolu nədən ibarət olacaq - ancaq bundan sonra arxitektura planlamasına keçmək olar,

Məncə, kiçik kəndlərin hər birinin bərpasına ehtiyac yoxdur, işğaldan azad edilən hər bir rayon mərkəzindən başqa, rayonun ərazisində 5-10 arası iri qəsəbələrin yaradılması ilə bağlı qərar verilməli, onların yeri hərbi-strateji, sosial-iqtisadi və resurslara çıxış imkanı olan infrastrukturun asan yaradılması kriterlərinə görə seçilməlidir,

İqtisadi bağlar mütləq əvvəlcədən düşünülməlidir, məsələn, əgər Ağdamda aqrar emal müəssisələri olacaqsa, onların xammalı Fizulidən, Cəbrayıldan, Hadrutdan gəlməlidir,

Ən azı 2 şəhərdə tanınmış xarici Universitetlərin filialları, kampusu olan elmi-tədris mərkəzi açılmalıdır,

Hər bir bərpa olunan şəhərin öz missiyası olmalıdır, 2 şəhər elm-təhsil mərkəzi olacaqsa, Şuşa mədəniyyət paytaxtı, məsələn, Cəbrayıl yerli "Las-Vegas", Qubadlı və Kəlbəcər eko-turizm və sağlamlıq mərkəzi ola bilər,

Bütün şəhər və qəsəbələr 21-ci əsr vizionu ilə salınmalıdır - ekoloji şəhər nəqliyyatı, bərpa olunan enerji mənbələri, velosiped yolları, smart şəhər yanaşması və s.

Hər bir şəhər və qəsəbədə iqtisadi fürsətlər üçün tam münbit şərait olmalıdır ki, əhalinin köçməsinin bir mənası və əsası olsun,

Fərdi evlərin tikintisinə 0%-li kreditlər olmalı, hər bir fərdi ev avtonom bərpa olunan enerji mənbəyinə malik olmalıdır, damlarda günəş panelləri quraşdırılmalı, bunun infrastrukturu yaradılmalı, artıq qalan enerjini dövlət fiksə edilmiş qiymətlərlə alacağı zəmanətini verməlidir,

İnvestorlar üçün 7 illik 0% vergi zəmanəti öncədən qanun şəklində qəbul edilməlidir".

**Z.Məmmədli**



# Palata sədri gələn ilki büdcənin gəlir və xərclərindən danışdı

***2021-ci il dövlət büdcəsinin gəlirləri cari müqayisədə 5,4 faiz çox olmaqla 25,4 milyard manat məbləğində nəzərdə tutulub, bu illə müqayisədə 6 tədiyə növü azalma, 13 növ üzrə artım proqnozlaşdırılıb, bir mənbədən gəlirlər isə sabit saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu sözləri Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Milli Məclisdə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Qanun layihəsinin müzakirəsi zamanı deyib.

Palata sədri deyib ki, bu istiqamətdə qeyd edilməli digər bir məqam gəlir mənbələrinə iki istiqamətin əlavə edilməsidir. Belə ki, əvvəlki illərlə müqayisədə ilk dəfə olaraq qeyri-neft sektoruna aid edilən digər mənbələr - Mərkəzi Bankın mənfəətindən 250 milyon manat məbləğində ayırmalar və dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfer 880 milyon manat vəsait büdcə gəlirlərinin tərkibində nəzərdə tutulub.

"2021-ci ilin büdcə xərcləri (28,5 milyard manat) milli valyuta ifadəsində ən böyük göstərici olmaqla proqnozlaşdırılıb və ÜDM-ə nisbət göstərici də 37,7 faiz təşkil etməklə çoxdur. 2021-ci ilin dövlət büdcəsi vəsaitlərin strateji hədəflərin bu hədəflərin nail olunmasına yönəldilən vəsaitlərlə uyğunluğunu təmin etmək məqsədi daşıyan nəticə əsaslı büdcə prinsipinə keçidin ilkin mərhələsinin tətbiq edildiyi büdcədir. Belə ki, növbəti ildə 3 sektor üzrə vəsaitlər Orta Müddətli Xərclər Çərçivəsinə uyğun şəkildə proqnozlaşdırılıb. Bu çərçivə dövlət büdcəsinin proqramlılıq səviyyəsinin yüksəldilməsinə xidmət edir və artıq 2021-ci il üçün biz bunun şahidi oluruq. Dövlətin strateji hədəflərinə nail olunması istiqamətində resursların səmərəli istifadəsi və "resurs-hədəf" uyğunluğunun tam təmin olunması tətbiq edilən yanaşmaların mütəmadi təkmilləşdirilməsini zəruri edir. Hesablama Palatası proqram layihələrinin tərtibi, indikatorların cari şərtlərə uyğun şəkildə müəyyən edilməsi, xüsusilə Dövlət İnvestisiya Proqramı çərçivəsində mənbələrdən istifadə istiqamətində mümkün bütün imkanların istifadə olunmasını təmin edəcək addımların mərhələli şəkildə davam etdirilməsinin vacib olduğu qənaətindədir", - deyə V.Gülməmmədov diqqətə çatdırıb.

Növbəti ildə büdcə kəsirinin 3,1 milyard manat poqnozlaşdırıldığını vurğulayan palata sədri deyib: "Ümumiyyətlə, büdcə kəsiri və onun maliyyələşmə mənbələri növbəti illərdə diqqətdə saxlanacaq büdcə parametri hesab olunacaq. Kəsirin maliyyələşdirmə mənbələrindən biri kimi özəlləşdirmədən daxilolmalar növbəti ildə, əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə artımla proqnozlaşdırılıb. Nəzərdə tutulan vəsait (111 milyon manat) 2019-cu və 2020-ci ilin göstəricilərindən çoxdur. Alınan əlavə məlumatlar artımın strateji yol xəritələrində müəyyən edilmiş elektrik stansiyalarının və telekommunikasiya müəssisələrinin özəlləşdirilməsinə dair müvafiq sərəncamlardan verilməsindən sonra gözlənilən daxilolmalarla əlaqəli olduğunu göstərir.

**Hüseyn**

# Dünya liderləri İlham Əliyevi təbrik etdilər

***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev Türkiyə Prezidentinə göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əmin olduqlarını bildiriblər.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Mətndə deyilir:

"Hörmətli İlham Heydər oğlu. Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq yüksək nüfuz qazanmısınız. Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi və sosial sahələrdə sanballı uğurlar əldə edib.

Dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfəniz çox böyükdür. Ümidvaram ki, biz birgə səylərimizlə bütün istiqamətlərdə qarşılıqlı faydalı Rusiya-Azərbaycan əlaqələrini bundan sonra da inkişaf etdirəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm. Fürsətdən istifadə edib, Sizin ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm".



Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Bununla bağlı Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Qazaxıstan Prezidenti dövlət başçısını ad günü münasibətilə təbrik edib, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Dövlət başçıları Azərbaycan-Qazaxıstan dostluq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildiriblər.

Gürcüstanın Baş naziri Giorgi Qaxariya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir: "Zati-aliləri. Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm. Gürcüstan ilə Azərbaycan arasında möhkəm tarixi və ortaq maraqlara əsaslanan strateji tərəfdaşlığı məmnunluqla vurğulamaq istəyirəm. Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri əməkdaşlığın bütün sahələrində daha da möhkəmlənəcək. Bu, bölgəmizdə sülhün bərqərar olmasına, sabitliyin möhkəmlənməsinə və xalqlarımızın rifahına töhfə verəcəkdir.

Ölkələrimiz arasında gələcək əməkdaşlığı təşviq etməyə və münasibətləri daha yüksək səviyyəyə qaldırmağa Gürcüstan dövlətinin hazır olduğunu və bunun mənim də şəxsi istəyim olduğunu bir daha ifadə etmək istərdim. Cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha dərin ehtiramımı bildirir və doğum gününüz münasibətilə ən xoş arzularımı çatdırıram".

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident. TÜRKSOY təşkilatının baş katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizin builki ad gününüz Azərbaycan və Türk dünyası üçün önəmli tarixi hadisələrlə və nailiyyətlərlə əlamətdardır. İşğal altında olan torpaqlar Zati-alinizin müdrik siyasəti və hərbi rəhbərliyi nəticəsində şanlı Azərbaycan Ordusu tərəfindən azad edilərək Azərbaycan xalqının 30 illik Qarabağ həsrətinə son qoyuldu və əzəli Azərbaycan torpaqlarında sülh və rifahın bərqərar olması ilə tarixi ədalət bərpa edildi. İnanıram ki, işğal dövründə dağıdılmış bütün tarixi və mədəni irsimiz qısa zaman ərzində bərpa ediləcək və Qarabağda keçiriləcək beynəlxalq mədəni tədbirlərin təşkil olunmasında TÜRKSOY da yaxından iştirak edəcəkdir. Fürsətdən istifadə edərək, TÜRKSOY-un fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirir, bu əlamətdar gündə Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzulayıram".

# Hərbçilərin hərəkətinin tənzimlənməsi qaydası müəyyənləşdi

***Nazirlər Kabineti "Azərbaycan Respublikasında 2020-ci il dekabrın 14-dən xüsusi karantin rejiminin sərtləşdirilməsi haqqında" qərarında dəyişiklik edib.***



Unikal.org xəbər verir ki, qərara əsasən, müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslərin yaşadıqları və olduqları yerdən hərəkətinə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırış vərəqəsi və ya tibbi müayinədən keçmək üçün göndərişi əsasında, hərbi xidmətdən tərxis olunan şəxslərin yaşadıqları və olduqları yerə gəlməsinə isə onların hərbi bileti və müvafiq hərbi hissə tərəfindən verilmiş vərəqə əsasında yol veriləcək.

# Üçtərəfli bəyanatın arxasında nəhəng iş dayanır - Rusiya XİN



***Dağlıq Qarabağ münaqişəsinin həlli təkcə regional deyil, həm də qlobal kontekstdə ən vacib hadisələrdəndir.***

Unikal.org xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

XİN rəsmisi bildirib ki, münaqişənin həlli ən vacib nailiyyətlərdən biridir: "Burada Rusiyanın rolu aşkardır. Azərbaycan, Rusiya və Ermənistanın üçtərəfli bəyanatının arxasında nəhəng iş dayanır və sənədin reallaşması bu işlə bağlıdır. Bundan sonra da qarşıda kompleks işlər dayanır. Sülh olanda, çox şeyə nail olmaq olar".

# BMT qiymətləndirmə missiyasını Dağlıq Qarabağa göndərmək haqda qərar verib

***BMT rəhbərliyi kompleks qiymətləndirmə missiyasını Dağlıq Qarabağ münaqişəsi zonasına göndərmək haqqında qərar verib.***



Unikal.org-un verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib.

Onun sözlərinə görə, missiyanın tərkibində yerlərdə vəziyyətlə tanış olmaq və köməyə ehtiyacı olanların tələbatlarını qiymətləndirmək üçün profil humanitar agentliklərin nümayəndələri olacaq: "Hazırda məlum qiymətləndirmə missiyasının parametrlərinin hazırlanması və razılaşdırılması davam edir. Biz öz tərəfimizdən hesab edirik ki, bütün zərərçəkənlərə profil beynəlxalq təşkilatların xətti ilə humanitar yardımların fəallaşması faydalıdır".

# DYP-dən vətəndaşlara MÜRACİƏT

***Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) vətəndaşlara müraciət edib.***

BDYPİ-dən Unikal.org-a daxil olan müraciətdə deyilir:

"Hava şəraitinin kəskin dəyişməsi ilə əlaqədar yollarda qəzalar və digər xoşagəlməz halların baş verməməsi üçün Baş DYP İdarəsi sürücülərin nəzərinə çatdırır ki, istifadə etdikləri nəqliyyat vasitələrinin texniki sazlığına diqqət yetirsinlər.

Bəzi ərazilərdə qar yağması, yolların buz bağlama ehtimalının olmasını nəzərə alaraq, belə hava şəraitində sürücülərə qış mövsümünə uyğun şinlərlə təchiz edilməmiş, eləcə də istismar müddəti çox olan, ABS tormoz sistemləri ilə təchiz olunmayan köhnə avtomobillərdən mümkün qədər az istifadə etmələri tövsiyə olunur.

Eyni zamanda nəqliyyat vasitələrini idarə edən şəxslər hərəkət sürətini hava şəraitinə uyğun seçməli, zərurət olmadan ötmə əməliyyatı aparmaqdan, qəfil manevrlər




və kəskin tormazlama etməkdən çəkinməli, yola çıxmazdan əvvəl avtomobilin şüşə silgəclərinin və şüşəyuyanların, xarici işıq cihazlarının işlək vəziyyətdə olmasına əmin olmalıdırlar.

Piyadalar isə ancaq səki ilə hərəkət etməklə avtomobil yollarına çıxmasınlar və yolları yalnız müəyyən olunmuş yerlərdən keçsinlər.

Bütün hərəkət iştirakçılarını özlərinin və digər şəxslərin həyat və sağlamlığına təhlükə yaranmaması üçün son dərəcə diqqətli olmağa, qaydalara riayət etməyə çağırırıq".

# Azərbaycanda koronavirusa yoluxma sayı 2000-dən aşağı düşdü - 40 nəfər öldü




***Azərbaycanda bu gün koronavirus infeksiyasına 1850 yeni yoluxma faktı qeydə alınıb, 4226 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Unikal.org xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# President Qubadlı və Zəngilandan mühüm mesajlar verdi



***Xəbər verdiyimiz kimi, dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndində hərbçilərlə görüşdülər.

Prezident İlham Əliyev: Döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan Bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıblar, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

Əsgərlər: "Onları iti qovan kimi qovduq" sözləriniz şüarımızdır.

Prezident İlham Əliyev: Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, bizim torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim irəli.

Əsgərlər: Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızın üstündən əskik etməsin!

Prezident İlham Əliyev: Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu, bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

Əsgərlər: Sizin başçılığınız və iradəniz sayəsində.

Prezident İlham Əliyev: Sağ olun.

Əsgərlər: Biz sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: Gəlin, şəkil çəkdirək.

Əsgər: Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.

Dövlətimizin başçısı burada çıxış etdi.Ali Baş Komandan Vətən Müharibəsində Ordumuzun keçdiyi döyüş yolundan danışıb: "Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat var. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bizim vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq, öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar da onu göstərir ki, müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat - bütün bu amillər birlikdə və xalq-iqtidar birliyi bizim Qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət göstərir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər, Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti var. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işlərə qoşaraq öz çirkin əməllərini davam etdirsinlər, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, bax, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!

***

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəldilər.

Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

- Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışdıq, beynəlxalq kürsülərdən qaldırmışdıq, tarixi-dini abidələrimiz dağıdılıb, təhqir edilib. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edib.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırırlar. Bəs, bizim milli-dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESCO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Elə müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESCO, buraya gəl, gəl gör. Avropa Şurası səssiz qalma, gəl gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məscidə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər və müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyirlər. Bu "dost ölkəyə" 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan "beynəlxalq məmurlar" öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

***

Prezident İlham Əliyev: İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün, necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, İnşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

Birinci xanım Mehriban Əliyeva: Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

Prezident İlham Əliyev: Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

# "Rusiya Paşinyana qarşı bütün gücü ilə mübarizə aparır"

## Mütəllim Rəhimli: "Paşinyanın hakimiyyətdə qalması Ermənistanda Qarabağ iddialarının nəzərə alınmayacağını və onun arxa plana keçəcəyini söyləməyə imkan verir"



***27 sentyabrdan başlayan Vətən Müharibəsinin Ermənistanın məğlubiyyəti ilə başa çatmasından sonra Nikol Paşinyana qarşı başlayan narazılıq kritik həddə çatıb. Artıq Paşinyana qarşı bütün təbəqələr müxalif mövqeyə keçib. Hətta dini sektorun təmsilçiləri də Paşinyana asi düşüblər. Ermənistandakı vəziyyət, Paşinyana qarşı formalaşan narazılıqla bağlı "Unikal"a müsahibə verən Ədalət Partiyasının sədr müavini, Politoloq Mütəllim Rəhimli bir sıra məqamlara toxunub.***

***-Mütəllim bəy, Ermənistanda baş qaldıran narazılığın əhatə dairəsi genişlənməkdədir, əslində nə baş verir?***

-Baş verənlər onu göstərir ki, Rusiya Paşinyana qarşı bütün gücü ilə mübarizə aparır. Nəinki din xadimləri və müxalifətçilər ona qarşı çıxır, hətta öz komandasında da istefaları müşahidə etdik. Rusiyanın nə qədər gücü vardısa, işə saldı. Hətta xarici işlər nazirinin də istefa verdiyini gördük. Bundan sonra istefada olan hərbçilər Paşinyana qarşı birləşdi. Faktiki olaraq, hərbçilərin bu hərəkəti dövlət çevrilişinə cəhd kimi qiymətləndirilməlidir. Çünki hərbçilər ümumiyyətlə siyasətə qarışa bilməzlər. Dini icmaların da hərəkəti göstərir ki, tamamilə siyasiləşiblər. Bu günlərdə "Interfax" agentliyi bir araşdırma aparıb və ilin ən uğursuz siyasətçisi kimi Nikol Paşinyan qeyd olunub. Maraqlıdır ki, Rusiya bir tərəfdən Ermənistanı özünün müttəfiqi hesab edir, digər tərəfdən isə bu ölkənin dövlət başçısını uğursuz siyasətçi kimi dəyərləndirir. Bütün bunlar onu göstərir ki, Paşinyanın getməsi Rusiyanın regionda geostrateji maraqları baxımından əlverişlidir. Dünən artıq baş nazirin iqamətgahının qarşısı bağlanır, yollar kəsilir. Bu, Rusiyanın məqsədyönlü şəkildə Paşinyanın ətrafını daraltdığını deməyə əsas verir.

***-Paşinyana qarşı müxalifətin, hətta özünün keçmiş komanda yoldaşlarının da birləşməsi maraqlıdır. Amma digər maraqlı məsələ odur ki, ölkənin əksəriyyəti prosesə izləyici mövqedən yanaşırlar...***

-Göründüyü kimi, Qarabağdakı məğlubiyyətin ardınca Ermənitanda daxili siyasi vəziyyət gərginləşib və əleyhdarları baş nazirin istefasını tələb edirlər. Lakin Paşinyan hələ də dirənir. Proqnozların əleyhinə olaraq ölkə daxilində əhalinin əksəriyyəti ona qarşı etirazlara qoşulmur. Bu da Qarabağla bağlı ermənilərin hamısının eyni düşüncədə olmadığını göstərir.

Buna baxmayaraq, Rusiyanın Qarabağ planında Paşinyanın istefası mühüm yer alır. Aralarında Robert Koçaryan və Serj Sarkisyanın da olduğu 10-dan çox siyasi partiyanın rəhbəri Nikol Paşinyanın istefa verməsini və onun yerinə Vazgen Manukyanın baş nazir seçilməsini istəyir. Yəni, Rusiya bu ölkədəki siyasi tərəfdarlarının hamısını bir yerə cəm edərək güc göstərir. Bütün bunlar hələ ki, hədəfə çatmaq üçün yetərli olmur. Ona görə də Paşinyanın mövqelərini daha da zəiflətmək üçün ətrafındakıların istefası və Qarabağ cəbhəsində yeni uğursuzluqlar - erməni hərbçilərinin əsir düşməsi, bəzi kəndlərin boşaldılması və s. kimi təzyiq vasitələrinə də əl atılır.

***-Bəs Paşinyanın bağlı olduğu Qərb nə düşünür?***

-Rusiyanın əksinə olaraq Qərb Paşinyanın qalmasını istəyir. Cəmiyyətin bütövlükdə ona qarşı köklənməsini əngəlləyir, təmkinli addımların atılmasını və qərarların qəbulunu dəstəkləyir. Hər iki tərəf Ermənistan üzərindən öz oyununu oynamaqdadır. Qərb Rusiyanın ssenarisini pozmaqda və Paşinyanı qorumaqdadır. Hələ ki, görünən mənzərə budur.

***-Bundan sonra Paşinyanın hakimiyyətdə qalması Azərbaycana nə vəd edir?***

-Paşinyanın hakimiyyətdə qalması Ermənistanda Qarabağ iddialarının nəzərə alınmayacağını və onun arxa plana keçəcəyini söyləməyə imkan verir. O, ölkəsini daha çox Qərbə istiqamətləndirməyə çalışacaq, beləliklə də, Azərbaycanla deyil, Rusiya ilə qarşıdurmada olacaq. Bütün gücünü Rusiyanın nəzarətindən çıxmağa, heç olmasa Gürcüstan kimi Avropa Birliyi ilə əlaqələr qurmağa yönəldəcək.

Lakin hazırda ölkə müxalifətinin baş nazirliyə vahid namizədi olan Vazgen Manukyan, gələcəkdə baş nazir olacağı ehtimal edilən Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyan, adı hələ çəkilməsə də iddiaları sezilən Robert Koçaryan daha şovinist təsir bağışlamaqla, həm də Rusiyanın dəstəklədiyi namizədlərdir. Bunların siyasəti həmişə Azərbaycan torpaqlarının işğalı və Qarabağ üzərindən qurulub. Hakimiyyətə gəldikləri təqdirdə də çox güman ki, Rusiyanın dəstəyi ilə ölkəmizə qarşı aqresiya siyasəti aparacaqlar. Rusiyanın diqtəsi və nəzarətinə verəcəkləri Ermənistan cəmiyyətinə bundan artıq nəsə bəxş edəcəkləri görünmür. Rusiya "sülhməramlılarının" nəzarətində olan və hazırda qeyri-müəyyənliklərlə dolu Qarabağda revanş edəcəklər. Bu isə bizim xeyirimizə deyil.

Ona görə də Paşinyanın maksimum dirənərək, C.Baydenin ABŞ-da hakimiyyət başına gələnədək qalması regionda situasiyanı dəyişə bilər. O vaxtadək Ermənistanda tərəflərin silahdan istifadə etməsi də istisna deyil. Rusiyanın vətəndaş müharibəsini alovlandırmaqdan başqa yolu qalmaya da bilər. Çünki Paşinyana qarşı sui-qəsdlər də bəhrə vermir, Qərb onun mühafizəsini çox yaxşı təşkil edir və lazım gələndə bunkerdə gizlədir.

***-Mütəllim bəy, koronavirus pandemiyası ilə bağlı son dövrlər Azərbaycanda da vəziyyət yaxşı deyil. Bu barədə nə düşünürsünüz?***

-Ölkədə koronavirus xəstələrinin sayı göstərilən rəqəmlərdən də yüksəkdir. Bunu hamı bilir. Səbəb isə ondan ibarətdir ki, təcili yardım çatışmazlığı var, hamının özəl klinikalarda test vermək imkanı yoxdur. Komputer tomoqrafiyası da bahadır. Bununla belə KT-də koronavirusa yoluxduğu təsdiq olunanlar rəsmi olaraq xəstə hesab olunmurlar. Bu siyahıya nəzarət TƏBİB-in əlindədir.

Səhiyyə sistemi ən azı 2 yerə bölündüyündən tərəflər artıq insanların sağlamlığından daha çox öz imiclərinin qayğısına qalırlar, kim-kimə qalib gələcək. İnsanların şikayətləri ötür-ötürdə, taleyi isə Allahın ümidinədir. Necə olur ki, xəstələri daşıyan təcili yardım Səhiyyə Nazirliyinə məxsusdur, lakin xəstəxanalar TƏBİB-ə və s.? Bunlar hansı "dahi"nin məntiqi, yaxud uydurmasıdır.

Özəl klinikalarda test maya dəyərindən 10 dəfə baha edilir, koronanın müalicəsində istifadə olunan dərmanlar əlaltdan "qara bazarda" dəfələrlə yuxarı qiymətə satılır. Ancaq bunun məsuliyyətini kimsə üzərinə götürmür və qarşısını alan yoxdur. Yoxsa, yumurta insanların sağlamlığını qoruyan dərmanlardan daha strateji məhsul hesab olunur?! Mövcud situasiya tələb edir ki, səhiyyədə olan paralel idarəçilik təcili ləğv edilsin. Xüsusilə, qısa fəaliyyəti ilə insanlarda böyük narazılıq doğuran TƏBİB qara yara kimi kəsilib atılmalıdır.

***-Yaxşı, konkret təklifiniz nədir? Paralel sistem var, biabırçı idarəçilik varsa, camaatın qırılmağını gözləməliyik?***

- Mən düşünürəm ki, üç sahədə heç nəyi gizlətmək mümkün deyil. Təhsil, hansı ki, hamının evində var. Hüquq-mühafizə orqanlarının fəaliyyəti, çünki insanların hüquq və azadlıqlarına təsir edir. Üçüncüsü isə səhiyyədir. Çünki hər bir insanın sağlamlığı təhdid altındadır. Məsələ bundadır ki, biz onsuz da Səhiyyə Nazirliyinin qeyri-peşəkar fəaliyyətini indiyə qədər də müşahidə edirdik. İndi isə paralel bir struktur yaradılıb. Bu paralellik səhiyyə sistemini kökündən baltalayır. Təbii ki, biz orada fəaliyyət göstərən insanlara hörmətlə yanaşırıq. Xaricdə oxuyub gəliblər. Amma xaricdə oxumaq və buna görə başını dik tutub gəzmək hələ problemin həlli demək deyil. Bu insanlar bizim milli düşüncələrimizdən və mənəvi dünyamızdan tamamilə kənar insanlardır. İkincisi, biz gördük ki, TƏBİB-in rəhbəri öz klinikasında test yoxlaması təyin edib. Bu da dövlətə başa gələn qiymətdən bir neçə dəfə bahadır. Bu günlərdə onun müsahibəsini oxudum ki, bu testlər dövlətə 40 manata başa gəlir. TƏBİB-in rəsmi açıqlamalarında özləri qeyd edir ki, biz hər gün 20-30 min test edirik. Amma mən rəqəmlərə baxıram ki, bu rəqəm 10 mini keçmir. Bəs bu pullar hara xərclənir? Bunlar onu göstərir ki, TƏBİB Qərbin donunu geysə də, rüşvətxor bir quruma çevrilib. İnsanların taleyinə tamamilə biganədir. Necə olur ki, dərman biznesi bu qədər artıb? Ölkədə dərman yoxdursa, əl altından satılan dərmanlar hardandır? Bunlar necə baha qiymətə satıla bilir? Deməli müəyyən insanlar var ki, fürsətdən istifadə edərək ciblərini doldurmağa çalışırlar. TƏBİB də bunun öhdəsindən gələ bilmir. Ən yaxşı halda TƏBİB-i ləğv etmək lazımdır. Mənim düşüncəmə görə, təkcə ləğv etmək yox, bu qurumun bütün rəhbər heyətinə cinayət işi açmaq lazımdır.

***Z.Məmmədli***

# “Siz dünya azərbaycanlılarının Milli Qəhrəmanısınız” - Prezidentə yazırlar

***Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə əlaqədar vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər.***

“Unikal” Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

**Sumqayıt şəhərindən birinci Qarabağ müharibəsi veteranı Məmməd Şirinov yazır:**

“Hörmətli Cənab Prezident! Siz xalqımızın ürəyində sağalmayan yaraya çevrilmiş Qarabağ həsrətinə, milli qürurumuzun dərdinə məlhəm qoyaraq onu çox qısa bir müddətdə, cəmi 44 gün ərzində sağaltdınız. Bunun üçün xalqımızın Sizə böyük təşəkkürü var. Siz döyüş meydanında azğın düşmənin qarşınızda diz çökməsinə nail olmaqla bərabər, həm də bizə qarşı çevrilmiş dünya informasiya və diplomatiya xəyanətkarlarına elə bir tutarlı zərbə vurdunuz ki, o zərbənin dadı heç vaxt onların damağından getməyəcək. Bütün bunlara görə xalqımızı çox qürurlandırdınız. Allah Sizin qürurunuzu daha da çox etsin. Sizin böyük rəhbərlik istedadınız nəticəsində 44 günlük müharibə zamanı xalqımızı dəmir yumruq kimi öz ətrafınızda birləşdirməyi bacardınız. Bu birlik tariximizdə görünməyən bir həmrəyliyin və xalqla birliyinin ən yüksək zirvəsi sayılmalıdır. Xalqımız və dövlətimiz yolunda göstərdiyiniz saysız xidmətlərə və uğurlara görə haqq olaraq xalqımızın Qəhrəman oğlu adına layiqsiniz. Cənab Prezident, bundan sonrakı idarəçilik və quruculuq fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram. Allah Sizi qorusun!”.

**Bakıdan şəhid anası Sevinc İslamova yazır:**

“Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan! Bu gün Azərbaycanda hər kəsin qəlbinə bu cümlələr hakim kəsilib: 44 günlük haqq savaşı ilə ədaləti yerinə qoyan, “Qarabağ Azərbaycandır!” nidası ilə tarix yaradan Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev, müzəffər Azərbaycan Ordusu, şəhidlərin al qanı, qazilərin qüdrəti ilə Azərbaycan bayrağını Şuşa qalasında dalğalandırdı! 30 ilin intizarına 44 günə son qoyuldu! Qisas qiyamətə qalmadı!

Dostuna yazdığı son “Şəhid olmağa gedirəm, qardaş” mesajı ilə şəhidliyə qovuşan, yeganə oğlum Elvin İslamov Cəbrayıl və Füzuli istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb. Son döyüşü Füzuli rayonunun Qorqan kəndində olub. Oktyabrın 30-da Qaradağ rayonunun Qurd dərəsi məzarlığında torpağa tapşırılıb. Dünən onunla son vidadan 40 gün keçdi.

Bu 40 gündə bizi tək qoymayan, dərdimizə şərik çıxan hər kəsə təşəkkür edirəm. Hər gün qayğımızla maraqlanan, bizi ən doğma adamları kimi qəbul edən təsəlli, ümid yerimiz olan insanlara və Sizə minnətdarlıq edirəm.

Müzəffər Ali Baş Komandan!

Biz 44 günlük tarixi savaşla birliyimizi, bütövlüyümüzü sübut etdik. Bizə böyük zəfəri yaşatdığınız üçün Sizə təşəkkür edirəm. Nə qədər kədərli olsa da, qürur hissi keçirirəm. Bu tarixi qələbədə yeganə oğlumun şəhid Elvin İslamovun payı olduğuna görə sevinirəm. Mən bir Qəhrəman Anasıyam!

Bir Şəhid ailəsi kimi kiçik bir diqqət, mənəvi dəstək bizə təsəlli olur. Ötən 40 gün içərisində Sizin tapşırığınız əsasında bizə göstərilən qayğı isə böyük dəstək idi. Xalqın dərdini öz dərdi, xalqın kədərini öz kədəri bilən liderin sayəsində Xalq - Lider, Millət - Dövlət birliyi pozulmaz! Xalqın dövlətə inamı, etibarı azalmaz!

Bir daha Sizə Şəhid və Qazi ailələrinə göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Tanrı xalqımızı, dövlətimizi, Prezidentimizi qorusun! Bütün Şəhid ailələrinə səbir versin!”.

**Xalq artisti Fərhad Bədəlbəyli:**

“Əziz Prezidentimiz! Sizin görkəmli dövlət xadimi, fateh sərkərdə kimi xalqımız qarşısında tarixi xidmətləriniz əvəzolunmazdır. Ulu öndərimiz Heydər Əliyevin ideyalarını həyata keçirərək, Siz daim dövlətin və xalqın rifahını düşünür, bütün həyatınızı və fəaliyyətinizi bu amala həsr edirsiniz. Bu, Sizin ən ali məqsədinizdir. Beynəlxalq miqyasda Azərbaycan həqiqətlərini dünyaya çatdıran, dövlətin iqtisadi maraqlarını təmin edən və dünyanın ən inkişaf etmiş ölkələri sırasında Azərbaycanı ləyaqətlə təmsil edən lider kimi Sizinlə qürur duyuruq. Siz beynəlxalq aləmdə dövlətimizin haqqının və hüququnun qarantına çevrilmisiniz.



Möhtərəm Ali Baş Komandanımız! Bu il Siz bizə Qarabağda böyük Qələbə sevincini yaşatdınız. Bu tarixi Qələbə məhz Sizin müdrik rəhbərliyiniz altında qazanıldı və Azərbaycanımız uzun illər davam edən işğaldan qurtuldu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi, neçə illik torpaq həsrətinə son qoyuldu, nə qədər insana ümid, xoş gələcək müjdəsi verdiniz. Bütün Azərbaycan xalqı üçün, bütün dünya Azərbaycanlıları üçün bu Zəfər günlərini yaşamaq neçə ömrə bərabərdir. Buna görə biz Ali Baş Komandanımız, Sizə və şanlı Ordumuza minnətdarıq.

Artıq dillər əzbəri olmuş “Şuşa bizimdir!”, “Qarabağ Azərbaycandır!” şüarları uşaqdan-böyüyədək hamımızın ürək döyüntümüzü əks etdirir. Azərbaycanın hər bir vətəndaşı üçün bunlar müqəddəs məfhumlardır. Sizin qətiyyətiniz, nüfuzunuz və siyasi iradəniz sayəsində bütün dünya Azərbaycan dövlətinin gücünə, qüdrətinə, xalqımızın birliyinə bir daha inandı.

Biz bütün qəlbimizlə hər addımınızda Sizi dəstəkləyirik və əminik ki, dilindən, dinindən, yaşından, istedadından, ad-sanından, məşğuliyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları ömrümüzü Vətənimizə həsr etməyə hazırıq. Həqiqətən, fəxr edirik ki, biz Azərbaycanlıyıq, dünyaya günəş kimi doğmuş Azərbaycanın vətəndaşlarıyıq.

Əziz Prezidentimiz! Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, Vətənimizin xoş gələcəyi və rifahı naminə bütün sahələrdə yüksək nailiyyətlər arzulayırıq. Biz Sizinlə fəxr edirik!”.

**Naftalan şəhərindən İltifat Lütfizadə:**

“Möhtərəm Prezidentim cənab İlham Əliyev, tarix yazan sərkərdəmiz! Tarixi və şanlı Qələbə münasibətilə Sizi və xalqımızı səmimi qəlbdən təbrik edirəm. Bu xalqın, bu dövlətin Sizə hər zaman böyük ehtiyacı var. Çünki Siz hədəfləri dəqiq nişan alan sərkərdə və diplomat, xalqa can yandıran qayğıkeş, dövlət başçısısınız.

Mən fəxr edirəm ki, qalib ölkənin vətəndaşıyam. Bütün Azərbaycan xalqı, o cümlədən Naftalanlılar Tanrıya şükür edir ki, biz belə bir şərəfli tarixin şahidiyik. Tanrı Sizi qorusun müzəffər Ali Baş Komandan, Azərbaycanımızın xilaskarı, Milli Qəhrəmanımız!”.

**Bakı sakini Cavad Axundzadə:**

“Müzəffər Ali Baş Komandan! Görkəmli şair Əhməd Cavadın ailəsi adından Sizə dərin ehtiram və hörmətimizi bildirmək istəyirəm. İnanıram ki, Azərbaycan xalqına bəxş etdiyiniz tarixi qələbə və milli ruhun yenidən dirçəlməsi, ulu babamın ruhunu şad etmişdir.

Cənab Prezident, ulu babamın Azərbaycan Dövlət Himninin sözlərinin müəllifi olması bizi daim qürurlandırırdı. Zəfər paradında Əhməd Cavadın adının anılması bizi sonsuz bəxtiyar etdi.

Bu Parad Azərbaycan və Türkiyə xalqlarının gücünün və etibarının təcəssümünə çevrildi. Qoy Uca Tanrı Sizi və ailənizi qorusun!”.

“Öz siyasətiniz və dəsti-xəttinizlə sübut etdiniz ki, Siz müstəqil Prezident, güclü diplomat və yenilməz sərkərdəsiniz”

Cəlilabad rayonundan Əliheydər Əsədov, Rüstəm Nuriyev, Əlisafa Qafarov, Vətənxar Zeynalov, Nurlan Məmmədov və Elsevər Qiyasov yazırlar: “Çox hörmətli möhtərəm cənab Prezident!

Dövlət, xalq və müzəffər ordu birliyinin parlaq, əsrarəngiz nailiyyəti olan Qələbə sevinci ilə yaşadığımız bu anlar bütövlükdə Azərbaycanımızın dövlətçilik tarixinə qızıl hərflərlə yazılan günlərdir. Öz siyasətiniz və dəsti-xəttinizlə dünya dövlətlərinə sübut etdiniz ki, Siz müstəqil Prezident, güclü diplomat və yenilməz sərkərdəsiniz.

27 il mənfur düşmən işğalında olan torpaqlarımızın 44 gündə azad olunması Ali Baş Komandan kimi Sizin qətiyyətinizin və şücaətinizin nəticəsidir. Ermənistanın siyasi rəhbərliyini dəstəkləyən, ona havadarlıq edən dövlət rəhbərlərinə verdiyiniz konkret və tutarlı cavablar onları susmağa və öz mənfur niyyətlərindən çəkinməyə məcbur etdi. Siz eyni zamanda sifarişli informasiya nəhəngləri ilə mübarizədə də öz qələbənizi təmin etdiniz.

Cənab Prezident, torpaqlarımızın işğaldan azad olunması müzəffər ordumuzun mükəmməl zəfər yürüşü sayəsində, xüsusən əsgər və zabitlərimizin canı, qanı bahasına başa gəlmişdir. Vətən müharibəsində rayonumuzun 90 övladı şəhidlik zirvəsinə ucalmışdır.

Dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət kəsb edən kadr siyasətinin aparılması istiqamətində gördüyünüz işlər və həyata keçirdiyiniz təxirəsalınmaz tədbirlər təqdirəlayiqdir. Cəlilabadlılar Sizin mükəmməl fəaliyyətinizi bəyənir, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi istiqamətində gördüyünüz tədbirləri alqışlayır. Biz Sizinləyik, hər zaman Sizin arxanızdayıq! Tanrı Sizi Qorusun!”.

Türkiyə İzmir şəhərindən Mülazim Paşa yazır: “Hörmətli Prezident, cənab Ali Baş Komandan! Mənim əslim İrəvan şəhərindəndir. Ailəmiz həmin şəhərdən Türkiyəyə mühacirət etmişdir. Sizi və şanlı Ordumuzu, cəsur xalqımızı Qarabağ zəfəri münasibətilə təbrik edirəm.

Sizin Azərbaycana rəhbərliyiniz dövründə müstəqilliyimizin əmin əllərdə, Vətənimizin təhlükədən uzaqda olduğunu bilirik və xoş günlərin hələ qabaqda olduğuna əminik.

Qırx dörd günlük müharibədə şanlı Ordumuzla birlikdə Azərbaycan xalqının adını tarixə qızıl hərflərlə yazdınız. Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiniz, rəşadətli Ordumuzun qüdrətini dünyaya tanıtdınız. Siz, eyni zamanda, ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz. Qətiyyətinizlə düşməni diz üstə çökdürüb məzlum vəziyyətə saldınız.

Televiziya vasitəsilə Sizdən şad xəbərləri aldıqca sevinir, xoşbəxt olurduq. Sizin və hörmətli Rəcəb Tayyib Ərdoğanın qardaşlığınız bütün dünya türklərini sevindirdi.

Amma Sizin əzminiz sayəsində bu terrora qalib gəldik, həm də dost və qardaş ölkələri bir daha tanıdıq, əlaqələrimiz daha dərinləşdi, daha da doğmalaşdı. Sizə təşəkkür edir, sonsuz ehtiramımızı bildiririk. Yaşasın Azərbaycan-Türkiyə Qardaşlığı! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır! Sizə xidmət etməyə daim hazırıq”.

**Hacıqabuldan Ravil Babayev:**

“Hörmətli Prezident, cənab Ali Baş Komandan! Mən və ailəmiz fəxr edirik ki, Sizin kimi müdrik, geniş dünyagörüşlü rəhbərimiz var. Siz Azərbaycan xalqının igid oğlu, ulu öndər Heydər Əliyevin layiqli davamçısısınız. Ulu öndər Heydər Əliyev Azərbaycanın inkişafında böyük rol oynayıb və bu gün Siz onun ideyalarını daha da inkişaf etdirirsiniz. Sizin rəhbərliyiniz və uzaqgörən siyasətiniz nəticəsində şanlı Ordumuz Vətən müharibəsində parlaq Qələbə qazandı.

Allah ulu öndər Heydər Əliyevə, şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun. Qazilərimizə Allahdan şəfa diləyirik.

Cənab Ali Baş Komandan, Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Biz hacıqabullular Sizi çox sevirik və ömürlük rəhbərimiz olmağınızı istəyirik.

Mən 20 ildən çoxdur ki, Hacıqabul rayon xəstəxanasında təcili yardım avtomobilinin sürücüsü işləyirəm. Vətən müharibəsi dövründə mən də cəbhəyə ezam olunmuşdum. Cocuq Mərcanlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Qızğın döyüşlərdə şəhidlərimizi, yaralılarımızı yaxınlıqda yerləşən xəstəxana və hospitallara aparırdım. Sıradan çıxmış təcili yardım maşınlarını təmir edib əsgərlərimizin xəstəxanalara çatdırılmasına kömək edirdim. Bu, mənim Vətən qarşısında borcumdur. Hadrut istiqamətində gedən döyüşlərdə də iştirak edən əsgərlərimizi daşımışam. Hətta dəfələrlə ölümlə üz-üzə gəlsəm də, qorxmamışam. Vətən yolunda şəhid olmağa da hazıram.

Cənab Prezident, mənim bir arzum da var idi, doğma Şuşa şəhərinə kimi gedim. Sizin uzaqgörən siyasətiniz sayəsində Şuşanın alınması və xalqımıza şad xəbər verməyiniz Azərbaycan xalqını sevindirdi.

Cənab Prezident, şəxsən öz adımdan, ailəmin adından və Hacıqabul əhalisi adından Sizə təşəkkür edirəm, möhkəm cansağlığı, uzun ömür arzulayıram. Siz dediyiniz kimi, “Qarabağ Azərbaycandır!”.

# Mədəniyyət Nazirliyində növbəti kadr təyinatı olub

***Mədəniyyət Nazirliyinin İncəsənət şöbəsinin müdiri vəzifəsinə təyinat olub.***

Nazirlikdən "Unikal"a verilən məlumatagörə, vəzifəyə Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimovun müvafiq əmri ilə Acalova Fərəh Fuad qızı gətirilib.

Qeyd edək ki, Fərəh Acalova 1980-ci ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" ixtisası üzrə bakalavr (fərqlənmə), 2002-ci ildə həmin ixtisas üzrə magistr (fərqlənmə), 2009-cu ildə Böyük Britaniyanın Sasseks Universitetinin İnkişaf Araşdırmaları İnstitutunun "Gender və inkişaf" ixtisası üzrə magistr (fərqlənmə) pilləsini bitirib. Vyana Diplomatik Akademiyasında Avropa Araşdırmaları üzrə təlim kursunun xüsusi fərqlənmə sertifikatını alıb. Nyu York Universiteti (ABŞ) və Lund Universitetində (İsveç) beynəlxalq humanitar hüquq və insan hüquqları üzrə təlim kurslarında iştirak edib. ADA Universitetinin orta və yüksək vəzifəli diplomatlar üçün liderliyin inkişafı üzrə xüsusi təlim kursunun ilk məzunlarından biridir.

Əmək fəaliyyətinə 2000-ci ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində başlayıb. 2002-2003-cü illərdə Azərbaycanın UNESCO üzrə Milli Komissiyasında təhsildə gender bərabərliyi üzrə ekspert kimi fəaliyyət göstərib. 2003-2007-ci illərdə Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyində çalışıb. Həmin illərdə Azərbaycan Respublikasının Sivilizasiyalararası Alyansda iştirakı məsələlərini əlaqələndirib, eyni zamanda İslam Əməkdaşlıq Təşkilatına Azərbaycanın sədrliyi dövründə Təşkilatın humanitar, sosial və mədəniyyət məsələləri üzrə ekspert qrupuna sədrlik edib.

2009 və 2019-cu illərdə Azərbaycan diplomatiyasının 90 və 100 illiyi münasibətilə Xarici İşlər Nazirliyinin müvafiq medalları ilə təltif olunub.

2010-cu ildə Koreya Respublikasının Gender Bərabərliyi və Ailə Nazirliyi və Beynəlxalq Qadın İnkişafı Fondu tərəfindən "Qadın və Gələcək" mükafatına layiq görülüb.

Son təyinatadək Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində Beynəlxalq İnsan Hüquqları Təsisatları ilə Əməkdaşlıq İdarəsinin rəis müavini vəzifəsində çalışıb.

İkinci dərəcəli müşavir diplomatik rütbəsinə malikdir.

İngilis, rus, fransız və ispan dillərini bilir.

# Səfərbərliyə cəlb edilmiş tələbələrə hansı güzəştlər ediləcək? - RƏSMİ

***Nazirlər Kabineti "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi raqqında" 2010-cu il 23 aprel tarixli 76 nömrəli və "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 24 iyun tarixli 117 nömrəli qərarlarında dəyişiklik edib.***

Unikal.org xəbər verir ki, "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"na edilən dəyişikliyə əsasən, 2019/2020-ci tədris ilində buraxılış kurslarında təhsil almış, tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari və aralıq attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəq qiymət almış və müəyyən səbəbdən yekun dövlət attestasiyasından keçməmiş qismən səfərbərlik üzrə hərbi xidmətə çağırılan hərbi vəzifəli tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən müəyyən edilmiş Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq yekun dövlət attestasiyasından keçmiş hesab olunacaq.

"Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"na edilən dəyişikliyə əsasən, 2019/2020-ci tədris ilində buraxılış kurslarında təhsil almış, tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari və aralıq attestasiyalardan (fənlər üzrə attestasiyalardan) müvəffəq qiymət almış və müəyyən səbəbdən yekun dövlət attestasiyasından keçməmiş qismən səfərbərlik üzrə hərbi xidmətə çağırılan hərbi vəzifəli tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na əsasən müəyyən edilmiş Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə) uyğun olaraq yekun dövlət attestasiyasından keçmiş hesab olunacaq.

Bu Qərar 2021-ci il yanvarın 31-dək qüvvədədir.

# Misir Mərdanov dövründə ilişib qalan kadrların biabırçı qalmaqalları...

## Onlar ölkə təhsilinin imicini zərbə altında qoymağa davam edirlər - bəs nə etməli?

***Yola salmaq üzrə olduğumuz həftə Bakının qalmaqallı məktəb direktoru bu dəfə karantin qaydalarını pozmaqla gündəm olub. Belə ki, 187 nömrəli tam orta məktəbin direktoru Nailə Məmmədova evində təşkil etdiyi doğum günü məclisi ilə karantin qaydalarını kobud şəkildə pozub.***

Nailə Məmmədova fərdi yaşayış evində təşkil etdiyi məclisə onlarla şəxsi dəvət edib. Direktor həmçinin məclisə müğənnilər də çağırıb. Nailə Məmmədovanın evində baş tutan məclisdən çəkilən videogörüntülər iki gündür sosial şəbəkələrdə geniş şəkildə yayılır. Videoların birində direktor məclisə dəvət etdiyi müğənni ilə qucaqlaşır, qonaqlar isə bu anı lentə alır. İkinci videoda isə direktor kəsilən tortu bir-bir qonaqlara özü yedirir.

Xatırladaq ki, Nailə Məmmədova bir neçə dəfə sosial şəbəkələrdə və ölkə mediasında gündəm olub. Həm də şair olduğunu iddia edən Nailə Məmmədova yazdığı şeirlərlə sosial şəbəkə istifadəçilərini güldürməyi bacarıb.

Bundan başqa N.Məmmədova rəhbəri olduğu məktəbdə özbaşınalıq, rüşvət və korrupsiya halları ilə bağlı yazılan yazılara görə onа zəng edən jurnalisti təhqir etməsi ilə də diqqət mərkəzinə düşmüşdü.

Bakı Şəhər Təhsil İdarəsindən 187 nömrəli tam orta məktəbin direktoru Nailə Məmmədova ölkə üzrə tətbiq olunan xüsusi karantin rejiminin tələblərini pozması səbəbilə intizam məsuliyyətinə cəlb edilib və ona Təhsil nazirinin əmri ilə Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq maddəsinə əsasən, sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib. Bir çoxları xüsusi karantin rejiminin tələblərini pozması səbəbilə daha ciddi cəzalandırılarkən adıçəkilən məktəb direktorunun töhmətlə can qurtarması düşündürücüdür.

Lakin bizim bu yazını tamamilə bir məktəb direktoru üzərində qurmaq fikrimiz yoxdur. Mövzumuz daha genişdir: Azərbaycanda nə vaxtadək məktəb direktorları ən müxtəlif qalmaqallarla gündəmə gələyə, bununla da həm bu təhsil ocaqlarının, həm də ümumilikdə ölkə təhsilinin imicini zərbə altında qoymağa davam edəcəklər. Üstəlik, həmin imic onsuz da ürəkaçan vəziyyətdə olmadığı halda...

Bir neçə ay öncə Saatlı rayonu Yeni Novruzlu kənd tam orta məktəbinin direktoru Elnur Rzayevə "Müəllimlərin etik davranış Qaydaları"nı pozduğuna görə, Təhsil nazirinin müvafiq əmri ilə töhmət verilmişdi.

Üstəlik, son bir ildə onlarla məktəb direktoru işindən kənarlaşdırılıb. Hansı ki, onların bir çoxu ilə bağlı şikayətlərin ardı-arası kəsilmirdi.

Lakin bütün bunlara baxmayaraq ümumi mənzərə dəyişmir: hər ay bir neçə məktəb direktoru hansısa davranışına, qanunsuz əməlinə görə gündəmə gəlir.

Üstəlik, belə məktəb direktorlarının çoxu hələ Misir Mərdanovun nazir olduğu vaxtdan həmin vəzifələrdə işləyirlər. Görünən odur ki, zaman dəyişir, təhsil nazirləri dəyişir, ölkədə idarəçilik prinsipləri, yanaşması dəyişir, dövrün tələbinə uyğun çağırışlar ön plana çıxır, lakin təhsil ocaqlarının rəhbərlərinin çoxu üçün hələ də "köhnə hamam, köhnə tas" normativi qüvvədədir. Görünür, onlar üçün Mərdanov dövrünün standartları ilə işləmək daha sərfəli və əlverişlidir - əlbəttə, şəxsi maraqlar baxımından!



Nəticədə istər-istəməz sual etməli olursan: doğrudanmı, Azərbaycanda məktəb direktorlarının peşəkar, işinə bağlı, sağlam pedaqoqlardan təşkili bu qədər çətindir? Həqiqətənmi, birbaşa gələcəyimizlə bağlı olan ciddi bir məsələnin kökündən həlli üçün hələ uzun müddət gözləmək lazımdır?

Açığı, hazırkı təhsil naziri Emin Əmirullayevin elə bu ayın əvvəlində söylədiklərindən sonra çox da optimist ola bilmirsən. Nazir demişdi ki, "hazırda məktəb direktoru seçmə məsələsi bir tərəfə qalsın, hansı məktəbdə hansı fənni neçə saat dərs demək lazım olduğunu da Təhsil Nazirliyi müəyyən edir. Çünki hətta bu şərtlər çərçivəsində belə biz hər il bir neçə məktəb direktorunun həmin saatları qeyri-düzgün bölməkdə, paylamaqda problemlərini görürük".

Vəziyyətin az qala bu qədər acınacaqlı olması ürək ağrıdır.

Lakin bir məsələ qətidir: Azərbaycanda orta məktəblərə rəhbərlik edənlərin seçimində ədalət, şəffaflıq və müasir dövrün çağırışları, yeni təhsil standartları, qaydaları əsas götürülmədikcə real uğurlu nəticədən danışmaq çətin, hətta mümkünsüz məsələdir. Hələ də Misir Mərdanov dönəminin normativləri ilə düşünən və hərəkət edən məktəb direktorlarının mövcudluğu şəraitində biz təhsil ocaqlarının rəhbərləri ətrafında qalmaqalları da çox görəcəyik, ümumilikdə təhsil sisteminin imicini korlayan hal və hərəkətləri də...

***Sənan Mirzə***

# Elman Rüstəmovun qəribə məntiqi...

## Mərkəzi Bank rəhbəri ictimai müzakirələrə niyə sərt reaksiya verir?

***Bu həftə Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov yenidən devalvasiyanın olacağı barədə səsələnən fikirlərə münasibət bildirdi və bunu cəfəngiyyat adlandırdı. Onun sözlərinə görə, indiki halda belə söhbətlərə gərək yoxdur: "Hamı qələbəyə köklənib. Devalvasiyanın olması xəbərləri boş söhbətlərdir".***

Müstəqil iqtisadçı ekspertlərdən tutmuş sıravi vətəndaşlaracan bir çoxu isə Elman Rüstəmovun bu sözlərini anlaşılmaz sayır. Xüsusilə o mənada ki, manatın ucuzlaşa biləcəyi barədə iddialarla Ordumuzun qazandığı şanlı Qələbə arasında bağlantı qurmaq cəhdini başa düşmək həqiqətən çətindir. Üstəlik, devalvasiya proqnozları havadan yaranmayıb.

"Azərbaycan manatının ABŞ dolları və digər əsas xarici valyutalara qarşı dəyərdən düşməsi ehtimalı ölkənin fiskal mövqeyi üçün əsas risk amillərindən biri olaraq qalmaqdadır. Belə ki, məzənnə riskinin dövlət büdcəsinə əsas transmissiya kanallarından biri neft qiymətlərinin pisləşməsi fonunda yuxarıda qeyd edilən risklərin daha da kəskin xarakter almasıdır. Digər tərəfdən dövlət büdcəsinin tərtibi zamanı 2021-ci il üzrə 1 ABŞ dollarının 1,7 manata bərabər tutulduğunu nəzərə alaraq, manatın məzənnəsinin xarici valyutalara qarşı zəifləmə ehtimalı dövlət büdcəsində xarici dövlət borcuna xidmət xərclərinin də proporsional olaraq artması riskini özündə ehtiva edir" - bu sətirlər "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb.

Və məhz həmin sətirlərdən sonra mediada, iqtisadçılar arasında devalvasiya gözləntisi barədə fikirlər, şərhlər meydana çıxıb. İndi necə başa düşək? Rüstəmovun məntiqincə, sözügedən qanun layihəsində yer alan həmin sətirlər də əslində "boş söhbətlərdir"? Yoxsa ölkənin baş bankirinin haqqında danışılan sətirləri ümumiyyətlə oxumayıb və onlardan xəbərsizdir?

Axı elə həmin layihədə o da qeyd edilib ki, pandemiyanın hələ də davam etməsi və karantin qaydalarının sərtləşməsi şəraitində antiböhran tədbiri kimi yumşaq pul siyasətinin tətbiqi kredit şərtlərini asanlaşdırmaqla iqtisadi fəallığa stimul verir və valyuta bazarında likvidliyə olan tələbatı təmin etmiş olur. Lakin hazırda yaşadığımız müstəsna zaman kəsiyində əhalinin məcmu tələbinin əhəmiyyətli dərəcədə aşağı düşməsi valyuta bazarında izafi likvidliyə gətirib çıxarır. Belə olan halda isə Mərkəzi Bank və Maliyyə Nazirliyi tərəfindən qiymətli kağızlar bazarında aparılan əməliyyatlar valyuta bazarında yarana biləcək təzyiqlərin də qarşısını almış olur.

Elman müəllimin rəhbəri olduğu qurumun da adının çəkildiyi son cümlədən anlaşılan həm də budur ki, manata yaranan təzyiqlər hələlik önlənir, lakin hazırda yaşadığımız müstəsna zaman kəsiyində əhalinin məcmu tələbinin əhəmiyyətli dərəcədə aşağı düşməsi valyuta bazarında izafi likvidliyə gətirib çıxarmaqda davam edər və manata təzyiqlər güclənərsə, devalvasiya riski mümkündür. Yəni baş bankirin məsələyə "cəfəngiyyat", "boş söhbət" kimi sərt ifadələr yerinə yumşaq, ancaq detallı münasibət bildirməsi doğru olmazdımı? Bu həm də ona görə vacibdir ki, Mərkəzi Bank rəhbəri əvvəlki iki devalvasiyadan öncə də manatın ucuzlaşa biləcəyi yönündə deyilənləri qətiyyətlə rədd etmiş, hər belə açıqlamasından sonra isə devalvasiya yaşanmışdı (fevral, 2015-ci il və dekabr 2015-ci il). Nəticədə Elman müəllimin "devalvasiya olmayacaq" yönündəki açıqlamalarına ictimai etibar sarsılmışdı.



Odur ki, manatın ucuzlaşa biləcəyi yönündə iddialara da baş bankımızın və baş bankirimizin soyuqqanlı, cəmiyyətə aydınladacaq şəkildə reaksiyası arzuolunandır. Bu ən azından "Rüstəmov devalvasiya olmayacaq deyəndə tərsi baş verir" kimi ümumi qənaəti dəyişmək baxımından gərəklidir.

Əlbəttə, devalvasiyanın baş verməsini heç kim istəmir: nə hökumət, nə də vətəndaş... Lakin dünyada baş verən ciddi proseslər, xüsusilə koronavirus pandemiyası və onun qlobal iqtisadiyyatda yaratdığı dərin çatları göz önünə aldıqda hər bir ölkə müəyyən sınaqlarla qarşı-qarşıya qalır. Azərbaycan dövlətinin həyata keçirdiyi önləyici tədbirlər bizim də bu çətin mərhələdən minimum az itki ilə çıxmağımıza hesablanıb. Bununla belə, istənilən ölkə ilə yanaşı, Azərbaycanda da gələn illə bağlı cəmiyyətin narahatlıqları, təlaşları təbiidir. Yanlış olan belə narahatlıqlara, qayğılara "cəfəngiyyat" demək, doğru olan isə onlara aydınlıq gətirmək, ictimai müzakirələrə maarifləndirici yön verməkdir.

Ümid edək ki, Elman Rüstəmov da, digər məmurlarımız da bunu daim nəzərə alacaqlar.

***Orxan Həsənli***

# Komitə sədri Xankəndinin adını dövlət büdcəsinə daxil edilməsini təklif etdi



***"Biz ilk dəfədir torpaq bütövlüyüz şəraitində 2021-ci ilə qalib millətin və dövlətin büdcə sənədini qəbul edirik. Təklif edirəm ki, bu ali maliyyə sənədində Xankəndi, Xocavəndi, Xocalı və Ağdərənin də adı ayrıca sətirlə sənəddə göstərilsin. Bəli, həmin maddələrin işləməsi müəyyən zaman alacaq, lakin biz iqtisadi sənədlərimizdə artıq keçmişdə mövcud olan yarımçıqlığı, qeyd şərtlər qoymağı aradan qaldıra bilərik!".***

"Unikal" xəbər verir ki, bunu insan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib. Komitə sədri bildirib ki, büdcə layihəsində Vətən Mühüribəsi Şəhidlərin uşaqları üçün müavinət xərclərində 19% artım nəzərdə tutulur:

"Şəhid ailə üzvləri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, müharibə iştirakçılarının sosial-psixoloji və Postmüharibə sindromu adlanan problemləri həll etmək üçün Xüsusi Mərkəzlərin yaradılmasını və onun maliyyələşdirməsi lazımdır.Çünki 21-ci əsrin müharibəsi adlandırdığımız son savaşın itkiləri də bir çox xüsusiyyətləinə görə əvvəlki müharibələrdən fərqlənir.Düşünürük ki, 20 yanvar və Şəhidlərin anım günü ilə bağlı son qərar-27 sentyabr qərarını bütün müstəqllik dövrümüzün, həttа Cümhurriyyət şəhidlərini əhatə etdiyini nəzərə alaraq, vahid anım günü kimi onu bəyan etmək olar. Şəhid adının əbədiləşdirilməsi ilə bağlı 1994-cü ildən sonra qoyulan məhdudiyyət aradan qalxmalı, qaydaların sadələşdirilməsi və onlara güzəştlər vacibdr.Ümidvarıq ki, YAŞAT fondunun sayəsində şəhid ailələrinin ev, nəqliyyat vasitəsi və dövlət tədbirlərində ön cərgələrində yer verilməsi vahid bir protokol qaydası kimi qəbul ediləcəkdir.

Bizim qanunvercilik bazamız əmək müqavilələrilə işləyənləri işsizlikdən sığortalayır. Nəzərə alın ki, bizdə iqtisadi fəal əhalinin hər 3 nəfərindən yalnız 1-i əmək müqaviləsilə çalışır.Yəni, iqtisadi fəal əhalinin 65 fazindən çox hissəsi pandemiya və digər böhranlar zamanı həmin gərginliyi öz üzərilərində daha çox hiss edirlər, sosial müdafiədən məhrum olurlar.Ona görə də ölkəmizdə işsizliyin obyektiv qiymətləndirlməsi meyarlarını, nəhayət yaratmaq lazımdır.Torpaq payı olanlardan ta dərzilərə qədər həmin status əldə də bilmirlər və beləliklə həmin sığorta haqlarından məhrumdular.Hökumət qalib millətin vətəndaşları kimi bu siyasətə yenidən baxmalıdır.

İcra hakimiyyəti sistemində hökm sürən özbaşınalıq, rüşvət və korrupsiyanın sistemli bir formada aparılması ən ciddi problemlər sırasındadır.iz Sosial tədqiat Mərkəzi xətii ilə aparılna sorgularda bunu çox kəskin şəkildə hiss edirik. 7 rayonun icra hakimiyyətinin rəhbərinin həbsi böyük hüquqi, siyasi, iqtisadi və eləcə də mənəvi baxımından dövlət-hökumət qarşısında ciddi çağırğışdır-İcra hakimiyyəti sistemində köklü dəyişiklirərə ehtiyac var. 7 rayon əhalisi 600 mindən artıqdır..100 minlərlə əmək ehtiyatı və iqtisadi potensila var..Nə üçün olmalıdır..

Səhiyyə xərcləri 1.4 milyard manat müəyyənləşib.Bu yaxşıdır-pisdir, o ətrafda diskusiya aparmaq olar,Lakin bildiyiniz kimi, cov-19 gənc insanlara-təkcə aşağı gəlirli insanlara deyil, orta təbəqəyə, imkanlı adamlara, hakimlərə, icra başçısına, tanınmış vəkilə, həkimlərə, bir sözlə hər təbəqədən olan insanlara rəhm etmir.

Biz problemi millətin bir hissəsinin aşağı "imkanına" bağlayanlara deməliyik: o dediyiniz adamlar 44 gündə bütün çətinliklərə şərəflə sinə gərərək Ali Baş Komandanın çağırışılə səfərbər olundular, düşmənin üzərinə getdilər, eləcə də arxa cəbhədə tikəsini səngərlə bölüb, övladlarını şəhid verib Ermənistan adlı Şərə qalib gəldilər.

Ali Baş Komandan öz silahlı və ya silahsız ordusu ilə bütün cəbhələrdə vuruşur, qoy o adamlar da, Prezidentin siyasi qətiyyətinə, misilsiz zəhmətinə və qarşılarına qoydugu vəzifələrə layiq olsunlar!

Prezident qəhrəman şəhidi üçün ayaga qalxır.Bizim hər birimiz Səhiyyə qurumlarını xəstəxanalardan, yaxud elə hərbi səngərdə o cür görmək istəyirik.

Prezident hər bir fədakar həkim üçün ayağa qalxır..O həkimlər ki, gerçəkdən də hər cür ehtirama layiqdilər, gecə-gündüz çalışırılar.Vuruşurlar..Lakin düzgün idarəçilik olmalıdır. Əvvəllər kimsə deyə bilərdi ki, təcrübə yox idi, lakin artıq müəyyən standartlar formalaşıb, hər gün maaifləndirmə, xalqla səmimi ünsiyyət, kommunikasiya olmalı, tədbirlər düzgün həyata keçirilməlidir.İdiki kimi üç yerə bölünmə yox, vahid bir qurum bu mübarizəyə başçılıq etməlidir.

Səhiyyə, TƏBİB sisteminə güvənc aşağıdır.Halbuki inam hissi böyük qüvvədir.Məgər biz müharibədə ordumuza ən yüksək etimada görə qalib gəlmədikmi!

Başa vurdugumuz ildə 3 dəfə sərt karantin rejiminə keçərkən dövlətin və millətin 10 milyardlarla manat ziyanları üzərinə aldığını hamı görməlidir. Vətəndaşlar deyir, elə mübarizə aparırsınızsa, dərmanların qara dövriyyəsini təşkil edənləri cəzalandırın.6 manata olan kleksanı 60 manata, 40 manata olan favir-piraviri "qara bazar"da 500 manata satırlar. Necə ki, ordunun silahının qanunsuz satılması Hərbi Tribunal qaydasında ən ağır cəzaya layiqdir, xəstəxanalara verilən dərmanları da elə keçirib, onu çarəsiz durumda olan xəstəyə 20-30 dəfə baha satmaq Qələbəmizə kölgə salmaqdır, ən ağır cinayətdir".

Ölkəmizdə hazırda 5 ilədək istismar müddəti ümumi minik avtomobillərindəki payı 4,2%-ə düşüb. 10 ildən çox istismar müddəti olan minik avtomobillərinin xüsusi çəkisi kəskin şəkildə artıb - 77,3%.Əvvəlki illərdə nisbət fərqli olub.Bunu gömrükdə maşın idxalı üçün şərtlər-vergi yükü ilə əlaqəli olduğunu demyə bilrk, eləcə də devalvasiyanın törətdiyi social təsirlərlə baglaya bilərik.Ona görə də gələn il bu şərtlərə yenidən baxılması qətiyyən gəlirləri azaltmayaacq, eləcə də işğaldan azad olunan ərazilər belə nəqliyyat vasitələrinə ehtiyacı təsdiq edəcək.

***H.İsgəndərov***

# Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsi gücləndirilir

***Nazirlər Kabineti "Azərbaycan Respublikası Təhsil Nazirliyi işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nı təsdiq edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 iyul tarixli 1088 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədilə qəbul olunub.

Təsdiq olunmuş Qaydada "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 45.2-ci maddəsinin ikinci cümləsinə əsasən, həmin Qanunun 17.4-cü və 44.2-ci maddələrinə uyğun tətbiq edilən və Azərbaycan Respublikası Təhsil Nazirliyinin xəzinə hesabına köçürülən xidmət haqlarından nazirliyin işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə istifadə edilməsi müəyyən olunub.

# Gələn il koronavirusla mübarizəyə 261 milyon ayrılacaq

***2021-ci il və sonrakı 3 il üçün dövlət və icmal büdcələrinin layihələri ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, dövlətin iqtisadi inkişafı və s. kimi layihələr əsas götürülməklə hazırlanıb.***

"Unikal" xəbər verir ki, bunu parlamentin bu gün keçirilən iclasında Maliyyə naziri Samir Şərifov deyib.

Onun sözlərinə görə, gələn il həmçinin Azərbaycanda koronavirusla mübarizə tədbirlərinin gücləndirilməsi üçün 261 milyon manat vəsait ayrılacaq.

Nazir əlavə edib ki, dövlət başçısının tapşırıqlarına əsasən, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi, həmin ərazilərin ölkə iqtisadiyyatına inteqrasiya olunması, öz doğma yurdlarına qayıdacaq vətəndaşların yaşaması üçün şəraitin təşkil edilməsi üçün xüsusi vəsait ayrılıb.

# Deputatlar testdən keçdi, heç kimdə virus tapılmadı

***Bütün deputatlar koronavirus testindən keçiblər, heç kimdə COVID-19 aşkarlanmayıb.***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin sədri Sahibə Qafarova parlamentin iclasında deyib.

Spiker büdcə müzakirələri zamanı çıxışların 10 dəqiqə olmasına narazılıq edən bəzi deputatlara cavab verərək qeyd edib ki, bu sadə bir sənəd deyil və deputatların çıxışı üçün reqlament 10 dəqiqə olacaq:

"Əgər kimsə koronavirusdan narahatdırsa, dünən deputatların hamısı test verib və heç kim virusa yoluxmayıb".

# Yeni inaktiv COVID-19 vaksini təsdiqləndi

***Çin Xalq Respublikasının Əczaçılıq Məhsullarına Nəzarət Dövlət İdarəsi nəzdindəki Dərmanların Qiymətləndirilməsi Mərkəzi "Sinopharm" əczaçılıq korporasiyası tərəfindən hazırlanmış inaktiv vaksini təsdiqləyib.***

Unikal.org TASS-a istinadən xəbər verir ki, bu barədə Çinin tibbi tənzimləyicisinin bu gün yaydığı məlumatda deyilir.

Məlumata görə, dərman yaxın vaxtlarda bazara çıxarılacaq.

"Sinopharm" tərəfindən idarə olunan Çinin Dövlət Biotexnoloji Qrupu daha əvvəl 2021-ci ildə 1 milyard dozaya qədər koronavirus peyvəndi istehsal etməyi planlaşdırdığını açıqlamışdı.

Bundan əvvəl "Sinovac Biotech" şirkəti də hər il 600 milyon doza peyvənd istehsal etmək üçün 500 milyon ABŞ dollarından çox sərmayə cəlb etdiyini açıqlamışdı.

# Polis bazarda pirotexniki vasitə satanı saxladı

***Ağstafa Rayon Polis Şöbəsi əməkdaşları tərəfindən dekabrın 23-də şəhər bazarında şəhər sakini T.Zeynalovdan 108 ədəd pirotexniki vasitə aşkar edilərək götürülüb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, T.Zeynalov barəsində İnzibati Xətalar Məcəlləsinin 442-ci (istehsalı və ya satılması qadağan olunmuş malların istehsalı və ya satılması, yaxud qadağan olunmuş işlərin (xidmətlərin) yerinə yetirilməsi (göstərilməsi)) maddəsi ilə protokol tərtib edilib və toplanmış material rayon məhkəməsinə göndərilib.

# Azərbaycandakı "dərman mafiyasının" görünməyən üzü...

## Aidiyyatı qurumların fəaliyyəti effektiv deyil; narahatlıqlar və narazılıqlar isə artır

***Günlərdir ölkə ictimaiyyətinin müzakirə etdiyi əsas mövzulardan biri də koronavirus pandemiyasının tüğyan etdiyi Azərbaycanda yaranan dərman qıtlığıdır. Bildirilir ki, COVID-19-un müalicəsi üçün təyin olunan "Arbidol", "Favipiravir", "Ritonavir", "Kleksan", hətta ürək, qan-damar xəstəliklərində təyin edilən "Riboxin" yoxa çıxıb. Yoxa çıxan dərman vasitələri isə toplu şəkildə, həm də od qiymətinə "qara bazar"da peyda olub. Qiymətin "od"u isə xəstəni qızdırmanın hərarətindən daha çox yandırır. O dərəcədə ki, pulun yoxdursa, sonuna hazır olmalısan düşüncəsinə qapılırsan. Panika, ümidsizlik isə COVID-19-a yoluxmuş xəstə üçün virusdan daha təhlükəlidir.***

Sadə vətəndaşların sosial şəbəkələrdə dilə gətirdikləri narahatlıqlara, narazılıqlara artıq ictimaiyyətin tanınmış nümayəndələri, millət vəkilləri də qoşulub. Məsələn, Milli Məclisin Əmək və Sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, ekstrimal şəraitdə defisitin aradan qaldırılması üçün sahibkarlara şərait yaratmaq, onların fəaliyyətini stimullaşdırmaq lazımdır: "Defisitin baş verməsi yalnız monopolistlərə lazımdır. Bu, nə vətəndaşın, nə də dövlətin xeyrinədir. Dərman bazarında yaranan qıtlıqla bağlı Azərbaycanda dərman siyasətini idarə edən qurumlar birbaşa bütün dərman şirkətlərinə müraciət etməlidirlər. Hansısa bürokratik əngəllər mövcuddursa, onun aradan qaldırılması üçün şirkətlərə yardımçı olmalıdırlar. İnandırım sizi, mövcud strukturlar belə müraciət etsə ki, bütün bürokratik əngəllər aradan qaldırılır və bu adda dərmanların ölkəyə gətirilməsini təmin edin, 15 günün içərisində bütün dərman bazarı dolar, qiymətlər də ucuzlaşar. Sadəcə bunun üçün dövlət qurumları tərəfindən təşəbbüs göstərilməlidir. Mən onları bu təşəbbüsə çağırıram. İnsanlar çətin vəziyyətdədirlər".

Deputat haqlıdır: insanlar çətin vəziyyətdədirlər, lakin əlaqədar qurumlardan hər hansı təcili və təsirli, əməli addım atıldığını müşahidə etmirik. Əvəzində ümumi sözlərdən ibarət açıqlamalar eşidir və oxuyuruq.

Uzağa getməyək, elə dünən dərman qıtlığı və bahalaşması ilə bağlı Tarif Şurasından yayılan açıqlamanı götürək. Açıqlamanın ilk cümləsi hər birimizə məlum olan həqiqətin təkrarlanmasından ibarətdir: "Koronavirus pandemiyası ilə əlaqədar dünyada olduğu kimi, ölkəmizdə də bir sıra dərman vasitələrinə tələbat artıb".

İkinci cümlədə isə bildirilir ki, bu səbəbdən dərman vasitələrinin təsdiq edilmiş qiymətdən fərqli qiymətə satışı və əsassız dövriyyədən çıxarılmaqla dərman qıtlığı yaradılmasının vaxtında müəyyən edilməsi və qarşısının alınması məqsədilə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər gücləndirilib.

Monitorinqlər gücləndirilibsə, lap gözəl.

Bəs bu "gücləndirilmiş monitorinqlərin" nəticələrini biz niyə görmürük? Nə üçün vətəndaşların dərman qıtlığı və bahalığı ilə bağlı şikayətləri azalmaq, səngimək yerinə daha da artır? Niyə hətta iş o yerə çatıb ki, artıq millət vəkilləri də dilə gəlməyə başlayıblar?

Adıçəkilən qurum bildirir ki, mövcud qanunvericiliyə əsasən, dövlət qeydiyyatına alınan dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi Tarif (qiymət) Şurası tərəfindən həyata keçirilir: "İndiyədək Tarif (qiymət) Şurası tərəfindən 12.114 dərman vasitəsinin qiyməti təsdiq edilib. İstehlakçılar dövlət qeydiyyatından keçən dərman vasitələrinin təsdiq edilmiş qiymətləri barədə məlumatları Tarif (qiymət) Şurasının, İqtisadiyyat Nazirliyinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəsmi internet səhifəsindən əldə edə bilərlər. Dərman vasitələrinin üzərində onların təsdiq edilmiş qiymətləri qeyd olunmalıdır və dərman satışını həyata keçirən bütün təsərrüfat subyektləri bu tələblərə əməl etməlidir".



Axı problem də elə bundadır: əməl etməlidir, lakin etmir! Onda belə çıxır ki, ümumi, mücərrəd sözlərlə kifayətlənmək lazımdır? Təcrübə göstərir ki, bizim reallıqda dövlət qurumlarının açıqlamalarında şablona çevrilmiş "malıdır", "məlidir" tipli cümlə sonluqlarının heç bir funksionallığı yoxdur. Belədə hansısa açıqlama, xəbərdarlıq v s. yerinə konkret addım atmaq doğru deyilmi?

Guya ölkədə dərman qıtlığı və bahalığı yaradan işbazlar bilmirlər ki, dövlət qeydiyyatından keçən dərman vasitələrinin təsdiq edilmiş qiymətdən fərqli qiymətə satışı qadağandır və bu hallara görə məsuliyyət tədbirləri nəzərdə tutulur? Guya istehlakçıların xəbəri yoxdur ki, dərman vasitələri alan zaman qiymətlərin müəyyən edilmiş qiymətlərlə uyğunluğuna xüsusi diqqət yetirilməlidir? Bunu hər dəfə xatırlatmağın mənası nədir? İşbazlar qanunları saymır, istehlakçılar da onları qanunlara əməl etməyə məcbur etməkdə gücsüzdür. Deməli, bu vəziyyətdə səlahiyyətli qurumlar açıqlama verməkdən əl çəkib öz vəzifələrini yerinə yetirmək barədə düşünməlidirlər. Yəni ümumi sözlərdən konkret işə keçməlidirlər.

Əks halda "dərman mafiyası"nın qıtlıq və bahalıq oyunu hələ çox "su aparacaq". Daha dəqiq desək, biriləri "qaz vurub qazan doldurmağa", biriləri isə soyulmağa, yağmalanmağa davam edəcək...

***Toğrul Əliyev***

# Vüqar Gülməmmədovdan büdcə oğrularına ağır zərbə...

## Hesablama Palatasının yeni tövsiyyələri dövlət vəsaitlərinə tamah salan məmurların qanını qaraldacaq

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası "Büdcə sistemi haqqında" qanunun "Büdcə qaydası" maddəsində əks olunan büdcə qaydasına uyğun hesablanan icmal büdcənin xərclərinin yuxarı həddi, xərclənə bilən neft gəlirləri, dövlətin və dövlət müəssisələrinin ortamüddətli dövrdə borcalma üzrə artım və məhdudlaşdırma hədəfləri, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin ortamüddətli dövr üzrə hədəfləri barədə geniş məlumatların "Büdcə zərfi"nə daxil edilməsini və bununla bağlı sözügedən qanunun 12-ci maddəsinə müvafiq dəyişikliklərin olunmasını hökumətə tövsiyyə edib.***

Qurumun "2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinə verdiyi rəydə yer alan tövsiyyələrin bir qismi yetərincə ilgincdir və həyata keçiriləcəyi təqdirdə Azərbaycanda məmur korrupsiyasının kökündən ləğv edilməsi istiqamətində ciddi nəticəsini tövsiyə edir.

Ən mühüm tövsiyyələrdən biri isə dövlət büdcəsinin layihəsində və dövlət büdcəsinin icrası barədə Hesabatlarda bütün Proqram və tədbirlərə ayrılan vəsaitlərin ayrıca göstərilməsi və icra müddəti başa çatmış Proqramlaqramlar bəzi hallarda dövlət vəsaitlərini havaya sovurmaq üçün fürsət rolunu oynayır. İcra müddəti başa çatmış proqramlara büdcə pulları yönəldənlərin həmin pulları daha çox öz şəxsi maraq və mənafeləri naminə istifadə etdikləri aşkardır.

Ümumiyyətlə, Hesablama Palatası xüsusi prorqamların icrasında şəffaflığın artırılmasını təklif edir ki, bu da cəmiyyətdə uzun müddətdir müzakirə olunan məsələdir. Etiraf etmək lazımdır ki, bu cür proqramların bir çoxunun həyata keçirilməsi üçün yetərincə böyük vəsaitlər ayrılır. Lakin müəyyən məmurlar dövlətin ayrı-ayrı istiqamətlər üzrə real inkişafın təmin olunmasına yönəlmiş səylərini sabotaj edir, həmin proqramlar çərçivəsində özlərinin, ətraflarının biznesini böyütmək, gəlirlərini artırmaq məqsədilə yararlanırlar.



Bu önəmli məqam başa çatmaqda olan ilin yayında Milli Məclisdə "Azərbaycan Respublikasının 2019-cu ilin dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Qənirə Paşayeva tərəfindən də dolayı yolla dilə gətirilmişdi. O, bildirmişdi ki, dövlət proqramlarının icrasında şəffaflıq təmin olunmalıdır: "Ötən ilki (2019-cu il - red.) 26 dövlət proqramının 3-ü birbaşa mədəniyyətlə bağlıdır. DTX-nın Mədəniyyət Nazirliyində apardığı əməliyyatlar nəticəsində burada korrupsiya əməllərini gördük. Ona görə də dövlət proqramlarının icrası ilə bağlı məlumatlar mütləq qeyd edilməlidir. Şəffaflıq dövlət proqramlarının icrası prosesində əksini tapmalıdır... Bu il şəkərli diabet, hemofiliyalı xəstələrlə bağlı dövlət proqramlarının icrası başa çatır. Amma həmin proqramların icrasında bir sıra vacib məsələlər həllini tapmamış qalır".

lərin əldə olunmasına gətirib çıxara bilər.

Məsələn, Vüqar Gülməmmədovun rəhbərlik etdiyi Palata, dövlət büdcəsindən ayrılması tələb olunan vəsaitin tədbirlər və hədəflərlə əlaqələndirilməsini, məqsədli proqramlar vasitəsilə maliyyələşmənin dövlət büdcəsində xüsusi çəkisinin artırılmasını, hər bir Proqram üzrə maliyyələşmə mənbələrinin (büdcə və qeyri-büdcə vəsaiti olmaqla) əks olunmasını, həmin Proqramlarda hər bir il üzrə müəyyən edilmiş tədbirlərin və onlar üzrə hədəflərin konkret əks etdirilməsini məsləhət görür. Bundan başqa, tələb olunan vəsaitlərin daha dəqiq proqnozlaşdırılmasına və icrası prosesinə nəzarət olunmasına, eyni zamanda dövrü olaraq aralıq qiymətləndirmələrin aparılmasına, son nəticədə vəsaitlərin səmərəli və qənaətli istifadəsinə imkan verən Dövlət proqramlarının ayrı-ayrı tədbirlər üzrə əldə edilməsi nəzərdə tutulan kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməra dövlət büdcəsindən vəsaitlərin ayrılmaması ilə bağlıdır.

Hesablama Palatası həmçinin dövlət vəsaitlərinin təyinatdan kənar istifadəsinə şərait yaradan halların məhdudlaşdırılması, dövlət maliyyəsinin şəffaflıq və hesabatlılığının artırılması məqsədilə birdəfəlik təyinatlı xərclər anlayışının və istifadə istiqamətlərinin normativ-hüquqi aktlarda müəyyən edilməsini tövsiyyə edib.

Ekspertlərin fikrincə, Vüqar Gülməmmədovun rəhbərlik etdiyi qurumun tövsiyyələri yetərincə proqressivdir və ölkədə büdcə oğurluqlarının minmuma endirilməsi baxımından ciddi rol oynaya bilər. Təbii ki, burada əsas məsələ hökumətin həmin tövsiyyələri nəzərə alması və onların həyata keçirilməsində ciddi addımlar atılmasıdır.

Məsələn, Hesablama Palatası məsləhət görür ki, icra müddəti başa çatmış proqramlara vəsait ayrılmasın. Bu tövsiyyə ilə razılaşmamaq mümkün deyil. Çünki bir sıra məmurlar üçün belə pro-

Beləliklə, xüsusi dövlət proqramlarının icrası istiqamətindəki neqativ məqamları, yeyinti, mənimsəmə hallarını aradan qaldırmaq, bu ağrılı reallığı dəyişmək, nəticədə həmin proqramların effektliliyini, səmərəliliyini artırmaq baxımından Hesablama Palatasının yuxarıda bəhs etdiyimiz tövsiyyələrini nəzərə almaq və həyata keçirmək hökumətin prioritet vəzifələrindən biri olmalıdır. Əks halda son zamanlar sərt şəkildə cəzalandırılmağa başlanan büdcə oğrularının əl-ayağını tamamilə yığışdırmaq çətin görünür...

*Sənan Mirzə*

# "Xankəndi şəhərinin hüquqi statusu bərpa edilməlidir" - Deputat



***"İstənilən ölkə üçün müharibədən sonra büdcə qurmaq çətindir. Ancaq Azərbaycan bu problemi yaşamır".***

Unikal.org xəbər verir ki, bunu parlamentin bu gün keçirilən iclasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, Azərbaycanın qədim şəhəri olan Xankəndi şəhərinin hüquqi statusu bərpa edilməlidir: "Növbəti bir neçə il üçün hərbi sahəyə ayrılan vəsait xüsusi seçilməlidir. Azərbaycanda hərbçi, müəllim və həkim yüksək maaş almalıdır. Hörmətli Baş nazirdən xahiş edirəm ki, bankların kredit faizlərinin aşağı salınması ilə bağlı götür-qoy etsinlər".

# Toyların bu tarixdən keçirilməsinə icazə verilə bilər - Açıqlama



***Azərbaycanda koronavirus pandemiyasına görə 10 aya yaxındır ki, toyların və kütləvi toplantıların keçirilməsinə qadağa qoyulub. Artıq İngiltərə və digər ölkələrdə koronavirus əleyhinə vaksinasiya başlayıb. Azərbaycanda gələn ilin əvvəlində vaksinasiyaya başlanılması gözlənilir. Bundan əlavə, gündəlik yoluxanların sayı günbəgün azalır. Belə ki, Azərbaycanda yoluxanların sayı 4000-dən 2000-ə düşüb. Yoluxma sayı azalma dinamikası ilə davam edərsə, martdan sonra 35-50 nəfərlə toyların keçirilməsinə icazə verilə bilərmi?***

"Unikal" xəbər verir ki, bununla bağlı Sonxeber.az-a danışan professor Adil Qeybulla bildirib ki, bu məsələ o dövrə kimi yaranacaq vəziyyətdən asılı olacaq:

"Vaksinasiya başlayandan sonra yoluxma zənciri qırılmağa başlasa, ölkədə epidemioloji vəziyyət xeyli dəyişəcək. Düşünürəm ki, yəqin, mart ayından sonra az insanların dəvət edilməsi şərti ilə toyların keçirilməsinə icazə veriləcək. Əgər dövlət sərt tədbirləri görürsə, deməli, bu, yaranan zərurətdən irəli gəlir.

Avropada, İngiltərədə, Almaniyada və digər ölkələrdə çox sərt karantin tədbirləri görülür. Bəziləri televiziyalarda çıxıb ağzlarına gələni danışırlar ki, hər yer açılmalıdır. Dünya təcrübəsi var. Koronavirusun yeni növü asanlıqla digər ölkələrə daşına bilər.

Əgər sərt karantin rejimi olmasa, bunun qarşısını almaq olmaz. Epidemioloji ocağın sönməsi üçün karantin rejiminin tətbiq edilməsi və insanların qoyulan qaydalara əməl etməsi vacibdir.

Toyların və kütləvi tədbirlərin qadağan olunması insanlarımızı qorumaq üçün dövlət tərəfindən atılan addımdır. Aydındır ki, toyların keçirilməsinə qoyulan qadağa genofonda müəyyən dərəcədə mənfi təsir edir. Hesab edirəm ki, marta qədər bütün bu məsələlər öz həllini tapacaq".

# Paşinyan Azərbaycanla sərhəddə baş verənlərdən danışdı

***Ermənistan baş naziri Nikol Paşinyan hökumətin iclasını keçirib.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, o, Azərbaycan-Ermənistan sərhəddində delimitasiya və demorkasiya prosesinin aparılmadığını deyib.

"Azərbaycanla sərhəddə baş verənlər nə delimitasiya, nə də demarkasiya prosesidir. Əsas məqsəd vətəndaşların təhlükəsizliyini təmin etməkdir. Ermənistan dünya birliyi tərəfindən tanınan sərhədlərindən 1 santimetr belə geri çəkilməyib"-deyə Paşinyan əlavə edib.

# “Biz yeni dövrə qədəm qoymuşuq” - Tahir Mirkişili

***“Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən “Büdcə sistemi haqqında” Qanununun 12-ci maddəsinə müvafiq olaraq “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Qanun layihəsi və Büdcə Zərfinə daxil olan digər qanun layihələri Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur. Eyni zamanda “Büdcə sistemi haqqında” Qanununun 15-ci maddəsinə müvafiq olaraq zərfə daxil olan layihələrə dair Hesablama Palatasının hazırladığı rəy deputatlara təqdim olunmuşdur”.***



“Unikal” xəbər verir ki, bunu parlamenin iclasında çıxışı zamanı İqtisadi Siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri tahir Mirkişili bildirib. T.Mirkişili daha sonra deyib: ”İqtisadi Siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında hökumət üzvlərinin və müvafiq dövlət orqanlarının nümayəndlərinin iştirakı ilə qanun layihələri geniş müzakirə olunmuşdur. Milli Məclis sədrinin göstərişi ilə ilk dəfə olaraq bu müzakirədə bütün deputatların iştirakının təmin olunması məqsədilə iclas həm də onlayn translasiya olunmuşdur. Belə bir imkan Büdcə Zərfinə daxil olan layihələrin daha ətraflı izahının hər kəs üçün əlçat olmasına mühüm şərait yaratmışdır.

2020-ci il Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi, işğalçı Ermənistan üzərində qazanılan parlaq hərbi-siyasi Qələbə ili kimi həkk olundu. Ali Baş Komandanımızın iradəsi, ordumuzun rəşadəti və şəhidlərimizin qanı bahasına qazanılan bu möhtəşəm və tarixi qələbə Azərbaycanın gücünü bütün dünyaya göstərdi, xalqımızı uzun illər davam edən mənəvi iztirabdan xilas etdi, hər bir azərbaycanlıya tarixin heç bir dönəmində yaşaya bilmədiyi hissləri yaşatdı. Bu qələbə uzun illərdir ardıcıl olaraq, boyük işgüzarlıq, peşəkarlıq və ən əsası vətənə və xalqa olan sevgi ilə Azərbaycanın bütün resurslarının bir dəmir yumruq kimi birləşməsi hesabına mümkün olmuşdur. Bu dəmir yumruq hələ uzun illər düşməni ölkəmizə təhlükə yarada bilməyəcək hala salmışdır. Bütün dünya üçün 2020-ci il itirilmiş il sayılsa, azərbaycanlılar üçün bundan sonra 2020-ci il qazanılmış il sayılacaqdır.

Biz öz ərazi bütövlüyümüzü bərpa etməklə yeni dövrə qədəm qoymuşuq. Bu yeni mərhələdə qarşımızda həm də işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, lazımi infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi mühüm çağırışlar yaranmışdır. Biz ilk dəfə olaraq vətən müharibəsində qalib gəlmiş bir dövlətin büdcəsini qəbul etməkdəyik.

2020-ci ilin əvvəlindən başlayaraq dünyada yeni növ koronavirus (COVID-19) pandemiyasının sürətlə yayılması iqtisadi fəallığın zəifləməsinə və qlobal məcmu tələbin daralmasına səbəb olmuşdur. Dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırmışdır. 2020-ci ilə Azərbaycan 3 cəbhədə - pandemiya ilə, qlobal böhran və işğalçı Ermənistan ilə mübarizə aparmış və bunun üçün kifayət qədər resurslarını səfərbər etmişdir.

Pandemiyanın Azərbaycan iqtisadiyyatına mümkün mənfi təsirlərinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərlə ölkə iqtisadiyyatının tənəzzül fazasına daxil olmasının qarşısının alınması mümkün olmasa da, onun daha kəskin enişinin qarşısı alınmışdır. 2020-ci ilin dövlət büdcəsinin dürüstləşməsi zamanı büdcə mexanizmlərinin təkmilləşməsi və xərclərin artırılması, əhəmiyyətli miqyasda iqtisadi və sosial dəstək paketlərinin hazırlanması və icra olunması, iqtisadiyyatın lazımı resurslara malik olması və bütün bu tədbirlərin dövlət başçısının daim diqqətində olması iqtisadiyyatı kəskin şoklardan qorumuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamına əsasən Dövlət büdcəsi, dövlət fondları və digər mənbələrdən maliyyə resursları səfərbər edilərək ümumi dəstək paketi 3,5 milyard manat məbləğində nəzərdə tutulmuş və ümumilikdə 3,0 milyon nəfərə yaxın vətəndaşı əhatə etməsinə hesablanmışdır. Ardıcıl olaraq həyata keçirilən iqtisadi və sosial dəstək proqramları onların əhatə dairəsini xeyli artırmışdır.

Bu ili 11 ayının sosial-iqtisadi göstəricilərinə görə ölkəmizdə ÜDM 4.3%, qeyri-neft sektoru ÜDM isə 2.9% azalmışdır. BU göstərilər İqtisadiyyat Nazirliyi tərəfindən cari iln avqust ayında bizə təqdim olunmuş proqnozlarla demək olar ki üst üstə düşmüşdür. Amma bu azalmalara baxmayaraq qeyri-neft sənayesində 11.4%, kənd təsərrüfatında 2%, İT və rabitə sektorunda 1.6% artımın qeydə alınması, Büdcə gəlirlərinin, vergi daxilolmalarının proqnozdan artıq icra olunması iqtisadiyyatın dayanıqlığından xəbər verir. Bu bir faktdır ki, 2020-ci iilin bütün çətinliklərinə baxmayaraq Azərbaycanda makroiqtisadi sabitlik müşahidə edilmiş, inflyasiya 2.8%, manatın məzənnəsi sabit olmuşdur. Bütün bu dayanıqlıq Azərbaycan Prezidenti tərəfindən aparılan iqtisadi islahatların və onların hədəfli icra edilməsinin nəticəsində mümkün olmuşdur. Yeri gəlmişkən, keçən həftə Dünya Bankı Doing Business 2020-ci hesabatı üzrə apardığı araşdırmaların nəticəsini elan etmiş, Azərbaycan 191 ölkə üzrə 6 pillə irəliləyərək 28-ci yere layiq görülmüş və dünyanın ən çox islahat aparan 10 ölkəsindən biri elan olunmuşdur.

Beləliklə, 2020-ci ilin iqtisadi dayanıqlıq 2021-ci il ölkə iqtisadiyyatının artım mərhələsinə qədəm qoymasına imkan yaratmışdır. Təqdim olunmuş iqtisadi proqnozlara görə 2021-ci ildə ölkəmizdə ÜDM-in 3.4% artacağı, qeyri-neft sektorunun ÜDM-də payının 70.5%-ə çatacağı, inflyasiyanın 3.0% olacağı, manatın məzənnəsinin sabit olacağı proqnozlaşdırılır. Özəl sektorun iqtisadi artımda və büdcə gəlirlərində iştirak payının artırılması üçün növbəti ildə də mühüm stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

2021-ci il üzrə cari əməliyyatlar balansında ÜDM-in 0,2 faizi səviyyəsində və ya təqribən 104,8 milyon ABŞ dolları həcmində profisit proqnozlaşdırılır. Növbəti illərdə cari əməliyyatlar balansının profisitinin getdikcə artması gözlənilir.

Belə bir makro iqtisadi şərait üçün təqdim edilmiş 2021-ci il üçün Dövət büdcəsinin gəlirlərinin 2020-ci iln dürüstləşdirilmiş büdcə gəlirlərinə nisbətən 1.303 milyon manat artıq proqnozlaşdırılması və beləliklə də ümumi həcminin 25 427 mln manat olması məqbul hesab edilmişdir. Gəlirlərin artan hissənin qeyri-neft gəlirləri hesabına təmin olunması və bu zaman yeni alətlərdən istifadə olunması vacib məqamlardan biridir. Dövlət Neft Fondundan transferin sabit qalması və növbəti 3 il ərzində onun azaldılması ilə bağlı planlar fikrimizcə vacibdir. Büdcə gəlirlərində qeyri-neft sektorundan daxil olmaların 3.8% artaraq 45.8%-ə çatması büdcənin dayanıqlığını artıran amillədəndir. Son 10 ildə bu göstərici 26.2%-dən 45.8%-ə qədər artması mühüm nailiyyətlərdəndir. Vergi xidməti ilə daxilolmaların payında qeyri-neft sektorunu payının 78%-ə çatması pronozlaşdırılır. Qeyd edim bu göstərici də son 10 ildə 50%-dən 78%-ə qədər artmışdır.

Hesab edirik ki, dövlət büdcəsində neftinin bir barelinin qiymətinin 40 dollar götürülməsi aparılan təhlillərə uyğundur. Beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlarda 2021-ci ildə neftin 1 barelinin orta illik qiymətinin 41-43 dollar arasında dəyişəcəyi bildirilir. Eyni zamanda aparılan vaksinasiya nəticəsində 2021-ci ilin 2-ci rübündən etibarən iqtisadi aktivliyin bərpa olunacağı ilə bağlı proqnozlar neftin qiymətinin daha 15% artacağına səbəb olacağı bildirilir. Bu təhlillər nəticəsində neftin bir barelinin qiymətinin dövlət büdcəsində 40 dollar götürülməsi doğru hesab edilir.

Dövət büdcəsinin xərcləri də 2020-ci iln dürüstləşdirilmiş büdcə xərclərinə nisbətən 1.050 mln manat artıq proqnozlaşdırılmış və xərclərin ümumi həcmi 28 543 mln manat olmuşdur. Xərclərdə tarixi element olan İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası üçün 2.2 mlrd manat vəsaitin nəzərdə tutulması 2021-ci ildə öz doğma yurdlarına dönməyi səbirsizliklə gözləyən insanlar üçün vacib həyat şəraitinin yaradılmasına maliyyə təminatı yaradacaqdır. Ümumiyyətlə, növbəti illərdə də investisiya xərclərində bu istiqamətdə xərclərin planlaşdırılması və işğaldan azad olunmuş ərazilərdə dövlət-özəl sektor əməkdaşlığı və investisiyaların cəlb olunması ilə bağlı yeni alətlərin tətbiq olunması uzun illər ərzində qəlbimizdə yara olan bu problemin sürətlə yox olmasına imkan yaradacaqdır.

Azərbaycan Prezidentinin sosial siyasətinin və vətəndaşların sosial qayğı ilə əhatə olunması tədbirlərinin həyata keçirilməsi üçün büdcədə sosial xərclərin artırılması fikrimizcə bu siyasətin icrasına real imkan yaradacaqdır. Belə ki, büdcə xərclərinin artıq 38.9%-nə çatan sosial xərclər bütövlükdə ölkədə sosial qayğıya və dəstəyə ehtiyacı olan insanlar üçün sosial rahatlığın yaradılmasına mühüm töhvə verəcəkdir. Ölkəmizin müdafiə qabliyyəyinin artırılması və təhlükəsizliyinin təmin edilməsi üçün də xərclərin çağırışalara uyğun olaraq artırılması təqdirəlayiq haldır.

Büdcə layihəsində 2021-ci il üçün büdcə vergi siyasətinin əsas istiqamətləri və ortamüddətli dövr üçün fiskal hədəflərin göstərilməsi planlaşma baxımından vacib elementlərdəndir.

Dövlət büdcəsinin gəlir və xərcləri üçün risk hesab oluna biləcək amillərin sadalanmasını alternativ ssenarilərin təhlil olunması baxımından vacib sayırıq. Xüsüsən də, pandemiyanın davam etmə müddətinin, neftin qiymətinin və hasilat həcmlərinin azalmasının, məzənnə riskinin və dövlət borcu ilə bağlı risklərin müzakirə üçün təqdim olunması şəffavlıq və alternatilik baxımından mühüm kefiyyət göstəricisi sayılmalıdır.

Eyni zamanda, Dövlət Neft Fondunun büdcəsinin növbəti bir neçə il ərzində kəsirlə proqnozlaşdırılması fikrimizcə Fondun Azərbaycan iqtisadiyyatında gələcəkdə oynayacağı müsbət rolun daha da təkmilləşdirilməsinə ehtiyac yaradacaqdır.

Növbəti ildən ölkədə ehtiyac meyarının həddinin orta hesabla 6,3 faiz artımı və ya 160 manatdan 170 manata çatdırılması nəzərdə tutulur.

2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 196,0 manat (190), o cümlədən əmək qabiliyyətli əhali üçün 207,0 manat (201), pensiyaçılar üçün 162,0 manat (157), uşaqlar üçün 175,0 manat (170) məbləğində proqnozlaşdırılır. Artımlar sosial sahədə dəstək həcminin daha da artırılmasına səbəb olacaqdır.

2021-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3116,0 milyon manat məbləğində nəzərdə tutulur. Kəsirin həcmi 2020-ci il müqayisədə 252.2 mln manat azdır. Dövlət Büdcəsi kəsirini maliyyələşməsində dövlət əmlakının özəlləşməsindən daxil olmaların artan həcmindən, daxili bazarda yerləşdiriləcək dövlət istiqrazları hesabına cəlb ediləcək vəsaitdən istifadə edilməsinin planlaşdırılması tərəmizdən də müsbət qəbul edilmişdir. Qiymətli kağızlar bazarının inkişaf etdirilməsi baxımından da bu alət faydalı sayılır.

Büdcə qaydasının 2022-ci il yanvarın 1-nə kimi dayandırılmasına baxmayaraq yeni qaydaların hazırlanması ilə bağlı planların layihədə yer alması tərəfimizdən təqdir olunur. Çünki hesab edirik ki, qayda əsaslı planlaşmanın həyata keçirilməsi bir çox iqtisadi riskləri aradan qaldıracaqdır.

Layihədə mühüm yenilik kimi nəticəəsaslı büdcə tərtibi mexanizminə keçid prosesinin davam etdirilməsinin nəticəsi kimi 2021-2024-cü illər üçün büdcə xərclərinin funksional təsnifatının “Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” pilot bölmələrinin sektor strateji planları və həmin planlara uyğun olaraq Xərclər Çərçivəsi hazırlanmasını xüsusi vurğulamaq istərdim. Ümumiyyətlə, biz də düşünürük ki, nəticə əsaslı büdcəyə tam keçmək hesabatlılığı, effektivliyi və nəzarət mexanizmləri xeyi artıracaqdır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi Büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı aparılan müzakirələri əhatəli və məhsuldar hesab edir. Hesab edirik ki, müzakirə etdiyimiz dövlət büdcəsi layihəsi 2021-ci il üçün ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətinin həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaqdır. Bunları nəzərə alaraq Büdcə zərfinə daxil olan layihələri Milli Məclisin plenar iclasında 1-ci oxunuşda müzakirə üçün məqbul hesab etmişik. Deputat həmkarlarıma da bu layihələrin dəstəkləmələrini xahiş edirəm”.

***Hüseyn İsgəndərov***

# “Ərdoğanın təriflədiyi xüsusi təyinatlı” - Şəhid Valeh Bədəlov

***Sentyabrın 27-dən başlayaraq işğalçı erməni təxribatlarına qarşı əks-hücum əməliyyatı keçirən Azərbaycanın şanlı Ordusu qısa bir zamanda illərdir sürən haqq savaşımızı Qələbə ilə başa vurdu. Bu haqq savaşında Zəfər qazanmağımızın səbəbini Azərbaycanın qəhrəman igidlərinə, canı bahasına səngərdə döyüşən oğullarımıza borcluyuq. Azərbaycan torpaqlarının bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizi, qazilərimizi unutmamalı, unutdurmamalıyıq.***

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə 2800-dən çox əsgərimiz qəhrəmanlıq göstərərək, şəhidlik zirvəsinə yüksəlib. Modern.az saytı “Vətəni yaşadanlar” rubrikasına davam edir.



Bu dəfə qəhrəmanlığından danışacağımız şəhidimiz baş leytenant, kəşfiyyat taborunun komandiri Valeh Bədəlovdur.

Valeh Vahid oğlu Bədəlov 10 oktyabr 1990-cı ildə Zaqatala rayon Aşağı Tala kəndində anadan olub. Şəhid zabitimiz anasının işlədiyi Aşağı Tala kənd 3 saylı tam orta məktəbini əla qiymətlərlə bitirərək, yüksək balla Qafqaz Universitetinin (indiki Bakı Mühəndislik Universiteti) Filologiya fakültəsinə qəbul olunub. Universiteti müvəffəqiyyətlə bitirən Valeh, hərbi xidmətə yollanıb.

Daha ətraflı ailə üzvlərindən eşidək.

Atası Vahid kişinin sözlərinə görə, Valeh orta məktəb illərindən hərb sahəsinə çox meylli olub:

“Orta məktəb illərində keçirilən hərbi-idman yarışlarında, təlimlərində çox fəallıq göstərirdi. Hərbi təlim məşğələlərində avtomat silahının sökülüb-yığılmasında həmişə birinci olardı. Mövsüm zamanı ova gedəndə Valeh də bizlə gələrdi. Valeh hər danışanda gələcəkdə hərbçi olacağını və ermənilərin torpaqlarımızdan çıxarılmasında iştirak edəcəyini deyirdi”.

Valeh sözünün üstündə də durdu. O, hərbi xidmətdə olarkən Xüsusi Təyinatlı Qoşunlarda xidmətini davam etdirən zaman həmin müddətdə 3 il kurs keçdi. Təlimlərdə birinci yer tutduğu üçün ona leytenant rütbəsi verildi.

Valeh Bədəlov 2016-cı ilin aprelində Cəbrayıldakı Lələtəpə uğrunda gedən döyüşlərdə öz vətənpərvərliyini və qorxmazlığını nümayiş etdirib.

Vətən müharibəsinin ilk günlərində isə Murovdağ zirvəsinin azad olunmasında böyük mərdlik göstərmiş şəhidimiz, daha sonra Füzuli və Hadrut istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

Anası Südabə xanım: “Oğlum əsl hərbçi idi. O, işləri barədə həyat yoldaşına belə heç nə danışmazdı. Adətən hərbi təlimlərə qoşulur, hərbi sirlərə yiyələnirdi. Türkiyədə keçirilən təlimlərdə iştirak etmişdi. 2018-2019-cu illərdə qardaş ölkədəki təlimlərdə fərqləndiyinə görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan onu ön sıraya çıxararaq, “əsl zabit belə olar” demişdi”.

Şəhidimizin bacısı Vüsalə Bədəlova qardaşı ilə bağlı xatirələrindən danışıb: “Qardaşım məndən üç yaş böyük idi. Kitab oxumağı çox sevirdi. Bir kitabı oxumağa başladığı zaman, bitirənə qədər dünya ilə əlaqəsi kəsilərdi. Uşaq vaxtı hər zaman kosmonavt olacağını deyərdi. Dörd yaşı olanda anam ona Puşkinin “Qafqaz” şeirini öyrətmişdi. Sonralar da həmişə stulun üstünə çıxıb o şeiri deyirdi, mən də heyran-heyran baxırdım. Elə bilirdim ki, doğrudan da dağın başında durub.

Qardaşım ailəsinə, uşaqlarına çox bağlı olub. İki qızı var, Aylin və Nilay. Atası evə gec gələndə böyük qızı ağlayırdı ki, atam hardadır. İndi də çox axtarırlar. Hər gün soruşur ki, atam nə zaman gələcək...

Biz onun haqqda indi döyüş yoldaşlarından eşdirik, necə zabit olub, necə döyüşüb. Yoldaşları deyir ki, Valeh olmasaydı, biz ölmüşdük. O, çox araşdırır, çox oxuyurdu. Üç dil bilirdi.

Mən qardaşımla həmişə qürur duymuşam. İndi də ürəyim yanır, hisslərimi ifadə edəcək söz yoxdur dünyada. O, uşaqlarına fəxrlə daşıyacaqları ad qoyub, ölümü ilə belə ailəsinin başını uca edib. Bundan başqa nə deyim”.

Döyüş yoldaşları da Valehin qəhrəmanlıqlarından ağızdolusu danışırlar:

“Döyüşdə ilk dəfə iştirak edənlərimiz var idi. Bəzilərimiz bir az çəkinirdik, bizə tapşırmışdı ki, döyüşdə mənə baxın, özünüzü itirməyin, bir gözünüz məndə olsun.

Cəbrayıl uğrunda gedən döyüşlər zamanı, okytabrın 3-ü o bizdən aralıda idi. Ayağa durub, qaça-qaça biz tərəfə gəlməyə başladı, erməni də görüb atırdı. Qışqırdıq ki, yerə yat komutan, yatmadı elə qaçaraq yanımıza gəldi. Çatanda gördük ki, bir güllə şalvarını deşib keçib, bir güllə də kaskasına dəyib. Burnu belə qanamamışdı. Bizə göstərib dedi, baxın, biz bura canımız bahasına torpaqlarımızı almağa gəlmişik, heç nədən qorxmaq lazım deyil. Valeh koordinatları arxaya çox dəqiq ötürürdü”.

Bacısının sözlərinə görə, hər zaman qardaşı gələndə həyət qapısında qarşılayarmışlar. Bu dəfə cansız cismini qarşılayıblar...

“Biz həmişə Valeh məzuniyyətə gələndə həyət qapısında qarşılayırdıq. Yaxınlaşanda Zeynəb (yoldaşı) xəbər verirdi. Çıxırdıq qapıya...

Oktyabrın 7-si ölüm xəbəri gələndə anam işdə idi. Anamı görənə qədər nə edəcəyimi bilmirdim. Anam gəldi, dedi qardaşını həmişəki kimi qarşılayıb, yola salacağıq. Mənim oğlum bu yolu özü seçdi. Ağlayıb, qışqırıb onu sındırmaram. Elə də etdik...”

Şəhidimiz Qarabağ münaqişəsi ilə yaşıddır. Elə bil dünyaya bu müharibəyə son qoymaq üçün gəlibmiş...

Valeh Bədəlova öldükdən sonra Vətən müharibəsində şücaətlərinə görə ”Vətən Müharibəsi Qəhrəmanı” adı, ”Vətən uğrunda” medalı verilib.

Ruhun şad olsun, cənab baş leytenant!

Allah rəhmət eləsin!

***Fidan İlqarqızı***



# Fond şəhid və qazilərin kredit borclarını sildi

***Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin zəfər yürüşü siyasi müstəvidə qazanılan Qələbə ilə başa çatdı. Torpaqlarımız işğaldan azad edildi, bununla da beynəlxalq hüququn norma və prinsipləri, tarixi ədalət bərpa olundu. Qələbə ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəldərək bugünkü və gələcək nəsillərin qürur mənbəyinə çevrildi.***

Bu tarixi Qələbə unudulmaz şəhidlərimizin, qazilərimizin qanı, canı, mərdliyi ilə savaş meydanında qazanılıb. Azərbaycan dövləti hər zamankı kimi vətəndaşının, hərbçilərimizin yanındadır. Dövlətimiz Vətən müharibəsində şəhid olmuş döyüşçülərimizin ailə üzvlərinə, qazi və hərbçilərimizə dərin ehtiramla diqqət və qayğı göstərir.

Əmanətlərin Sığortalanması Fondundan (ADIF) Azvision.az -a bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış torpaqların azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş hərbçilərin ləğv prosesində olan banklardakı kreditlər borclarının və onlara hesablanmış faizlər və digər ödəmələrin, həmçinin düşmən təxribatı nəticəsində həyatını itirmiş mülki vətəndaşlarımızın ləğv prosesində olan banklardakı kredit borcları və onlara hesablanmış faizlər və digər ödəmələrin tam həcmdə silinməsi təmin olunub.

Allah şəhidlərimizə rəhmət etsin. Qarabağ Azərbaycandır!

# Bakıda sulu qar, rayonlarda isə qar yağacaq - XƏBƏRDARLIQ



***Bakıda və Abşeron yarımadasında dekabrın 25-də havanın arabir yağıntılı olacağı, gecə bəzi yerlərdə sulu qar yağacağı, gündüz tədricən kəsiləcəyi gözlənilir.***

Milli Hidrometeorologiya Xidmətindən “Unikal”a verilən məlumata görə, arabir güclənən şimal-qərb küləyi gündüz tədricən mülayimləşəcək. Havanın temperaturu Bakıda və Abşeron yarımadasında gecə 1-3, gündüz 4-6 dərəcə isti olacaq.

Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunundan 772 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı gözlənilir. Arabir duman olacaq, qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-8 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacaq. Yolların buz bağlayacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza gəlincə, dekabrın 25-də Abşeron yarımadasında mülayim xəzri küləyi və rütubətli hava şəraiti gözlənilir ki, bu da bəzi meteohəssas insanlar üçün əsasən əlverişsizdir.

# ABŞ və RUSİYANIN RAZILAŞDIĞI "QAMIŞLI MODELİ"

## Türkiyənin kürdlərə qarşı əməliyyatını önləmək üçün yeni müzakirələr başlayıb - TƏHLİL

***İlk öncə bölgədən gələn xəbərlərə baxaq. Türkiyənin Ayn İsaya girmək niyyətində olduğunu düşünən bölgədəki kürd ünsürlər qəsəbənin, Rusiyanın istədiyi kimi, Suriyaya buraxılması ehtimalını müzakirə etməyə başlayıblar. Suriya Demokratik Gücləri (SDG) adlı çətir təşkilat içində təşkilatlanmış PYD/YPG, Türkiyənin gözlənilən əməliyyatını önləmək üçün Rusiya və Suriya ordusu ilə ortaq müşahidə nöqtələri qurmağı qəbul edərkən, eynilə Qamışlıda olduğu kimi, Ayn İsada da bəzi sahələrin Suriya hakimiyyətinə buraxılması ehtimalı müzakirə edilir.***

Burada Qamışlı bölgəsindəkinə bənzər nizamlama açıqca ifadə edilməsə belə, mən hadisələrin bu istiqamətdə inkişafını görüncə, birbaşa "Qamışlı modeli"ni düşünməyə başladım. Çünki bu "Qamışlı modeli" layihəsinin Rusiya ilə Amerika arasındakı təmaslarda işlənib hazırlanması prosesini mən illər ərzində Vaşinqtonda "Habertürk" qəzetinin təmsilçisi olaraq olduğum günlərdə yaxından izləmiş və bu barədə xəbərlər yazmış, şərhlər də vermişdim.

Türkiyə bu "Qamışlı modeli" layihəsinin necə yarandığına və nə anlama gəldiyinə çox diqqət etməlidir. Mənim Vaşinqtondan bu mövzu ilə əlaqədar yazdığım onlarla yazı vardır. Arxivimə girib onları yenidən oxuduğum zaman hazırda Şimali Suriyada nə etmək istədiklərini aydın şəkildə bir daha gördüm. Mənə elə gəlir ki, "Qamışlı modeli"nin nə olduğunu və necə formalaşdığını yenidən anlatmalıyam.



### Vaşinqtonda gizli diplomatiya

Fərat çayının şərqində muxtar kürd qurumunun yaradılması modeli təməldə Rusiyanın hazırladığı bir plandır. Bunu qələmə alan da, planı Vaşinqtonda birbaşa anlatmış olan da Putinin Orta Şərq üzrə məsləhətçisi və kürdoloq Vitali Naumkindir.

Moskva 2018-ci ilin fevral ayında keçirilən intensiv təmasların yekununda bu modeli, axır ki, Vaşinqtona da qəbul etdirdi.

Bu plana görə, Fərat çayının şərqində kürdlərə, mərkəzi Suriya rejimindən qopmamaq şərtilə, məhdud bir muxtariyyat veriləcək. Ruslar buna "Şimali İraq modeli" deyirlər və Amerika ilə keçirilən görüşlərdə də bu anlayışdan istifadə etdilər.

Bu qurum rəsmən Suriya dövləti içində yer alacaq, ancaq yerli siyasi qərarlar verə biləcək, mədəni və iqtisadi məsələlərdə qismən muxtariyyatı olacaq.

### "Qamışlı modeli"

Vaşinqton-Moskva xəttində bu plan çərçivəsində ən intensiv müzakirə edilən mövzu, Türkiyənin reaksiyasını ən aşağı səviyyəyə endirərək, bu planın necə həyata keçirilə biləcəyidir.

Bununla bağlı o günlərdə israrla verdiyim suallara Vaşinqtonda dəqiq cavab ala bilmirdim, lakin administrasiyada bir "Qamışlı modeli" anlayışından bəhs edilməyə başlandığını görürdüm.

Bunun anlamının nə olduğu ilə bağlı bir çox qaynaqla danışdıqdan sonra ortaya çıxdı ki, kürdlər, Qamışlıda olduğu kimi, bölgənin idarəçiliyini rejimlə paylaşacaq, lakin rejim gücləri bölgəyə girməyəcək. Rejim gücləri bölgənin birbaşa xaricində, təsbit edilən sərhəddində yerləşəcəklər.

Vaşinqtonda bu modelə görə yerləşəcək rejim güclərinin simvolik səviyyədə də ola biləcəyini, lakin bunların, arxasında Rusiyanın müşahidəçi gücləri də olacağı üçün, təsirli olacağını söyləyirdilər.

Anlaşılan odur ki, muxtariyyat yaranacağı halda, onun Türkiyəyə bir təhdid yaratmasının qarşısının alınmasının təməldə Rusiya tərəfindən təmin edilməsi düşünülür.

### ABŞ-la Rusiya Suriyanın gələcəyilə bağlı 2018-ci il içində ilkin anlaşma əldə etdi

Hər iki ölkə də Türkiyənin bu modelə razılıq vermədiyi təqdirdə, onun həyata keçirilmə ehtimalının olmadığını bildiyinə görə, ilkin anlaşmanın ən kritik mövzusu Suriya kürdlərilə bağlı oldu.

Rusların "Şimali İraq modeli", amerikalıların isə "Qamışlı modeli" adlandırdıqları kürd muxtar qurum modeli bu prosesin gedişində formullaşdırıldı. Bu formula görə, kürdləri də əhatə edən federativ bir quruluş düşünülmürdü. Şimali Suriyada, sərhədlərimizdən uzaqda sərhədləri bəlli olan və sərhədlərində Suriya bayrağı dalğalanan, sərhəd mühafizəsi də Suriya ordusu tərəfindən təmin edilən bir sahədə YPG/PYD təsirinin azaldılacağı kürd qurumuna mədəni və məhdud idarəçilik muxtariyyatı veriləcək.

Rusiya ilə ABŞ arasında aparılan gizli diplomatik danışıqlarda Türkiyənin öncə buna reaksiya verəcəyi, amma sonra Şimali İraqda olduğu kimi, bu muxtar qurumla işləməyə başladığı təqdirdə, İraq Kürd Muxtar Bölgəsi Türkiyənin təsiri altına necə düşdüsə zaman içində Şimali Suriyada da bunun baş verəcəyi müzakirə edildi.

### Gizli diplomatik danışıqlarda baş verənlər

Bu nəticəyə necə gəlindiyini Vaşinqtonda birbaşa özüm gördüm. Bu səbəblə, həmin prosesi ən yaxşı şəkildə anlada biləcək adamın da elə özüm olduğunu düşünürəm.

Rusların "Şimali İraq modeli" adlandırdıqları formulu amerikalılara anlatmaq üçün planın memarı olan Putinin Orta Şərq üzrə məsləhətçisi Vitali Naumkin 25 fevral 2018-ci ildə Vaşinqtona gəldi. 26 fevral 2018-ci ildə Corctaun Universitetində yalnız xüsusi dəvət olunanların iştirak edə bildiyi bir yeməkli toplantı keçirildi.

26 fevral gecəsi Vaşinqtonun xarici siyasət və milli təhlükəsizlik elitası Naumkinin Suriya planına qulaq asmağa gəlmişdi. Naumkin öz nitqində kürdlər və Suriyanın gələcəyilə bağlı Rusiyanın düşündüklərini açıqca anlatdı.

Ertəsi günü, 27 fevralda o günlərdə MKİ direktoru olan Pompeo, Prezident Trampla səhər toplantısını keçirmək üçün Ağ Evə bir az gec gəldi. Naumkinin Vaşinqtondan ayrılmasını gözləmişdi. Bu kontekstdə, Pompeonun nə üçün önəmli olduğunu da anlatmalıyam.

Naumkinin Vaşinqtona gəlməsindən bir həftə öncə MKİ direktoru Pompeo, gizli bir əməliyyat keçirmişdi. MKİ-nin FTX ilə əməkdaşlıq etdiyi bu əməliyyatla Rusiyanın xarici, daxili və hərbi kəşfiyyat təşkilatlarının rəhbərləri gizlicə Vaşinqtona gətirilmişdi. Halbuki onlara tətbiq edilən sanksiyalara görə, ABŞ-a giriş qadağaları var idi. Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin və Federal Təhlükəsizlik Xidmətinin rəhbəri Aleksandr Bortnikov da gələn qrupda idi.

Pompeo onları MKİ-nin mərkəzində qəbul etdi və uzun bir toplantı keçirildi. Bu toplantıda Naumkinin bir həftə sonra Vaşinqtonda açıqlayacağı "Kürd planı və Suriyanın gələcəyi" mövzusunun detalları müzakirə edildi.

Bundan bir həftə sonra Naumkinin nitqini də dinləyən Pompeo, 27 fevralda prezidentə verilən gündəlik brifinqdə Fəratın şərqi ilə bağlı düşünülənləri Trampa anlatdı. Brifinqdən sonra Trampın Putinə zəng etməsi planlaşdırılmışdı.

Telefonda saat yarım danışdılar. Tramp, Putinlə telefon danışığında "Şimali İraq modeli"nə həmən razılıq verməsə də, bunun, ən azı, müzakirə olunması mümkün ola bilən bir təklif olduğunu söyləmişdi.

O gün Vaşinqtonda Suriyada İranın təsirinin azaldılması prosesinə Rusiyanın aktiv dəstək verməyə razılıq verəcəyi halda, "Şimali İraq modeli"nə dəstəyin artırılmasına qərar verildi. Vaşinqton bu modelə "Qamışlı modeli" adını verdi.

Elə həmin gün (27 fevralda) Vaşinqtonda günün birində ABŞ-ın bölgədəki 2200 hərbçisini geri çəkəcəyi halda, YPG/PYD ünsürlərinə "Siz Əsəd administrasiyası və Rusiya ilə koordinasiya içində çalışın" deyilməsinə də qərar verildi.

Modelin keçmişi və mahiyyətinin nə olduğu bundan ibarətdir. İndi bölgədən gəlməkdə olan hər bir yeni xəbərdə bu modelin həyata keçirilməsi cəhdinin olduğunu görürəm.

Bizi bu günlərə gətirib çıxaran prosesin pərdə arxasında yaşanan bunlardır. Bunlar mənim şərhlərim deyil, birbaşa yaxından müşahidə etdiyim və çox sayda tərəflə dəqiqləşdirdiyim, təsdiqinə nail olduğum hadisələrdir. Məsələ Orta Şərq, xüsusilə Suriya olan zaman heç bir hadisəyə qəti şəkildə baxılmamalıdır. Lakin yeni bir prosesin içində olduğumuz qətidir. Qəti olan başqa bir şey də bölgədə Türkiyənin, İraqda olduğu kimi, orta və uzun vədədə müəyyənedici olacağıdır.

***Sərdar Turqut***
***"Habertürk", Türkiyə,***
***22 dekabr 2020-ci il***

# Yaponiya Rusiya və Çinin birgə təşkil etdiyi hava patrulundan narahat olub

***Yaponiya hökuməti dekabrın 22-də Rusiya və Çin tərəfindən birgə hava patrulunun həyata keçirilməsi ilə bağlı narahatlığını ifadə edib.***

Bu barədə Yaponiya Nazirlər Kabinetinin baş katibi Katsunobu Kato dekabrın 23-də keçirilən ənənəvi mətbuat konfransı zamanı bildirib.

"Dekabrın 22-də Çinin dörd və Rusiyanın iki bombardmançı təyyarəsi Yapon və Şərqi Çin dənizləri üzərində uçuş həyata keçirib. Bununla əlaqədar olaraq, Yaponiya özünümüdafiə qüvvələrinin qırıcı təyyarələri havaya qalxıb. Bu zaman biz nə Rusiya, nə də Çin tərəfindən heç bir xəbərdarlıq almamışıq. Baş verən hadisə ilə əlaqədar bizim ölkəmiz diplomatik kanallar vasitəsilə Rusiya və Çin tərəflərinə narahatlığını çatdırıb", - deyə baş katib qeyd edib.

# Bayden namizədini açıqlayacaq

***ABŞ-ın yeni seçilmiş prezidenti, demokrat Cozef Bayden Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru vəzifəsinə namizədini dekabrın 25-dən sonra açıqlayacaq.***

Trend-in "TASS"a istinadən verdiyi məlumata görə, C.Bayden bu vəzifəyə Devid Koen, Tom Donilon, Lisa Monako və Darrel Blokeri təklif edə bilər.

Bildirilir ki, C.Bayden öz administrasiyasında bir çox vəzifəyə, o cümlədən ədliyyə naziri, əmək naziri və ticarət naziri vəzifələrinə namizədlərini açıqlamayıb.

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Diaspor təşkilatları Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında gücünü birləşdirməlidir

## İsmayıl Ağayev: “Biz dünyaya bu xalqın bəşəriyyət üçün zərərli bir ideologiya daşıyıcıları olmasını isbat etməliyik”

***Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə başladığı haqq savaşını zəfərlə başa vurması nəticəsində dünya həm də işğalçı Ermənistan dövlətinin iç üzünü görmüş oldu. Azərbaycanın 28 ildir ki, işğalda saxlanılan torpaqlarına divan tutulması, düşmənin bütün tarixi və dini abidələri, yaşayış evlərini dağıtması onların vandal bir xalq olduğunu üzə çıxartdı. İndi dünyanın işğalçı dövlətin əsl simasını görməsi üçün fürsət yaranıb. Bu işdə heç sözsüz ki, Azərbaycan diasporunun da üzərinə böyük iş düşür. İndiyə qədər Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında böyük səy göstərən diaspor təşkilatları bundan sonra öz işlərini hansı istiqamətdə qurmalıdırlar?***



Fəlsəfə doktoru, Beynəlxalq Diaspor Mərkəzinin sədri, Dünya Azərbaycanlıları Konqresinin İdarə Heyətinin üzvü İsmayıl Ağayev deyir ki, erməni lobbisi ilə mübarizə, Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün əsl iş indi başlayır: “Azərbaycanın müzəffər ordusu Ali Baş Komandanın rəhbərliyi altında zəfər qazandı. Biz 28 ildir ki, işğalda saxlanılan torpaqlarımızı azad etdik. Dünya 44 günlük müharibə dövründə Ermənistanın sivilləri də hədəfə aldığının şahidi oldu. Bərdə, Tərtər, Ağdam və Gəncə hadisələri buna bir sübutdur. Torpaqlarımızın işğaldan azad edilməsi isə Ermənistanın daha bir simasını üzə çıxartdı. Dünya gördü ki, bizim torpaqlarımızda düşmən daşı-daş üstündə qoymayıb. Onlar mədəni- tarixi abidələrə divan tutublar. Dini abidələrə isə insanlığa sığmayan tərzdə yanaşıblar. Məscidlərimiz donuz fermasına çevrilib, dağıdılaraq məhv edilib. Biz beləcə torpaqlarımızı işğaldan azad etməklə Ermənistanın əsl simasını dünyaya göstərmiş olduq. Dünya gördü ki, Azərbaycan necə vəhşi, barbar bir xalqla qonşudur və bu qonşuluqdan zərər çəkir. Biz erməni xislətini üzə çıxartmış olduq. Bu gün erməni lobbisi nə qədər çalışsa da bu görüntüləri, faktları dana bilməz! Dünyaya da bəllidir ki, Ermənistan işğalçı, cinayətkar olduğu qədər də barbar bir dövlətdir. Hansı dövlət zəbt etdiyi ölkənin tarixi, mədəniyyəti ilə belə barbarcasına davranıb? Biz bununla sübut etdik ki, ermənilər həm də bir xalq olaraq barbar psixologiyaya malikdirlər. Onlar təkcə Azərbaycan üçün yox, bəşəriyyət üçün təhlükədirlər. Ona görə də, düşünürəm ki, bundan sonra Azərbaycan diaspor təşkilatları Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində işə elə bundan başlamalıdırlar. Erməni lobbisi dünyanın hər yerində bu gün Qarabağın öz torpaqları olmasına beynəlxalq ictimaiyyəti inandırmağa çalışır. Amma unudurlar ki, biz BMT-nin icra olunmamış 4 qətnaməsini icra etmişik və torpaqlarımızı hərb yolu ilə işğaldan azad etmişik. İndi dünyaya erməni xalqının soyqrıma meyilli, bəşəriyyət, mədəni irs üçün təhlükəli bir təxəyyülə malik olduğunu sübut etmək zamanıdır. Bundan sonra diaspor təşkilatları işi bu istiqamətdə qurmalı və Dağlıq Qarabağ həqiqətlərini işğal dövrünün mənzərəsi ilə dünyaya çatdırmalıdır” .

İ. Ağayev deyir ki, Azərbaycan ordusu döyüş meydanında tarixi ədaləti bərpa edib: “Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edib. Dağlıq Qarabağın əzəli, tarixi Azərbaycan torpağı olduğunu sübut etmək üçün biz dağıdılmış abidələrin müqayisəli görüntülərini dünyaya təqdim etməliyik. Çox təəssüf ki, erməni lobbi təşkilatları həm bölgənin tarixi ilə bağlı, həm münaqişənin tarixi ilə bağlı yanlış məlumat ötürərək dünyanın ictimai fikrində təhrif edilmiş təsəvvür yarada biliblər. Məhz buna görə, torpaqları işğal olunan Azərbaycana qarşı sanksiyalar tətbiq edilib. Danmaq olmaz ki, Qarabağ tarixini dünya ictimaiyyətinə çatdırmaq üçün son illər ərzində böyük işlər görülübdür. Bu işlər sayəsində artıq dünyada məsələ ilə bağlı daha obyektiv təsəvvür var. Prezident Münhen Təhlükəsizlik Konfransında, Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunda, Aşqabadda, Vyanada, Astanada diskussiya və çıxışlarında Dağlıq Qarabağla bağlı həqiqətləri səsləndirməsi dünya ictimai rəyinin lehimizə dəyişməsinə mühüm töhfə verib. Kürəkçay sülh anlaşmasında erməni xalqı haqqında bir kəlmə də yoxdur. Çünki erməni xalqı o vaxt orada yox idi. Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Minsk qrupunun fəaliyyətinə müsbət qiymət vermək olmaz. Minsk qrupu işğalçıya təzyiq etməyib və etmək də istəməyib. Minsk qrupunun həmsədri olan üç ölkə məsələni həll etmək istəsəydi, Ermənistana sanksiyalar tətbiq edərdi. Minsk qrupu həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir, istənilən məsələni həll edə bilərlər.Minsk qrupu Ermənistanın qanunsuz məskunlaşma aparmasına etiraz etməyib. Qanunsuz məskunlaşma beynəlxalq cinayətdir, Cenevrə konvensiyalarına ziddir. Minsk qrupunun cinayətə susması torpaqlarımızı erməniləşdirməyə, Azərbaycanın mədəni irsini silməyə təşviq mesajıdır. 28 il ərzində danışıqların imitasiyası olub. Bununla Azərbaycanı vəziyyətlə barışmağa sürükləyirdilər ki, yeni reallıqlar yaranıbdır, siz də hesablaşmalısınız. Öz torpaqlarını işğalçılardan azad etməyə başlayanda Azərbaycana böyük təzyiq göstərdilər. Halbuki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetirdi. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsi idi, amma biz bu işi gördük. Minsk qrupunun bütün fəaliyyəti indi təcavüzkar, Xocalı soyqırımını törədən, Gəncəni ballistik raketlərlə bombalayan Ermənistanı xilas etməkdir. Baxmayaraq ki, vasitəçi neytral olmalıdır. Neytral deyilsə, öz namizədliyini geri götürməlidir. Müstəqilliyimizin ilk mərhələsində Minsk qrupunun həmsədri olan Amerika Konqresi Azərbaycana qarşı sanksiya tətbiq edib ki, guya Azərbaycan Ermənistana qarşı təcavüz edir və bu sanksiyalar bu günə qədər də qüvvədədir.Oktyabr ayının 10-da birinci atəşkəs qüvvəyə mindi. Azərbaycan tərəfi həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün buna razılıq vermişdi. Ancaq Ermənistan bir gün keçməmiş bu atəşkəsi namərd şəkildə, gecə vaxtı Gəncəni bombalamaqla kobudcasına pozdu. İkinci atəşkəs oktyabrın 17-də elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan atəşkəsi pozdu. Oktyabrın 26-sı səhər saat 8-dən üçüncü atəşkəs elan olunub. Ancaq səhər saat 9-da artıq atəşkəs Ermənistan tərəfindən pozuldu. Hər bir pozuntu qeydə alınır, dərhal ATƏT-in nümayəndəsinə və atəşkəsdə maraqlı olan digər ölkələrə göndərilir ki, baxsınlar, ermənilər atəşkəsi nə qədər pozublar”.

İ. Ağayev deyir ki, bu günlərdə erməni əsgərinin anasının da Azərbaycan prezidentindən kömək istəməsi Azərbaycan prezidentinin öz sözünün üstündə duran, ədalətli bir lider olmasının sübutudur: “Prezidentimizin də qeyd etdiyi kimi Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycan xalqı da tolerant xalqdır. Azərbaycan Prezidentinin bu yanaşması həm əxlaqa, həm beynəlxalq hüququn normalarına əsaslanır. Bu gün Azərbaycan yeni bir reallıq yaradıb, hər kəs yeni reallıqla hesablaşmalıdır”.

Mərkəz rəhbəri deyir ki, bu gün Ermənistanda baş verənlər, işğaldan azad olunmuş torpaqlarımızın viran qoyulması ermənilərin ziyalı yaxud da qeyri-ziyalı olmasından asılı olmayaraq düşmənçilik, bəşəriyyət üçün ziyanlı ideologiya ilə yaşamasıdır: “ Biz dünyaya bu xalqın bəşəriyyət üçün zərərli bir ideologiya daşıyıcıları olmasını isbat etməliyik. Bunu sübut etmək üçün onların Dağlıq Qarabağdakı “əsərlərini” dünyaya sərgiləmək, işğaldan azad edilmiş ərazilərimizdə dünya mədəniyyətinin incisi hesab olunacaq mədəni və qeyri-maddi mədəni irsə tutduqları divanı sərgiləmək kifayətdir. Dünya bu vəhşiliyin məhz ermənilər tərəfindən edilməsini bilməlidir”.

Diasporla İş üzrə Dövlət Komitəsindən isə diaspor təşkilatlarının artıq bu istiqamətdə işə başladıqlarını bildirdilər. Belə ki, Yunanıstanın www.karfitsa.gr xəbər portalında “Ermənistan Qarabağda insanlığa qarşı cinayətlər törədir” başlıqlı məqalə dərc olunub.

“Qala” Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun müəllifliyi ilə yayımlanan məqalədə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ərazilərində Ermənistanın törətdiyi müharibə və ekoloji cinayətlər barədə ətraflı məlumat verilib. ”...ermənilər evləri yandırır, mal-qaranı güllələyirdilər. Eyni zamanda onlar ağacları məhv edərək təbiətə əhəmiyyətli ziyan vurmaqla ekoloji terror törədirdilər. Bütün bunlar dünya KİV-lərinin gözləri qarşısında baş verirdi. Bütövlükdə, Ağdam, Füzuli, Cəbrayıl və digər azad olunmuş şəhərlər ermənilər tərəfindən tamamilə dağıdılıb”, - deyə qeyd edilib.

İnsanlığa qarşı törədilən cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyinin məsuliyyət daşıdığını vurğulayan müəllif beynəlxalq ictimaiyyəti və xarici KİV-ləri bu faktlara biganə qalmamağa çağırıb.

İspaniya ”www.tuvozenpinares.com” xəbər portalında ”Xankəndi necə Stepanakert oldu?” başlıqlı məqalə dərc olunub. Məqalə İspaniya Azərbaycanlıları Birliyinin sədri Vahid İmanov və Valensiyadakı Azərbaycanlılar Birliyinin sədri Mübariz İbrahimovun fikirləri əsasında hazırlanıb.

Müəlliflər Xankəndinin inşa tarixi haqqında məlumat verib, Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çoxlu sayda erməni ailəsinin Qarabağda yerləşdirildiyini, amma Xankəndi adının yalnız sovetlər dönəmində Stepanakert olaraq dəyişdirildiyini vurğulayıb.

Qeyd edilib ki, bu addımı 1923-cü ildə Moskva tərəfindən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Sergey Kirov atıb: ”Bu şəxs 20.000-dən çox azərbaycanlının qətlinə şəxsən rəhbərlik etmiş, Bakıda sovet kommunist diktaturasını yaratmış Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb”.

Dağlıq Qarabağ münaqişəsinin tarixi, Azərbaycanın bu bölgəsində yaşayan azərbaycanlıların etnik təmizləmələrə və soyqırıma məruz qaldıqları, daha sonra bölgə ətrafında olan 7 rayonun - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanın Ermənistan tərəfindən işğal edildiyi barədə ətraflı məlumat verilib.

Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması və işğalçı Ermənistan ordusunun bu ərazilərdən çıxarılması ilə bağlı diplomatik danışıqların nəticə vermədiyi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin icra olunmadığı bir dönəmdə Azərbaycanın yeni ərazilərini işğal etmək məqsədilə Ermənistan silahlı qüvvələrinin 12 iyul 2020-ci il tarixində Dağlıq Qarabağ bölgəsindən uzaqda yerləşən Tovuz rayonu istiqamətində hərbi təxribat törətdiyi bildirilib. İşğalçı Ermənistan ordusunun 27 sentyabr 2020-ci ildə isə bütün cəbhəboyu genişmiqyaslı hücuma keçməsi 44 günlük müharibənin başlanmasına gətirib çıxarıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



# Bakıda kürəkən qayınatasını qətlə yetirdi

***Bakının Binəqədi rayonunda qayınatasını qətlə yetirməkdə ittiham olunan 22 yaşlı Ayxan Hüseynəliyevin barəsində seçilmiş həbs qətimkan tədbirinin uzadılması ilə bağlı istintaq orqanını vəsatətinə baxılıb.***

Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə baş tutan iclasda istintaq orqanını vəsatəti təmin olunub.

Ayxan Hüseynəliyevin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti 2 aya qədər artırılıb.

İttihama görə, bu ilin avqustun 31-də saat 10 radələrində paytaxtın Binəqədi rayonunun Biləcəri qəsəbəsi ərazisində 1967-ci il təvəllüdlü Xalıq Bağırovun bıçaqlanaraq öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

İstintaqla hadisənin zərərçəkmişin kürəkəni 1998-ci il təvəllüdlü Ayxan Hüseynəliyev tərəfindən şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı çoxsaylı bıçaq xəsarətləri yetirilməklə törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Ayxan Hüseynəliyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

İlkin istintaqa ifadə verən Ayxan Hüseynəliyev törətdiyi əməli etiraf edib.

Məlum olub ki, Ayxan Hüseynəliyev hadisədən iki ay əvvəl qayınatası və onun ailəsi arasında münaqişə yaranıb.

Mərhum Xalıq Bağırovun qızı Aygün Hüseynəliyeva 3 il əvvəl Ayxan Hüseynəliyevlə ailə həyatı qurub. Qadın iddia edib ki, həyat yoldaşı onu tez-tez döydüyünə görə hadisədən 2 ay əvvəl atasının evinə gəlib. O, hətta boşanmaq üçün məhkəməyə də müraciət edib.

Ayxan Hüseynov isə qayınatasının onun ailəsini dağıtmaqda günahlandırıb və buna görə də qanlı cinayəti törədib.

İstintaq orqanı tərəfindən Ayxan Hüseynəliyevin barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

Binəqədi rayon Prokurorluğunda istintaq davam edir.

# Yaşlı kişi dəli qadını evinə apardı, təcavüz etdi, doğulan uşaq... - Şok təfərrüat

***Ucar rayonunda qadına təcavüzdə ittiham olunan 1955-ci il təvəllüdlü İldırım Osmanovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un xəbərinə görə, İldırım Osmanov 2018-ci ildə Ucar rayonu Qaradağlı kəndində evinin qarşısından keçən psixi xəstəlikdən əziyyət çəkdiyini bildiyi həmkəndlisi Məlahət Vəliyevanı (ad və soyad şərti verilib - red.) görüb, onu cinsi əlaqədə olmaq məqsədilə evinə çağırıb.

### Psixi xəstə qadına təcavüz

İldırım Osmanov arvadı və qızının Ucar şəhərinə ona məxsus plastik kartdan pensiya pulunu çıxarmağa getmələri səbəbindən yaşadığı evdə heç kimin olmamasından istifadə edib, Məlahət Vəliyevanı evin mətbəx əvəzi olan otağına apararaq ona cinsi əlaqədə olmağını təklif edib. Məlahət Vəliyeva təklifə etiraz edib.

Bu zaman İldırım Osmanov Məlahət Vəliyeva ilə zorla cinsi əlaqədə olub. Məlahət Vəliyeva bu təcavüz olayından hamilə qalıb və 2019-cu ildə oğlan uşağı dünyaya gətirib.

İldırım Osmanovun barəsində Cinayət Məcəlləsinin 149.1-ci (zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma) maddəsi ilə ittiham elan edilib.

### "Qırx nəfərin arasından məni..."

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən İldırım Osmanov elan olunmuş ittiham üzrə özünü təqsirli bilməyib.

Qeyd edib ki, 64 yaşı var, 5 uşaq atasıdır: "Bu illər ərzində heç bir cinayət məsuliyyətinə cəlb olunmamışam. Zərərçəkmiş şəxs 14 yaşından küçələrdə gəzib, pozğunluqla məşğul olub və ailəsinin maddi ehtiyaclarını təmin edib. Onu kənddə hamı tanıyır. Hər gün səhər saat 4-də küçəyə çıxır, axşam mağazaya gəlib corabından pullar çıxardaraq ərzaq məhsulları alır.

İbtidai istintaqda 40 nəfər çağırıldı, onların hamısından DNT analizi götürüldü. Axırda məndən DNT analizi götürüləndə uşağın mənə aid olduğunu bildirdilər".

### "3 manat nəzir pulu vermişəm"

Təqsirləndirilən şəxsin sözlərinə görə, uşaq doğulanda uşağın ondan olduğunu deməyiblər: "Uşaq anadan olanda məni heç bir məsuliyyətə cəlb etməyiblər. 8 ay keçəndən sonra məni polis şöbəsinə apardılar. Müstəntiqin yazdığı ifadələrə qol çəkdirdilər.

Həmin gün zərərçəkmiş şəxs evimə pul almaq məqsədi ilə gəlib, mən ona heç bir əxlaqsız hərəkət etməmişəm. Onunla cinsi əlaqədə olmamışam, əksinə, həmin gün özüm zorakılığa məruz qalmışam.

Zərərçəkmiş şəxs onunla cinsi əlaqədə olmağımı təklif etsə də, iyrəndiyim üçün imtina etmişəm. Həmin qadın bizim evinə gələndə ona 3 manat nəzir pulu kimi vermişəm".

### İbtidai istintaqa fərqli ifadə: "Məni ehtiraslandırdı"

İldırım Osmanov qeyd edib ki, zərərçəkmiş şəxsi zorlamayıb, doğulmuş uşaq onun deyil.

Buna baxmayaraq İldırım Osmanov ibtidai istintaq zamanı video çəkilişlə və vəkilinin iştirakı ilə verdiyi ifadəsində özünü elan edilmiş ittiham üzrə təqsirli bilib. O, həmin ifadəsində qeyd edib ki, eşitmə qabiliyyətində qüsur olduğuna görə 3-cü qrup əlil kimi aylıq 200 manat pensiya alır:

"Hər ayın 20-si pul köçürülür. Bankomat qarşısında sıx növbə olduğu üçün köçürülmədən 1-2 gün sonra arvadım Ucar şəhərinə gedib. Kartdan pulu çıxarıb, bazarlıq edərək evə qayıdıb".



Təqsirləndirilən şəxs qeyd edib ki, hadisə baş verən günü arvadı və qızı Ucar şəhərinə kartdan pulu çıxarmaq və bazarlıq etmək üçün gediblər: "Saat 10 radələrində Məlahət yaşadığım evə gələrək arvadımı çağırdı. Ona arvadım və qızımın Ucar şəhərinə getdiyini bildirdim. Məlahət cinsi əlaqədə olmağı təklif edərək qarşılığında 3 manat pul istədi.

Onunla cinsi əlaqədə olduqdan sonra 3 manat verməyə razılaşdım. Məlahət yaxınlaşaraq əynimdəki şalvarı çıxardı və məni ehtiraslandırdı. Sonra öz şalvarını soyundu, əlaqədə olduq. Təxminən 2 dəqiqə çəkdi, cinsi akt başa çatdı. Bundan sonra Məlahət öz evinə getdi".

İldırım Osmanovun sözlərinə görə, saat 13 radələrində arvadı və qızı evə qayıdıblar: "Arvadımdan mənə siqaret alıb-almadığını soruşdum, yox cavabı verdi. Ona görə də siqaret pulu adı ilə 3 manat aldım və həmin gün pulu saat 19 radələrində küçədə gördüyüm Məlahətə verdim. Ondan sonra Məlahət ilə hər hansı münasibətim olmayıb".

### "Məlahətlə yalnız bir dəfə..."

İldırım Osmanov ifadəsində bildirib ki, 2019-cu ilin fevral ayında Məlahətin hamilə olması barədə kənddə söz-söhbət yayılıb: "Yaşlı olduğum üçün mənimlə cinsi əlaqə zamanı Məlahətin hamilə qalacağına ümid etməmişdim.

Həmçinin Məlahətin öz ailə üzvlərinə əvvəlcə Ələmdar Paşayevin, daha sonra isə Ayaz Orucovun adını verməsi məni arxayın salmışdı. Ona görə də istintaq orqanına etdiyim cinayət barədə məlumat vermədim.

Uzun müddət bir məhlədə yaşadığım üçün Məlahətin psixi xəstəliyindən məlumatım olub. Daxili İşlər Nazirliyi Kriminalistik Tədqiqatlar İdarəsinin məhkəmə-genetik ekspert rəyinə əsasən Məlahətin 2019-cu ildə dünyaya gətirdiyi uşağın bioloji atasının olmağım barədə ekspert rəyi ilə razıyam. Əvvəllər, həmçinin hazırda cinsi əlaqədə olma qabiliyyətimə təsir edən hər hansı xəstəlikdən əziyyət çəkməmişəm.

Sadəcə yaşımla əlaqədar olaraq məndə ereksiya vəziyyəti çətinliklə yaranır. Məlahətlə yalnız bir dəfə təbii yolla cinsi əlaqədə olmuşam. Məlahətə qarşı hər hansı hədə-qorxu gəlməmişəm, cinsi əlaqədə olan zaman zor tətbiq etməmişəm. Zor tətbiq etməklə hədələmişəm. Razılaşdığımız şəkildə cinsi əlaqədə olaraq qarşılığında ona 3 manat pul vermişəm".

### "Zorla mənimlə cinsi əlaqədə oldu"

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Məlahət Vəliyeva bildirib ki, 2018-ci ilin yadında olmayan ayında günorta saatlarında evə qayıdarkən küçədə təqsirləndirilən İldırım Osmanov onu görüb və işlə əlaqədar evinə çağırıb: "İldırım məni yaşadığı evə apardı və cinsi əlaqədə olmağı təklif etdi. Onun sərxoş olduğunu hiss etdim və cinsi əlaqədən imtina etdim.

Etirazıma baxmayaraq İldırım məni zorla yerə yıxaraq əynimdən şalvarımı çıxardı, zorla mənimlə cinsi əlaqədə oldu. Əli ilə ağzımdan tutdu ki, qışqıra bilməyim".

### "Şikayətçiyəm"

Məlahət Vəliyevanın sözlərinə görə, İldırım Osmanovla cinsi əlaqədə olması barədə heç kimə bir söz deməyib: "2019-cu ilin fevral ayında hamilə qalmağımdan şübhələndiyi üçün anam məni kənd həkim məntəqəsinə apardı. Həkim hamilə olduğumu müəyyən etdi. Sonra evə gedib bu barədə ailə üzvlərimə məlumat verdi.

İldırımın arvadının münaqişəyə meylli insan olmasından qorxduğum üçün cinsi əlaqə barədə heç kimə məlumat verməmdim. Mənimlə ilk əvvəl Ələmdar Paşayev, daha sonra isə Ayaz Orucov cinsi əlaqədə olub.

Hamiləliyin nəticəsi üzrə 2019-cu ildə Ucar rayon Mərkəzi Xəstəxanasında oğlan övladım dünyaya gəlib və yeni doğulmuş uşaq ölüb. Təqsirləndirilən şəxs mənimlə ancaq bir dəfə Qaradağlı kəndində evində təbii yolla cinsi əlaqədə olub. Dünyaya gətirdiyim övladın bioloji atası İldırımdır. Ondan şikayətçiyəm".

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə İldırım Osmanov 4 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan İldırım Osmanov apelyasiya şikayəti verib. O, günahsız olduğunu, barəsində bəraət hökmünün çıxarılmasını istəyib. Şikayət Şəki Apelyasiya Məhkəməsinə göndərilib. İş araşdırılması üçün hakim İmanverdi Şükürovun icraatına verilib.

Apelyasiya şikayətinin dəlillərini araşdıran hakim heyəti sonda qərar elan edib. İldırım Osmanovun şikayəti təmin olunmayıb.

# “Caspian Energy Investment Forum”u keçirilib




***Dekabrın 23-də X Beynəlxalq “Caspian Energy Investment Forum” keçirilib. Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.***

“Caspian Energy Club”dan “Unikal”a bildirilib ki, klubun sədri və baş icraçı direktoru Telman Əliyev deyib: “2020-ci il hər kəs üçün çətin olsa da, nəticələri çox sevindirici oldu. Azərbaycanın rəşadətli və şanlı Ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə bizə zəfər və qələbə hissini yaşatdı, tarixi Azərbaycan torpaqları işğaldan azad olundu və yeni ili ərazi bütövlüyündə qarşılayacağıq”.

O bildirib: “Caspian Energy Forum” ənənəvi olaraq ildə 4 dəfə keçirilirdi. Sentyabrda Azərbaycanda, iyunda Gürcüstanda və sair. Təəssüflər olsun, pandemiya şəraitində məcbur olduq ki, ilin sonunda “Caspian Energy Forum” və Beynəlxalq “Caspian Business Award 2020” mükafatının təqdimetmə mərasimini keçirək. Texniki səbəblərdən forumu bir neçə hissəyə ayırdıq və indiki “Caspian Energy Investment Forum” sərmayələrə və ilin yekunlarına həsr olunub. 2021-ci ilin birinci yarısında neft-qaz, sənaye mövzusuna həsr olunmuş “Caspian Energy Forum” Azərbaycan, Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Rusiya və Özbəkistanda keçiriləcək. Məqsədimiz vahid bir platforma olaraq öz fəaliyyətimizi beynəlxalq arenada qalaraq inkişaf etdirməkdir. Bildiyiniz kimi, “Caspian Energy Club” martın 30-dan 111-ci tədbirini keçirir və bu münasibətlə klub üzvlərin təbrik edirəm. Bu gün X Beynəlxalq “Caspian Energy Investment Forum”un məruzəçiləri nitqlərində 2020-ci ilin yekunlarını və 2021-ci ilə olan məqsədlərini qeyd etdilər. Forumun onlayn şəkildə keçirilməsinə baxmayaraq, həm dövlət məmurlarının, həm də şirkət rəhbərlərinin qeydləri forum iştirakçılarına biznes mühitinin incəliklərinə sözün əsl mənasında toxunmağa imkan verdi”.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov, Dövlət Miqrasiya Xidmətinin Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi Vahid Qəhrəmanov, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Rəşad Mafusov və Sahibkarlığın İnkişafı Fondunun idarə heyətinin sədr müavini Samir Hümbətov 2020-ci ildə əldə olunan nəticələr və 2021-ci ilə dair məqsəd və gözləntilərini forum iştirakçıları ilə bölüşüblər.

Daha sonra “Azəriqaz” İB-nin baş direktoru Ruslan Əliyev, “Azərişıq” ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin direktoru Araz Məmmədzadə, “ASE Asya Afrika hızlı kargo ve dağıtım” şirkətinin baş direktoru Rəşad Abasov, Azərbaycanın Qazaxıstandakı Ticarət Evinin baş direktoru Hüseyn Cəbrayılov, “Azersun Holding”in çay məhsulları üzrə marketinq direktoru Derya Cantutan Ata, “Debet Safety” şirkətinin baş direktoru Əsəd Nəsrullayev, “Kartaş LTD” MMC-nin baş direktoru Necmeddin Taşbağ, “Gazelli Group”un icraçı direktoru Nərmin İsmayılova, “Azpetrol LTD”nin Büdcəyə nəzarət şöbəsinin rəisi İlqar Əliyev və “Delta Group C.O.” MMC-nin baş direktoru İlkin Şabanov X Beynəlxalq “Caspian Energy Investment Forum”un iştirakçıları qarşısında geniş təqdimatları ilə çıxış ediblər.

X Beynəlxalq “Caspian Energy Investment Forum”un yekun sözü “Caspian Energy Club”un sədri və idarə heyətinin üzvlərinə verilib. Onlar “Caspian Energy Club” üzvləri adından Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və hökumətin iqtisadi blok nümayəndələrinə 2020-ci ildə gördüyü işləri və sahibkarlara göstərilən dəstəyi, verilən motivasiya və töhfələri qeyd ediblər. İdarə heyətinin üzvləri forum iştirakçılarına 2021-ci ildə uğurlar və yeni müvəffəqiyyətlər arzulayaraq növbəti “Caspian Energy Forum”u Qarabağda keçirmək ümid ilə yekun sözü bitiriblər.

Forumda 50 ölkədən nümayəndə iştirak edib. Onların arasında Xəzər-Qara dəniz və Baltik regionu ölkələrinin dövlət qurumlarının, nazirliklərin, dövlət komitələrinin, dövlət agentliklərinin, dövlət xidmətlərinin, həmçinin dövlət və transmilli şirkətlərinin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərləri, eyni zamanda, Azərbaycanda akkreditə olunmuş diplomatik və beynəlxalq missiya nümayəndələri olub.

Sıralarında 50 ölkədən 5000-dən çox şirkət və təşkilatı birləşdirən “Caspian Energy Club” 2002-ci ilin iyununda yaradılıb. “Biznes-hökumət” dialoqunun fəal iştirakçısı olan “Caspian Energy Club”un əsas məqsədi Azərbaycanda və “Caspian Energy Club”un fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasından, həmçinin B2G, B2B və B2C formatlarında dialoqların stimullaşdırılmasından və onlarda fəal iştirak etməkdən ibarətdir.

Biznes-netvorkinq üçün beynəlxalq platforma olan “Caspian Energy Club” mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir. “Caspian Energy Club”un mənzil-qərargahı Bakıda yerləşir, Gürcüstan və Qazaxıstanda rəsmi nümayəndəlikləri, həmçinin dünyanın müxtəlif ölkələrində səlahiyyətli nümayəndələri var.

# İşğaldan azad olunan ərazilərin inkişaf konsepsiyası sosial və iqtisadi inkişafı təmin edəcək



***Prezident İlham Əliyevin tapşırığı ilə aidiyyəti qurumlar, o cümlədən İqtisadiyyat Nazirliyi tərəfindən işğaldan azad olunan ərazilərin bərpası ilə bağlı sosial-iqtisadi konsepsiya hazırlanıb.***

“Unikal” xəbər verir ki, iqtisadçı ekspert Elşad Məmmədov bu aktual məsələ ilə bağlı fikirlərini bölüşüb.

E.Məmmədov qeyd edib ki, işğaldan azad olunan ərazilərin inkişaf konsepsiyası həm sosial, həm də iqtisadi inkişafı təmin edəcək. Strateji planlaşdırmaya əsaslanan konsepsiya işğaldan azad edilən ərazilərlə yanaşı, bütövlükdə Azərbaycanın tarazlı inkişafına zəmin yaradacaq.

Ekspert vurğulayıb ki, sosial-iqtisadi inkişafın təmin edilməsinə yönələn konsepsiyada zəruri məqam iqtisadi idarəetmə ilə bağlı bütün komponentlərin öz əksini tapmasıdır. Yəni, investisiya resurslarının işğaldan azad olunan ərazilərə intensiv şəkildə istiqamətlənməsi ilə yanaşı, əmək resurslarının cəmləşməsi, intellektual potensialın və real istehsal proseslərinin bölgədə proporsional şəkildə yerləşdirilməsi kimi məsələlər diqqət mərkəzində olacaq.

İqtisadçı bu tendensiyanın növbəti illərdə də davam etdiriləcəyini deyib: “Düşünürəm ki, işğaldan azad edilən ərazilərdə bütövlükdə dövlət kapital qoyuluşlarının həcmi kifayət qədər böyük rəqəmlər təşkil edəcək. Bu ərazilərin iqtisadi və sosial inkişafı üçün dövlət kapital qoyuluşlarının artımı zəruridir. Bununla yanaşı, oraya özəl investisiyalar da cəlb olunmalıdır. Özəl kapital qoyuluşlarının düzgün istiqamətləndirilməsi və iqtisadi inkişafa təkan verməsi üçün dövlətin iqtisadi idarəetmə siyasəti, şübhəsiz ki, adekvat olmalıdır”.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi fəallığın təmin edilməsi üçün özəl investisiyalara üstünlük verilməsini prioritet sayan E.Məmmədov bunun üçün pul-kredit siyasətində investisiya axınlarının artımını stimullaşdırmağın zəruriliyini diqqətə çatdırıb.

# Azərbaycan iqtisadiyyatının 4 faizə qədər kiçilməsi gözlənilir



***Pandemiya dünya iqtisadiyyatın böyük zərər vurub və Azərbaycan da bu təsirlərə məruz qalıb, lakin görülmüş tədbirlər nəticəsində iqtisadiyyatın böyük itkilərə məruz qalmasının qarşısı alınıb.***

“Unikal”ın məlumatına görə, bunu maliyyə naziri Samir Şərifov parlamentin iclasında büdcə müzakirələri zaman deyib.

Nazir bildirib ki, bu ilin sonuna qədər Azərbaycan iqtisadiyyatının 4 faizə qədər kiçilməsi gözlənilir.

S.Şərifov qeyd edib ki, qarşıdakı ilə ölkə iqtisadiyyatında aktivliyin artırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur. O qeyd edib ki, büdcə layihəsində Prezidentin müəyyənləşdirdiyi hədəflərə xüsusi diqqət yetirilib.

Nazir bildirib ki, gələn il koronavirus pandemiyası ilə mübarizə məqsədilə müvafiq tədbirlər üçün 261, 161 və 288 milyon manat vəsait ayrılıb.

# Ölkəmiz pensiyalara görə MDB-də liderdi

***Azərbaycan Alıcılıq Qabiliyyəti Pariteti əsasında hesablanmış minimum və orta aylıq pensiya göstəricilərinin beynəlxalq dollar ifadəsində MDB ölkələri və Gürcüstan üzrə müqayisədə lider mövqeyini qoruyub saxlamaqdadır.***

Bu bardədə “Unikal”a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildirilib.

Qeyd edilib ki, ölkəmizdə aparılan sosial islahatlar sosial ödənişlərin, habelə pensiyaların əhəmiyyətli dərəcədə artımı ilə nəticələnir. Bu gün Azərbaycanda ödənilən pensiyaların minimum məbləği 233 manat, orta aylıq məbləği isə 300 manat, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği 330 manatdır.



# "Elə bilirəm döyüşdədir, gələcək..."- Şəhid Şamilin anası Lent.az-a danışdı

*"Səhər zəng etdi mənə dedi ki, "mənim üçün dua et". Dedim ki, "bütün dualarım səninlədir, bala"..."*

Bu sözləri şəhid Şamil Əliyevin gözü yollarda qalan anası deyib.

24 yaşlı Şamil Əliyev Füzulinin Böyük Dəhnə kəndində anadan olub. Evin ikinci uşağı olan Şamildən böyük bir qardaşı və özündən kiçik bacısı var. Məktəbdə dərslərində əlaçı olsa da, ali təhsil ala bilməyib. Musiqiyə, xüsusilə, qarmona böyük marağı olub. Bir müddət musiqiyə də gedib. Şamil elə uşaqlıqdan işləyib pul toplayıb. Sonra topladığı pulla özünə qarmon alıb. Məktəbi bitirən kimi əsgərliyə yollanıb. Qarmonu da ailəsinə bir ömürlük xatirə qalıb:

"Əsgərliyini Tovuzun Əlibəyli kəndində çəkdi. Oralar elə düşmən atəşi altında idi. Uşaq əsgərlikdən gəldi dedi ki, mən müddətdən artıq əsgərlikdə qalmaq istəyirəm. Biz də qarşı çıxmadıq. Elə qardaşı da müddətdən artıq xidmət edir. Hazırda yaralı olduğu üçün o da müalicə alır".

Beləliklə, Şamil kəşfiyyatçı kimi xidmət edir. 3 ildən sonra isə baş kəşfiyyatçı təyin olunur. İki il də baş kəşfiyyatçı kimi xidmət etməyə başlayır. Müharibə başlayandan 20 gün sonra, Füzulinin Musabəyli kəndində şəhid olur.

"Oktyabrın 16-sı səhər saatlarında zəng etdi mənə dedi ki, "mənim üçün dua et". Mən də dedim ki, "bütün dualarım səninlədir, bala. Allaha əmanət ol, özünü qoru...Hardan bilərdim ki, bir neçə saat sonra şəhid olacaq balam..."

Anası ilə danışıb döyüşə gedir, saat 6 da isə şəhid olur, Şamil. Sədaqət xanımın təkcə oğlu yox, həyat yoldaşı, qardaşı, atası və ən yaxın dostu şəhid olur həmin gün.

46 yaşlı Sədaqət xanım həyatının ən yaxşı günlərində, ömrünün baharında həyat yoldaşını itirib. Üç övladını min əziyyətlə böyüdüb. "Uşaqlarım artıq böyüyüb. Həyat üzümə gülər, bundan sonra əziyyət çəkmərəm" dediyi vaxtda həyat üzünə gülmür. Ona ikinci zərbəni vurur. Övlad acısı ilə baş-başa buraxır.

Şamil kənddə sevilib-seçilən cavanlardan olub. Bütün camaatın xeyir-şər məclisində yaxından iştirak edib. Anası deyir ki, oturub-durduğu adamlar da kəndin ağsaqqalları idi: "Hamı ona "Canavar Şamil" deyirdi. Getdiyi bütün məclislərə öz ab-havasını aparırdı. Hamı onu o qədər çox istəyib ki, indi bütün kənd ona yas tutur. Heç kimin gözünün yaşı qurumur. Elə ki, kənddə hansısa məclisdən evə gələrdi tez üzərlik yandırardım onun üçün. Ala gözləri, boyu-buxunu diqqət çəkən idi. Sevdiyi qız da var idi. Hə, mənimlə tanış etmək istəyibmiş. Bibisinə deyib ki, anama sürpriz edəcəm. Edə bilmədi..."

Şamil axırıncı dəfə evlərinə gəlməzdən əvvəl 4 qəlpə yarası da alır. Kürəyindən yara alır və bunu bilənləri tənbehləyir ki, "anama deməyin". Xəstəxanada qalıb müalicə belə almır. Evlərinə gəlir, anası ilə halallaşıb geriyə, döyüş yoldaşlarının yanına qayıdır.

"Mənə ana demirdi. Qapıdan girən kimi qışqırırdı "Sədaqət, ay Sədaqət". Mən də çıxıb qarşılayırdım. Axırıncı dəfə də elə oldu. Gəldi, məni bərk qucaqladı. "Qayıdıb gəlib sənin üçün ev tikəcəm" deyib getdi. Gəlmədi... İndi gözüm elə hey o qapıdadır. Hər qapı açılanda boylanıram ki, bəlkə gələn Şamildir. Hər adım çağırılanda diqqətlə qulaq asıram ki, bəlkə səsləyən Şamildir. Elə bilirəm döyüşdədir, gələcək..."

# "Hərəsi yaxasında Şuşa üçün bir bayraq gizlədibmiş..." - Müharibədən qayıdan həkim danışır

***44 günlük Vətən müharibəsində əsgərlərlə yanaşı, həkimlər də döyüşdü. Döyüşçülər düşmənlə, həkimlərsə ölümləg Yaralıları həyata qaytarmaq üçün qədərlə savaşa çıxdılar. Vətən Müharibəsində döyüşçülərimiz qələbə çaldı. Bəs, döyüşçüləri ölümün əlindən almağa çalışan həkimlərimiz necə, qalib gələ bildilərmi? Lent.az-ın bu və digər suallarını həmin günləri cəbhə bölgələrində olan "döyüşçü"lərdən biri - tibb üzrə fəlsəfə doktoru ağız, üz-çənə cərrahı - implantoloq Vugar Qurbanov cavablandıracaq.***

- Necə oldu, cəbhə bölgələrinə getməyə qərar verdiniz?

- Sentyabrın 27 də ailəmlə, bazar günü olduğu üçün, istirahət edirdik. Təxminən saat 11-də dostlar zəng etdilər ki, müharibə başlayıb, döyüş gedir. Təbii ki, xəbərə sevindim, gözləyirdik, torpaqları geri almalıydıq gec-tez. Sonra dərhal beynimdə yaranan sual o oldu ki, mən bu müharibənin harasında olmalıyam?

Sentyabrın əvvəlində Hərbi səfərbərlik idarəsinə yazılı müraciət etmişdim ki, müharibə başladığı təqdirdə mən də könüllüyəm.

Bir az gözlədim, gördüm hərbi çağırış olmadı, həmin gecə TƏBİB-ə müraciət etdim ki, mən istənilən bölgəyə ezam oluna bilərəm. Sonra da MN Baş Klinik hospitalına getdim və orda hadisələrdən məlum oldu ki, yaralılarımız Bakıya çatdırılıncaya qədər orda, yaxın məsafələrdə yardıma ehtiyacları olur.

Həftənin ilk iş günü TƏBİB-dən Gəncəyə getmək üçün göstəriş gəldi. Mən də Gəncəliyəm, heç düşünmədən öz şəhərimə getdim. Mən artıq Gəncəyə çatanda ezam olunduğumuz 1 saylı xəstəxana Bakıdan gəlmiş həkim və tibb işçiləri tərəfindən Hospital kimi formalaşdırılırdı. Bütün aparıcı mütəxəssislərlə bərabər ilk yaralıları qəbul etməyə başladıq.

Xatırlayırsınızsa, müharibənin ilk günlərində əsas döyüş istiqaməti Goranboy, Murov tərəfdən idi və ağır yaralılar o bölgələrdən bizim çalışdığımız mərkəzə göndərilirdi.

- Neçə gün oldunuz cəbhə bölgələrində, başqa haralarda oldunuz? Nələrlə rastlaşdınız? Ümumi ab-hava necə idi döyüşçülərdə, siz həkimlərdə?

- Döyüşlər Qubadlı, Füzuli istiqamətində irəliləyəndə hiss etdik ki, orda lazımıq. Həmkarlarla yığışıb, ora yollandıq. Füzuli Diaqnostika mərkəzində həmkarlarımıza kömək lazım idi. Orda başladıq fəaliyyətə, əməliyyatlar çox olurdu. Yaralıların əksəriyyəti əməliyyat olunurdu, başqa cür alınmazdı.

44 günlük Vətən Müharibəsinin 30 günə yaxınını xəstəxanalarda keçirdik. Əsas fəaliyyət göstərdiyimiz yerlər Gəncə şəhəri və Füzuli idi, amma düzü, harada ehtiyac olurdu, ora baş vururduq.

Bərdə terrorunda orda idik. Bir yaralını Şirvan şəhərində əməliyyat etmişəm. Çağırdılar ki, burda bir yaralı əməliyyat olunmalıdır, maşına oturub, getdim.

Ab-hava deyirsiniz, möhtəşəm idi. Bunu izah etmək bir az çətindir, ancaq canlı yaşamaq lazım idi. Qorxu görünmürdü heç kimin gözündə. Qorxmazlıq, ölümsüzlük salnaməsi yazıldı. Döyüşçülərdə ruh o qədər böyük idi ki, bəzən biz onlara təsəlli verməliykən onlar bizə dəstək olurdular. Ölümdən-filan qorxuları yox idi. Yarasını sarıyırsan, oturmur ki, tez elə, qayıdıram. Qan götürüb gedir, bir ayağı qaçaqdır ki, qayıtmalıyam. Ən çox təəccübləndiyim o idi ki, zarafatlarından qalmırdılar.

Əməliyyata girəndə biri dedi ki, doktor, erməni mərmisi öldürməyib, yəqin sənin narkozun da öldürməz məni?

Elə yaralılarımız var idi, heç xəstəxanada qalmaq istəmirdilər.



Bilirsiniz niyə? Birdən hansısa məntəqəni, şəhəri geri alarıq, mən orda olmaram, mənim əməyim olmaz - deyə qorxurdular, ölümdən yox, ondan qorxurdular.

Şuşaya bayraq sanca bilmədiyi üçün üzülən əsgər gördüm. Hamısının amalı, arzusu Şuşaya bayraq sancmaq imiş, hərəsi yaxasında bir bayraq gizlədibmiş.

Biri cibindəki bayrağı çıxardıb bizə verdi ki, mənə sancmaq qismət deyilmiş. O birlik, amal bizə də sirayət etmişdi. Həkimlərimiz, tibb işçiləri arasında ilk dəfə belə birlik gördüm. İxtisasından asılı olmayaraq, hamı bir nəfər kimi ürəkdən xidmət edirdi yaralılara.

Müharibənin üçüncü günü Naftalan istiqamətində ən ucqar bölgəyə qədər getdim. Füzulidə olduğum zaman isə bir dəfə yaralı arxasınca Qubadlıya getmişdim. Müharibənin öz qaydaları var. Hesab edirəm, döyüşçünün səngərdə olması nə qədər önəmli idisə, hər kəsin də həmin vaxtlar öz mövqeyində olması elə önəmlidir. Həkimlərimizin də həmçinin, biz də öz postumuzda o döyüşçü qədər faydalı olurduq.

Amma ehtiyac yaransa, təbii ki, səngərdə olacaqdıq. Bu başqa şərəf idi ki, bu şərəfə layiq olan həmkarlarımız oldu. Şəhidlik zirvəsinə ucaldılar.

Ağır yaralılarımız çox idi, yuxusuz gecələrimiz olurdu. Bəzən ardıcıl əməliyyat otağında qalırdıq, çıxa bilmirdik, o qədər yaralı gəlirdi. İnsanların əzmini, o birliyi görəndə, inanın, hər şey unudulurdu, hamı bir amal üçün əl-ələ verirdi, qələbənin özülündə bu oldu.

Tək deyildik, müxtəlif ixtisaslar üzrə bütün cərrahlar bu işə qoşulmuşdu. Təbii ki, hamı ön cəbhədə ola bilməzdi. Bakıda ATU-nun Üz-çənə Cərrahiyyə kafedrası və şöbəsinin bütün əməkdaşları, KTM-in Üz-Çənə Cərrahiyyə şöbəsinin bütün əməkdaşları, güc strukturlarında çalışan üz-çənə cərrahları arxa cəbhədə uğurlu fəaliyyət göstərirdilər. Oktay Mehdiyev, Məhəmməd Davudov, Murad Osmanlı, Cahid Məmmədov, Rəşid Yusifov, Elnur Abdullayev, Rəşad Məmmədzadə, Xəyal Aşurəliyev kimi üz-çənə cərrahlarının böyük əməkləri olub. O günlər ön cərgələrdə olub yaralıların qayğısına qalan bütün kolleqalarımı, adlarını unutduğum dostlarımı, bu qələbə münasibətilə ürəkdən təbrik edirəm.

Bizim işimiz yekunlaşmayıb, bundan sonra da vətəndaş kimi, həkim olaraq qazilərə onların yaxınlarına, şəhid ailələrinə eyni həssaslıqla xidmət göstərəcəyimizə əmin ola bilərsiz. Bu yolda, inanıram ki, bütün dostlar bizə dəstək olacaqlar.

- Döyüşçülərimiz bu müharibədən qalib çıxdılar. Həkimlərimiz necə hesab edir, qalib gələ bildinizmi müharibədə?

- Bəli, çox sevindirici haldır ki, bizim sahədə - üz-çənə cərrahiyyə travması olan yaralılarımızın hamısını həyata qaytara bildik. Bəzilərini Bakıya normal həyati göstəricilərlə təxliyə etmişəm. Bəziləri də təkrar döyüşlərə qayıdıb. Biz də qalibik.

# “Hər şey Vətən üçündür, təki Vətən sağ olsun!” - İki bacının şəhid QARDAŞI

***“Mən dayanmayacağam, axıradək gedəcəyəm, şəhid qardaşlarımın qisasını alacağam. Arxada qala bilmərəm və yalnız irəli getməliyəm. Dözməlisiniz, dözümlü olun. Ya general kimi, ya da şəhid kimi qayıdacağam. Hər ikisinə hazır olun!”.***

Bu sözləri Fariz Rəhimov atası Zahir Rəhimovla danışarkən deyib. Zahir Rəhimovun sözlərinə görə, oğlu fiziki cəhətdən sağlam idi, hərbi xidmətdə kəşfiyyatçılar üçün nəzərdə tutulan kursu bitirmişdi.

“Vətən müharibəsində də kəşfiyyatçı kimi həmişə öndə oldu, düşmən qüvvələri barədə dəqiq məlumatlar əldə etdi. Bəzən olub ki, kiçik qruplarla düşmən arxasına keçib, onlarla qarşılaşıblar, çevikliyi, cəsarətləri nəticəsində düşmənləri məhv ediblər. Topladıqları kəşfiyyat məlumatları bir sıra uğurlu əməliyyatların keçirilməsində mühüm rol oynayıb. Bəli, mənim oğlum Fariz cəsarətli idi, mərd, qorxmaz xarakterinə görə hörmət qazanmışdı, intiqam alacağına əmin etmişdi”,- Zahir Rəhimov deyir.

### “Fariz anadan qəhrəman doğulmuşdu”

Fariz Zahir oğlu Rəhimov 20 sentyabr 2001-ci ildə Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. Əmirvan kənd orta məktəbində 9-cu sinfə qədər təhsil alıb. Sonra sənədlərini 12 saylı Bakı Peşə Liseyinə verib və bu liseyə qəbul olunub. 2017-ci ildə həmin təhsil müəssisəsindən Geniş Profilli Dəzgahçı dərəcəsi ilə məzun olub.

2019-cu ildə həqiqi hərbi xidmətə çağırılan Fariz Rəhimov Qusarda N saylı hərbi hissədə xidmət edib. Xidmət müddətində hərbi hissənin kəşfiyyat qrupuna qoşulub. Bunun üçün xüsusi hazırlıq keçib. Bu zaman kəşfiyyatçılara zəruri olan maskalanma, müxtəlif silahlardan istifadə, əlbəyaxa döyüş, kəşfiyyat tapşırıqlarını yerinə yetirmə üsullarını, mina sahələrinin aşkar olunması və keçidin açılması, minaaxtaranın işə salınması və istifadə qaydalarını öyrənib.

Vətən müharibəsinin ilk günündən Füzuli istiqamətində ən ağır döyüşlərdə iştirak edib. Döyüşlərdə kəşfiyyatçı kimi fərqlənib və komandirin verdiyi tapşırıqlarını həmişə uğurla yerinə yetirib. Düşmən barədə məlumat toplamaq məqsədilə kəşfiyyata çıxıb, lazım olan məlumatlarla qayıdıb. Bu məlumatlar düşmənə qarşı uğurlu əməliyyatların həyata keçirilməsinə imkan verib.

Qələbə inamı ilə döyüşə atılan əsgərlərimiz bir-birinin ardınca yüksəklikləri, kəndləri düşməndən azad ediblər. Saatlarla davam edən döyüşlərdə onlarla düşmən əsgəri məhv edilib. Bu döyüşlərdə Farizin döyüş dostları arasında yaralanan, şəhid olanlar olub. Dəfələrlə həyatını təhlükəyə ataraq, döyüşçü yoldaşlarını atəş xəttindən çıxarıb. İlkin yardım göstərərək, hospitala göndərib.

Füzuli istiqamətində düşmən postlarını alarkən dəfələrlə sağ qalan erməni əsgərlərinin mövqelərini tərk edib qaçdığının şahidi olub.

Bu barədə atası Zahir Rəhimov danışır: “Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Odun-alovun içindən çıxmışam. Hər bir çətinliyi görmüşəm. Qəhrəmanları da görmüşəm, qorxaqları da, vətənpərvərləri də, satqınları da. Fariz anadan qəhrəman doğulmuşdu, bu onun canında vardı. Hər dəfə döyüşə gedəndə elə bil ki toya gedirdi.

Bir dəfə telefonda danışarkən soruşdum:

- Qorxmursan?

Dedi:

- Yox, nədən qorxacağam.

O insanda qorxu deyilən şey yox idi.

- İtin nəyindən qorxmalıyam”,

- deyirdi. İt deyirdi, - erməni demirdi”.

### Ölüm qaşla-göz arasında olub, qalib isə Fariz idi

Fariz Rəhimov Füzuli və Cəbrayılda bir çox kəndin azad edilməsində iştirak etdi. Bu döyüşlərdən biri çox ağır keçdi. Farizin də olduğu dəstə strateji cəhətdən əhəmiyyətli olan erməni postunu düşməndən azad etməli və orada möhkəmlənməli idi. Gecə hücum əməliyyatı həyata keçirilsə də posta yaxınlaşmaq mümkün olmur, çünki düşmən tərəfi gecə kamerasının köməyi ilə MAXE-lərimizi əvvəlcədən aşkar edib müxtəlif çaplı silahlardan atəşə tuturlar. Nəinki əsgərlərimizin irəliləməsinə, hətta başlarını qaldırmağa imkan vermirlər. Dəstənin komandiri iki əsgəri çağırıb tapşırıq verir:

- Dəstədən aralanın, cinahdan posta yaxınlaşın, biz burada onların diqqətini yayındıracağıq.

Komandir əsgərlərinə geri çəkilmə görüntüsü yaratmağı tapşırır və tapşırıq uğurla yerinə yetirilir. Tapşırıq alan iki əsgərimiz isə çox diqqətlə ətrafı nəzərdən keçirərək, ehtiyatla irəliləyir və hərbiçilərimizin hücuma keçməsinə imkan verməyən düşmənin atəş nöqtəsinə yaxınlaşırlar. Postdakı erməni əsgərləri cinahdan hücuma məruz qalırlar. Səngərdə çaxnaşma düşür, bundan istifadə edən digər dəstə hücuma keçib postu ermənilərdən təmizləyir. Bu döyüşdə Fariz Rəhimov öndə olub, səngərdə gözlənilmədən düşmənlə qarşılaşıb və ondan tez tərpənərək, atəş açıb. Ölüm qaşla-göz arasında olub, qalib isə Fariz idi.

Əsgərlərimiz kömək gələnədək posta möhkəmlənirlər ki, düşmənin əks-hücumunun qarşısını alsınlar. Az sonra əks-hücum başlayıb, ona minaatanlardan dəstək verilib, lakin istəklərinə nail ola bilməyiblər. Mövqelərimizin intensiv atəşə tutulması nəticəsində yaralananlar, şəhid olanlar olub. Fariz Rəhimov bu döyüşdə ən yaxın dostlarını itirib, onların intiqamını alacağına bir daha əmin edib.

Atası Zahir Rəhimovla danışanda sevinclə deyib:

- İtlər böyük itkilərlə geri çəkilirlər. Qələbə yaxındadır.

- Ehtiyatlı ol! Açıqlığa çıxma, özünü qoru, - atası deyib.

- Ata döyüşdə əsgərin yadına ölümmü düşür?.. Bizim vəzifəmiz tapşırığı uğurla və vaxtında yerinə yetirməkdir.

Fariz Füzuli-Cəbrayıl istiqamətində, daha sonra Zəngilan və Qubadlının kəndlərinin azad olunmasında iştirak etdi. Ən ağır döyüşlər Hadrut istiqamətində baş verdi. Düşmən tərəfi bu istiqamətdə böyük qüvvə toplamışdı və Hadrutu Qarabağın qapısı, əsarı adlandırırdı. Möhkəmləndirilmiş müdafiə istehkamları, çoxsaylı hərbi texnika və canlı qüvvə - onlarda özlərinə inam yaratmışdı, amma sonrakı döyüşlər göstərdi ki, Azərbaycan ordusu qarşıya qoyduğu məqsədə çatmaq üçün hər cür maneəni dəf etmək gücündədir, Döyüşlərdən əvvəl Farizin də iştirakı ilə güclü kəşfiyyat əməliyyatları həyata keçirildi. Düşmənin mövqeləri, hərbi texnika və canlı qüvvəsi və onların yerləşdiyi ərazilər barəsində dəqiq məlumatlar əldə edildi və bu məlumatlar əsasında ordumuzun bölmələri düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırdı və aktivliyinin qarşısını qətiyyətlə aldı. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itdi, bölmələri arasında nizamsızlıq yarandı, şəxsi heyətinin intizamı pozuldu. Hadrut ətrafında bütün əhəmiyyətli yüksəkliklər azad edildi. Döyüş mövqelərinin tərk edilməsi kütləvi hal aldı. Bu döyüşlərdə Fariz Rəhimovun cəsarəti komandiri tərəfindən yüksək qiymətləndirildi.

Döyüşdən sonra komandiri bölüyün zabitlərinə deyib:

- Yaşının az olmasına baxmayaraq Fariz böyük şücaət göstərdi. Onun kimi igid əsgərə hələ çox ehtiyacımız var. Vətənə məhz Fariz kimi, igid, qorxmaz və sadiq oğullar lazımdır.

Döyüşçülərimizin qəhrəmanlıqları, vətən sevgi ilə azad etdikləri Hadrut isə erməni tərəfi üçün böyük mənəvi zərbə oldu. Azərbaycan ordusu onu nəzarətə götürməklə Füzuli və Cəbrayıl rayonlarını müdafiə edən erməni qüvvələrini mühasirəyə düşmək və mövqelərini itirmək riski ilə üzbəüz qoydu. Eyni zamanda Ordumuz üçün Dağlıq Qarabağın mərkəzinə -Şuşa və Xankəndi şəhərlərinə yol açıldı.

Hadrut döyüşlərindən sonra atası Zahir Rəhimovla danışanda hər şeyin yaxşı olduğunu bildirib:

- Mən yaxşıyam, siz necəsiniz? Dözümlü olun. Ya general kimi, ya da şəhid kimi qayıdacağam. Hər ikisinə hazır olun. Düşmən arxasına baxmadan qaçır, tezliklə Şuşadayıq. Hər şey Vətən üçündür, təki Vətən sağ olsun!

### “Kişi itdən qorxmaz, möhkəm olun!”

Fariz Rəhimov MAXE və zabitlərdən ibarət bölükdə xidmət edən yeganə əsgər olub. Zabit və MAXE-lərlə sonrakı döyüşlərdə iştirak edib və ən öndə vuruşanlardan olub. Əməliyyatlara başlamadan əvvəl döyüş yoldaşlarına deyərmiş: “Kişi itdən qorxmaz, möhkəm olun!”.

Qorxmazlığına və mərd hərəkətlərinə görə bölükdə bütün zabit və MAXE yoldaşları onu hörmətlə ”Ləzgi Əmi”- deyə çağırıblar. Bunu qüruru ilə, cəsarəti ilə qazanmışdı.

Şuşa uğrunda döyüşlərdə bir daha Vətənə sadiq, torpağına bağlı əsgər olduğunu göstərdi. Günlərlə çiynində yük, silahla gizli yollarla Şuşa şəhərinə doğru döyüş yoldaşları ilə irəlilədi, ac qaldı, susuz qaldı, lakin ruhdan düşmədi. Şuşa ətrafında döyüşlərdə iştirak etdi, düşmənə Ermənistandan hərbi dəstəyin qarşısını almaq üçün Laçın dəhlizində vuruşdu.

Laçın dəhlizi nəzarət altına alındıqdan, işğalçıların silah və logistik dəstək yolları kəslidiktən sonra erməni hərbi hissələrinin Şuşada uzun müddət müqavimət göstərməsi qeyri-mümkün idi. Bir sözlə, dəhlizin nəzarətə götürülməsi Şuşa azad edilməsində önəmli rol oynadı. Fariz Rəhimov və döyüş dostları digər hərbi dəstələrlə birlikdə qarşıya qoyulan tapşırığı uğurla həyata keçirdilər. Yolun hər iki tərəfində onlarla, yüzlərlə düşmən cəsədlərinin videoları da bunu deməyə əsas verir. Fariz Rəhimov bu döşlərin birində az qala həlak olacaqdı. Düşmən tərəfinin minaatanları dəfələrlə onların olduğu ərazini atəş altında saxlamağa çalışdı. Hətta mərmilərdən biri Farizin yaxınlığına düşdü. Vaxtında qayanın arxasına uzanması onun həyatını xilas etdi. Döyüş dostları bu hadisədən sonra zarafatla - “sənə ölüm yoxdur!” demişdilər.

O, Şuşanın düşməndən azad edilməsi uğrunda döyüşlərdə iştirak etdi, bölüyü ilə birlikdə erməniləri pusquya saldı, onlarla düşmən cəsədi döyüş meydanında qaldı.

Fariz Rəhimovun son döyüşü 2020-ci ilin 7 noyabr tarixində Şuşa uğrunda gedən döyüşlərdə oldu və həmin döyüşdə qəhrəmancasına şəhid oldu.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Respublikası Baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən imzalanmış üçtərəfli atəşkəs bəyanatının imzalanmasına cəmi 3 gün qalmışdı. Cəmi 3 gün!

### “Xatirələrin sevinci də, kədəri də acı olur”

Fariz Rəhimovun 19 yaşı vardı, iki bacının bir qardaşı idi. 19 ilə bir ömür sığdırmışdı. 19 ildə millətinə, Vətəninə sadiq övlad kimi yetişdi, cəsarəti ilə, mərdliyi ilə seçildi. Bu günkü qələbədə onun da payı var. Ondan isə ailəsinə, qohumlarına, dost-tanışlarına xatirələr qaldı. Bu xatirələrin sevinci də, kədəri də acı olur.



Nəzrin Zəkərlinin onunla bağlı xatirələri də bununla bağlıdır: “Bir zamanlar bizim məhəlləmiz kəndin ən çox uşaqlı, xoşbəxt məhəlləsi idi. Biz yağış yağanda addım atmaq mümkün olmayan, dizə qədər palçıqlı məhəlləyə səninlə nə oyunlar, xatirələr sığdırmışıq. Kartof qızartmasından tutmuş, sup bişirməyə qədər, gec saatlarınadək gizlən-qaç oynayıb, bir-birimizin paltarlarını geyinib gizlənməyə qədər. Hasarda oturub Bəhram əmigilin balaca televizorunda “Klon”a maraqla baxdığımızı heç unutmaqmı olar. Novruz bayramında kəndin ən hündür tonqalı bizim məhəllədə olsun deyə, səninlə birlikdə oğlanlar meşədən əziyyətlə odun toplayıb gətirər, biz qızlar da Araz müəllimin çəpərini dağıdıb - məktəbdə danlanacağımıza baxmayaraq - bura bizim məhəlləmizdir, heç kim bura ayaq basa bilməz deyib, odundan qılınclar düzəldib digər məhəllənin uşaqları ilə dalaşmağa qədər səninlə bir uşaqlıq dövrü yaşadıq.

İndi məhəlləmiz nə palçıqlıdır, nə də ki, böyüklərimiz səsimizdən şikayət edəcək qədər səs-küylü. Çünki o təbəssümlü uşaqlar böyüyüb artıq. Kaş ki, yenə o vaxtlardakı kimi dalaşıb barışaydıq, kaş ki yenə təzə bir oyun kəşf edəndə həftələrlə onu oynayırdıq, kaş ki yenə ayaqlarımız palçıq içində olardı, kaş yenə Qızılgül nənə çox səs-küy salırıq deyə bizi qovaydı, oradan gələrdik bizim evin qarşısına. Mənim baba-nənəm qovardı bizi, sonra axırda gedərdik sevimli Ofelya bibimizin qapısına. Kaş Saday baba yenə bizə nar verəydi. Amma indi biz sənin 40 günlüyünün şahidi oluruq. Axı adamın dili gəlmir bunu deməyə. Deyəsən xatirələrin sevinci də, kədəri də acı olur. Sən bunu bizə öyrətdin, Fariz!. Sən həmişə qəlbimizdəsən, üzündəki, gözlərindəki təbəssümlə, oynadığımız o oyunlarda qalacaqsan qəlbimizdə, körpə şəhid!”.

*Pünhan Əfəndiyev*



## Azərbaycanda kimlər inzibati həbs oluna bilməz?

***Karantin rejimi qaydalarının kobud pozulması ilə sayı daha da artan inzibati xətalar zamanı bəzi hallarda cərimə tətbiq olunsa da, həbs qərarları da verilir. Məsələnin də əsas tərəfi bundan ibarətdir: ”Kimlər barəsində inzibati həbs qərarı verilmir?”***

Hüquqşünas Şamil Paşayev suala cavab olaraq bildirib ki, inzibati həbs şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törədən, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədi daşıyır: ”Əgər bu məqsədə cərimə ilə çatmaq mümkündürsə şəxs həbs edilmir. İnzibati həbsi ancaq məhkəmələr həyata keçirə bilir. Polis və ya digər icra orqanı əməkdaşlarının inzibati xəta ilə bağlı protokol tərtib edərək vətəndaşı həbs etmək səlahiyyətləri yoxdur. İnzibati həbs zamanı vətəndaşın şəxsiyyəti nəzərə alınmalıdır.

Burada ağırlaşdırıcı və yüngülləşdirici hallara baxmaq da lazımdır. Yüngülləşdirici hallara şəxsin himayəsində azyaşlı uşaqları olması, səmimi peşmançılığı, hadisələrin təsadüfi axını zəminində baş verməsi, yetkinlik yaşına çatmayanın və ya hamilə qadının hadisə törətməsi və s. daxildir.

Eyni zamanda, ağırlaşdırıcı hallara da nəzər salmaq labüddür. Səlahiyyətli şəxslərin hüquqazidd hərəkəti dayandırmağı tələb etdiklərinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi, bir il ərzində təkrar inzibati xəta törədilməsi, yetkinlik yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi, inzibati xətanın yetkinlik yaşına çatmayanlara qarşı törədilməsi, inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi, təbii fəlakət şəraitində və ya başqa fövqəladə şəraitdə, yaxud hərbi vəziyyət dövründə törədilməsi, sərxoş halda olan şəxs tərəfindən törədilməsi və s. isə işi ağırlaşdıran hallardır.

Onu da qeyd etmək lazımdır ki, inzibati həbs, yalnız müstəsna hallarda, inzibati xətaların ayrı-ayrı növlərinə görə on beş gün müddətinədək müəyyən olunur və tətbiq edilir. Hamilə qadınlar və ya himayəsində səkkiz yaşınadək uşağı olan qadınlar, səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, habelə altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər barəsində inzibati həbs tətbiq edila bilməz”.

***Mehman Nəbiyev***

# Pənahəli xanın erməni vandallığından nəsibini alan Şahbulaq qalası - REPORTAJ

***Əməkdaşlarımız həmin ərazilərindən “Zəfərin izi ilə” rubrikası altında silsilə reportajlar hazırlayıb. Bu silsilədən növbəti reportajı təqdim edirik:***

Bu da Şahbulaq kəndi... Şahbulaqda Qarabağ xanı Pənahəli xanın 1751-1752-ci illərdə inşa etdirdiyi qala yerləşir. Kəndin də, qalanın adı yaxınlığındakı gursulu bulağın adından götürülüb. Ermənilər Qarabağın guya onların qədim torpaqları olduğunu sübut etmək üçün burada genişmiqyaslı qazıntılar başlatmış və guya qədim Tiqranakert şəhərinin qalıqlarını aşkar etmişdilər. Buna görə də bu ərazilər ermənilər üçün çox önəmli sayılırdı. Bu üzdən Şahbulağa pul xərcləməkdə xəsislik etmirdilər, tikib-düzəldirlər. Bəs necə, bura gələn xaricilərə nəsə göstərmək üçün şərait də yaratmalısan axı. Yolboyu gördüyümüz dağıntılardan sonra birdən qabağımıza dəmir torla hasarlı, şamlığın içində bir qala çıxır.

### Qalanın başında Azərbaycan bayrağı dalğalanır...

2006-cı ildə Ermənistan Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiyası Şahbulaq yaylağına ezam edilib. Erməni alimləri burada aparılan qazıntıların nəticəsi olaraq iddia ediblər ki, guya “qədim erməni dövlətinin paytaxtlarından” biri olan Tiqranakert elə Şahbulaq yaylağında “gizlənibmiş”. Bundan sonra Şahbulaq qalasının qalıqları üzərində Tiqranakert muzeyini inşa ediblər. Təbii ki, Pənahəli xanın tikdirdiyi qalanın tarixiliyinə xələl gətirməklə...

Qalanın əsas divarlarından əsər-əlamət qalmayıb. Görünür, ermənilər muzeyi qəsdən qala divarlarının qalıqları üzərində inşa ediblər ki, tariximizi silsinlər. Lakin bir şeyi unudublar ki, onların sementlə-qumla silməyə çalışdıqları tarixi ordumuz silah gücünə bərpa edib.

Əsas girişdən keçib muzeyin həyətinə daxil oluruq. Həyətin ortasında hovuz, skamyalar, bir neçə ağac var. Hələ müharibənin qızğın vaxtında erməni arxeoloqlar muzeydəki eksponatları, təbii ki, Şahbulaq ərazisində aparılan qazıntılar zamanı aşkar olunan materialları Ermənistana daşıyırdılar, muzeyi talan edirdilər, gedərayaq da oğurluqlarından qalmırdılar.

Muzeyi gəzirik. Şahbulaqda arxeoloji qazıntılar aparılması ilə bağlı erməni və ingilis dillərində yazılı plakatlar, müxtəlif broşurlar, etiketajlar, bilet kağızları, məlumat lövhələri hara gəldi atılıb, eksponatların sərgiləndiyi şüşə vitrinlərin, ekspozisiya altlıqlarının, kürsülərin çoxu aşırılıb. Hər tərəf dağınıq vəziyyətdədir. Yerdən tapdığımız etiketajların üzərindəki yazılardan məlum olur ki, eksponatlar çox qədim dövrlərə aid olub.

Qalanın bürclərindən baxanda arxeoloji qazıntı aparılan yerlərin bəziləri aydın görünür. Lakin hərbi dillə desək oraların “təmiz” olub-olmadığına əmin olmadığımız üçün yaxınlaşmırıq. Qalanın aşağısında yerləşən bulağa düşürük.

### Kilsə, yoxsa məscid?..

Bulağın qarşısındakı ağaclığa daş döşənib, park salınıb. Vaxtı ilə azərbaycanlıların dincəldiyi bu yerlərdə ermənilər özləri üçün şərait qurublarmış. Düz dağın ətəyində, ağacların içində tikili var. Kilsəyə oxşayır. Tikiliyə bitişik hovuz var, qayaların, tikilinin altından qaynayan bulağın suyu hovuza dolur, ordan digər hovuza keçir və irəlidəki çəmənliyin içi ilə axıb düzə yayılır. Hovuzlar yarıdağılmış vəziyyətdədi, içini yosun basıb, görkəmi qarşısındakı parkın gözəlliyi ilə tərs mütənasibdir.

Kilsəyə oxşayan tikili Şahbulaq məscididir. Məscid qala ilə eyni dövrdə Pənahəli xan tərəfindən inşa edilib. Bütövlükdə yerli əhəng daşı ilə inşa edilmiş Şahbulaq məscidi üç tağlı eyvandan və bir ibadət zalından ibarətdir. Eyvanın tağları mütənasib qamətli bir cüt daş sütunlara söykənir. Tavanı isə tağbənd şəklində tamamlanır. İbadət zalı kvadrat şəkilli olduğundan tavanı interyer tərəfdən günbəz şəklində tamamlanıb, bayır tərəfdən isə günbəz üzərinə yeni örtük materialları əlavə etməklə dam örtüyü iki yamaclı formaya salınıb. Bu da təbii suları dərhal yanlara axmasına əlverişli şərait yaratması üçün olub. Yəqin tikilinin memarı inşa zamanı bölgədəki Alban abidələrinin memarlığını əsas götürüb.

Görünür, zahirən kilsəyə bənzədiyindən ermənilər bu abidəyə toxunmayıblar. Əksinə məscidin divarlarındakı oyuqlarda yandırılmış şamların izi vardı. Bura gəlməmişdən qabaq oxuduğum mənbələrdə qeyd olunurdu ki, Şahbulaq qalası yenidən inşa edilərək, kilsə kimi istifadə edilib. Çox güman ki, məhz bu tikili nəzərdə tutulub. Çünki nə qalada, nə də yaxınlıqda kilsəyə rast gəldik. Elə kilsəyə bənzədiyi üçün ermənilər dağıtmayıb, içində şam yandırıb, dua ediblər, lakin mənə görə əslində növbəti dəfə tarixi saxtalaşdıraraq Şahbulaq məscidini erməni kilsəsinə çevirmək üçün zəmin hazırlayırmışlar. Bunlar mənim fikirlərimdir. Lakin hörmətli alim Bayram Quliyev bir az fərqli fikirləşir: “Şahbulaq Alban Məbədi VI-VIII yüzilliklərə aiddir. Xristianlığın Azərbaycanın şimal hissəsində gec yayıldığını nəzərə alsaq, məbədin göz önündən kənarda tikilməsi normal durumdur. Çox güman ki, Səfəvilər zamanında da nəzərlərdən uzaq qalan məbəd Qarabağ xanlığı zamanında bir az dəyişikliyə məruz qalıb, məbədə 3 tağlı eyvan əlavə olunub. Lakin bu həmin abidənin məscid olduğunu söyləməyə əsas vermir”.

Sakitlikdir. Düzü adam buralardan heç getmək istəmir. Düşünəndə ki, belə füsunkar bir yer 30 il yaxın müddətdə ermənilərin əsarətində qalıb, bu bulaqdan ermənilər su içib, bu ağacların altında dincəliblər, düzü, məyus olmamaq mümkün deyil, amma bir təsəlli də var ki, buralar yenidən öz əvvəlki gözəlliyini qazanacaq, bu yerlərin həqiqi sahibləri təzədən bura gəzməyə gələcək, burda dincələn uşaqların səs-küyü, böyüklərin şirin gülüşlərinə, xoş avazlarına qarışacaq.

### Qızıl Kəngərlidəki türbə

Yolun solu ilə yanımız boyu bitib-tükənməyən daş hasar uzanır. “Vaxtilə Ağdam həbsxanası olub”, - deyir bələdçimiz. Həbsxanadan sonra gələn iri istixananın isə bütün şüşələri sındırılıb. Qızıl Kəngərlidə Ağdamın digər yerlərinə baxanda evlər salamatdır. Həyət-bacalardan yetişmiş xurmalar boylanır. Ermənilər Ağdamı təhvil verəndə Qızıl Kəngərlidəki evlərin çoxunu yandırıblar.



Kəndin içində ləngimədən Qızıl Kəngərli Türbəsi tərəfə yollanırıq.

Bu da Qızıl Kəngərli Türbəsi. Sapsarı otların arasında tarixə və düşmənə meydan oxuyurcasına dik dayanıb. Maşını saxlayıb aralıdanca şəklini çəkirik.

Türbə memarlıq üslubu baxımdan XIV əsrə aiddir. Əsas gövdəsi səkkiz guşəlidir ki, bu, dövrün memarlıq ənənələrindən qaynaqlanır, yuxarı hissəsi isə konusvaridir. B. Quliyevin fikrincə türbənin bir sərdabənin üzərində inşa olunduğunu ehtimal etmək olar: “Çünki XIII-XIV əsrlər türbələri bu formada inşa edilirdi. Qaynaqlarda türbənin kimə aid olması göstərilmədiyi üçün dəqiq bir şey söyləmək mümkün deyil. Lakin o dövrdə İslamın zəifləməsindən qaynaqlanan sufizmin geniş yayıldığını da göz önündə tutaraq sufizmi yayan əsas şeyxə aid olduğunu ehtimal etmək olar. Çünki bu dövrdə bütün türbələr bu cür şeyxlər üçün tikilərdi. Onlardan bəzilərinin adı qaynaqlarda qalsa da, bir çoxu haqqında məlumata rast gəlinmir”.

Uzaqdan rus sülhməramlılarının yük maşını görünür. Siqnal verə-verə bizə tərəf şütüyür, yəni yoldan çıxın deyir. Sürücümüz avtomobili yoldan çıxarır, elə biz də kənara çəkilirik. Yük maşını yanımızdan keçib sülhməramlıların nəzarətində olan yerə tərəf gedir. Maşın təpənin dalında yox olana kimi arxasınca baxırıq...

Daha Qızıl Kəngərlidə işimiz qalmayıb, yekunlaşdırıb qayıdırıq. Yolumuz Abdal Gülablıyadır. Səxavət Məmmədovun qəbrini ziyarətə gedirik(apa).

# Rəsm əsərlərindəki SİRLİ MƏQAMLAR

***Yəqin ki, çox az adam məşhur rəsm əsərlərinin böyük sirlərinin olduğunu bilir. Bu yazıda sənət əsərlərinin araşdırılması nəticəsində əldə edilən müdhiş tapıntılar cəmləşib - "Mona Liza"nın gülüşü, Rembrandtın tənbəl gözü və sairə. Məşhur rəssamlar və tablolarıyla əlaqədar 6 maraqlı kəşfi oxucuların diqqətinə çatdırırıq.***



### Sol yanağın SİRRİ

Əksər, bəlkə də portret janrında çəkilən rəsm əsərlərinin yarıdan çoxunda müəlliflər öz qəhrəmanlarını sifətlərinin sağ tərəfə əyilmiş və sol yanağı görünmüş halda təsvir edirlər. Bu nə ilə bağlıdır? Bəlkə beynimizin də qəribə halda sağ tərəfə meyllənməsinin təsirindəndir?
İndiyə kimi çəkilən bütün təsviri sənətin hamısı göz önünə gətirilərsə, o zaman İsa peyğəmbərin çarmıxa çəkilmiş formada rəsmlərində də eyni formanı yada sala bilərik. 2000 il boyunca heç nə dəyişməyib: İsa həmişə üzü sağ tərəfə baxacaq və sol yanağı görünəcək.
Bu tərzdə portretlərin çəkilməsinin sirri uzun müddət açılmamış qalıb. Ta ki, "The Tale of Dueling Neurosurgeons"ın müəllifi Sam Kean bu faktı araşdırana kimi. Əgər sifətin hansı tərəfinin təsvir edildiyi təsadüfi təyin olsaydı, qaleriyalardakı kolleksiyaları (təbii olaraq) üçdə birinin sağa, üçdə birinin sola, yerdə qalanın isə qarşıya baxdığını söyləmək lazım gələrdi.
Buna baxmayaraq, araşdırmalar vəziyyətin fərqli olduğunu göstərir: məlum olub ki, portret janrında çəkilən əsərlərin təxminən 60 faizində obyektin sol yanağı göstərilir və baş nisbətən sağa meyllənib.
Yaxşı, bunun səbəbi nədir? Araşdırmalardan aydın olub ki, sol tərəf hissləri daha aydın şəkildə biruzə verir. Belə bir praktika keçirək: əsəbi olduğumuz an güzgü qarşısında dayanaq və əvvəl sifətimizin sağ, daha sonra sol tərəfini örtək. Bu zaman özünüz də təsdiq edəcəksiniz ki, sifətinizin sol tərəfi daha əsəbi görsənir.
Təbii ki, keçmiş rəssamlar bu elmi araşdırmadan xəbərsiz olublar. Bəs o zaman nədən onlar obyektlərinin sol sifətini təsvir ediblər? Yəqin ki, bu, rəssamların həssaslığından irəli gəlib. Şəkillərini çəkəcəkləri modellərlə qarşıqarşıya oturduqda bu cür pozanın daha təsirli olduğunu görə biliblər.

### Mona Lizanın sirrli GÜLÜŞÜ

Mona Liza o qədər məşhur əsərdir ki, yəqin özünüz də bu haqda sual etmisiniz: "Məşhurluğa səbəb nədir? Şəxsiyyəti naməlum bir qadının portretini bu qədər əhəmiyyətli edən nə ola bilər?" Yalnız rəsm sənətiylə yaxından maraqlananların anlayacağı texniki detallar xaricində portretin belə məşhur olmasının səbəbi Mona Lizanın sirrli üz ifadəsidir.
Portretə baxırıq, Mona Liza gülümsəyir. Bir az diqqətlə baxdıqda isə onun heç də gülümsəmədiyinin fərqində oluruq. Bu nə sirrdir? Düz 500 ildir ki, Mona Liza bu sirri qoruyub saxlayır.
Gəlin portretə birlikdə diqqət yetirək: ən əvvəl buna baxaq - gülümsəyir, eləmi?
İndi isə buna baxaq - gülümsəmir.
Yaxşı, o zaman Mona Lizanın güldüyü hissinə necə qapılırıq? Harvardlı bir nerolog Dr. Marqaret Livinqston Mona Lizanın ən əhəmiyyətli sirrini açıb. Onun fikrincə, sirr portretdə deyil, izləyicinin, yəni bizim gözümüzdə, gözümüzün hərəkətliliyindədir.
Biz kiməsə baxanda ilk növbədə baxışlarımızı onun gözlərinə dikirik. Baxış bucağımızın təsiri altına onun bütün sifəti də daxil olur və bizdə belə təəssürat yaranır ki, portreti tam görürük. Yəni gözləri, burunu, ağızı, yanaqları və sairə. Bu zaman rəssamın rəsm əsərinə verdiyi kölgələrin təsiri altında bizdə Mona Lizanın gülümsəməsi effekti yaranır.
Baxılarımız Mona Lizanın ağzına dikildikdə isə dodaqların xətlərini sezə bilirik, kölgələrin yalnız kölgə olduğunu anlayırıq və əslində Mona Lizanın gülümsəmədiyi ortaya çıxır.

### "Qışqırıq"

Edvard Munkun "Qışqırıq" tablosu "müasir incəsənətin simvolu və çağımızın Mona Lizası" kimi qəbul edilir. Bir çox yerdə qarşımıza çıxan bu əsər yenicə sənətə başlayan gənc rəssamlar üçün ilham qaynağı ola bilər.
Bəs bu əsərin sirri nədir, yaxud nədədir? Səma nə üçün bu halda və ərimədə olan şama bənzəyən bu adam niyə dəhşət içində?
Bu dəfə sualların cavabları açıqdır. Çünki Munk bunları öz gündəliyində yazıb: "İki dostumla birlikdə yol gedirdim; bu zaman günəş batdı, bir anda səma qıpqırmızı rəngə boyandı və üzərimə dərin bir hüzn çökdü. Qorxuya yas tutmuş şəkildə tərpənmədən dayanır, özümü çox əldən düşmüş hiss edirdim; qan-qırmızı buludlar və atəşdən tutulan mavi-qara fiord (ensiz, dərin, yamacları dik və qayalıq dəniz körfəzi - red.). Yoldaşlarım yola davam etdilər, mən tək başıma bu hisslərin qoynunda titrəyərək orada dayandım. O an mən təbiətin nəhəng və nəhayətsiz qışqırığını eşitdim".
Bu da Munkin tablosunun bir günəş batımından ilhamlanaraq verdiyi mənası.
Əlbəttə ki, əksəriyyətimiz üçün rəssamın gündəliyində qeyd olunanlar o qədər də yetərli deyil. Sual yarana bilər ki, sadə bir gün batımı, onun yaratdığı effekt rəssamda nə üçün belə təəssürat yaratsın ki?!
Bu tablonun sirrini öyrənmək üçün onun fırçaya alınmasının tarixini, eləcə də rəssamın vərdişlərini incələməyimiz şərtdir. Bəllidir ki, Munk illər əvvəl yaşanmış hadisələrdən ilham alaraq öz tablolarını yaradırdı və "Qışqırıq" tablosunun da daxil olduğu "Həyatın frizi" ("The frieze of Life") seriyasını araşdıran tədqiqatçıların qarşısına bu tarix çıxır: 1884.
Sözsüz ki, çoxumuz bilmirik ki, 27 Avqust 1883-cü ildə dünyada ən böyük vulkan partlayışı baş verib. Bu İndoneziyadakı "Krakatoa" vulkanının ardıcıl olaraq daşması o dərəcə sarsıdıcı və güclü idi ki, atmosfer tempraturunun 1 dərəcə aşağı düşməsinə səbəb olmuşdu. Həmin zaman vulkanın səmaya püskürtdüyü toz və kül yer kürəsinin hər tərəfinə dağılmış, bu da günəş batarkən səmada qeyri-adi görüntü effektinin yaranmasına səbəb olurdu. 1883-cü ilin sonuna qədər bu toz və kül İndoneziyadan Norveçə qədər gedib çatmış və Munkə "Qışqırıq" üçün ilham qaynağı olmuşdu.

### Vitruvius Adamı

"Vitruvius Adamı" Leonardo Da Vinçinin ən məşhur əsərlərindən biridir. Leonardo bu eskizi romalı memar Vitruviusun "Nisbətlər" qaydasına uyğun olaraq çəkməyə çalışıb. İdeal kişi bədəninin necə görünməsinin riyazi yolla təsvir edilməsi ilə yanaşı Vitruvius eyni zamanda bu qaydaların inşa olunan tikililərə, abidələrə də tətbiq olunmasının lazımlığını müdafiə edirdi. Əksər rəssamlar Vitruviusun qaydalarını rəsm əsərinə çevirməyə çalışıb, amma Vitruviusun "Fiziki kamillik" adlandırdığı ideyaya ən yaxın olanı Leonardonun düşündüyü bu versiyası hesab olunur.
Ancaq, tibbi tədqiqatçı Dr. Huta Ashrafian bu 500 illik eskizin mükəmməlliyilə ziddiyyət təşkil edən bir şeyin fərqinə varıb: Vitruvius adamının penisinin yuxarısında qabarıqlıq gözə dəyir. Həkimin diaqnozuna görə, Leonardoya bu eskiz üçün modellik edən adam "İnguinal Herne" ("qasıq yırtığı") xəstəsi olub. Müasir dövrümüzdə kişilərin üçdə biri, qadınların isə cəmi 3 faizi həyatlarında belə bir narahatlıqla qarşılaşırlar. Leonardonun bu şəkil üçün istifadə etdiyi modelin canlı, yaxud ölü olduğu bilinmir. Ashrafiana görə, əgər model ölü olubsa, bəlkə buna qasıq yırtığı səbəb olub (o dövrlərdə müalicə edilmidir). Əgər model canlı olubsa, çox ehtimal Leonardoya bu şəkil üçün ilham verdikdən qısa müddət sonra həyatını itirib.

### Mikelancelonun Gizli Xəstəliyi

Rafaellonun "Afina Məktəbi", bütün zamanların ən məşhur fresklerinden biri sayılır. Vatikanda Papanın kitabxanasının divarını bəzəyən freskdə antik dünyanın ən böyük filosofları təsvir olunur. Rafaello, əlbəttə "agora"da gəzişən bu filosofların necə göründüyünü bilmirdi, o da İntibah ənənəsinə uyğun olaraq yoldaşlarını model alaraq istifadə edib. Rafaello bu məşhur freskini çəkərkən Mikelancelo da Sikstin kapellasının tavanında çalışırdı. Həmin zaman Mikelancelo rəssam yoldaşına Efesli Heraklit yaratmaq üçün model olub.
Maraqlıdır ki, 500 il yaşı olan bu sənət incisinin də özünə görə sirri var. Bu sirri Dr. Carlos Hugo Espinel ortaya çıxarıb. Onun tədqiqatlarının nəticəsinə görə, Mikelancelodan ilhamlanaraq yaradılan Heraklit obrazının qəribə bir şəkildə sümükləri çıxmış olan dizləri onun "gut" (sümük xəstəliyi - red.) xəstəliyindən əziyyət çəkdiyini göstərir.
Bəlkə də kimsə bu araşdırma nəticəsini ciddiyə almaya bilər. Amma heç kimə sirr deyil ki, Mikelancelo öz sənətinin düşkünü olub və fövqəlbəşər bir sənətçi olma ehtirasıyla bəslənməyə o qədər də diqqət göstərməyib. Uzun iş prosesində yalnız bir tikə çörək yeməklə və şərab içməklə kifayətlənib. O da məlumdur ki, "gut" xəstəliyini yaradan səbəblərdən biri o zaman şərabların saxlanıldığı saxsı qablar olub və Mikelancelonun da həmin saxsı qablarda saxlanılan şərabdan içməsi onun sümük xəstəliyini artırıb. Eyni zamanda sidik kisəsi və böyrəkləri ilə əlaqədar problemlərindən şikayətləndiyi gündəlikləri də bu ehtimalı gücləndirir.

### Rembrandtın Gözləri

Rembrandtın sənətə verdiyi töhfələri yaşadığı və işlədiyi dövrün "Hollandiyanın Qızıl Çağı" olaraq xatırlanmasına səbəb olub.
Məşhur rəssam özündən sonra təəccüblü dərəcədə çox saylı avtoportret qoyub. Əgər bu avtoportretlərin həqiqətəuyğunluğunu fərz etsək, onda Rembrandtın ilk baxışda böyük bir rəssam halına gəlməsinə mane kimi görünə, bu yolda əslində irəliləməsinə səbəb olmuş bir fiziki xüsusiyyəti gözə dəyə bilər: göz tənbəlliyi.
Mona Lizanın gülüşünün sirrini tapmış Dr. Marqaret Livinqston Rembrandtın avtoportretinin biri xaricində digərlərinin hamısında gözlərin fərqli istiqamətlərə baxdığını kəşf edib. Və bunun təsadüf olmasını tədqiqatçı qətiyyətlə rədd edir. Çünki çəkdiyi digər portretlərdəki gözlərdə belə bir şeyə rast gəlinmir. Yaxşı bu nə anlamı verir?
Tədqiqatçı hesab edir ki, adi insanlardan fərqli olaraq Rembrandt dünyanı ikiölçülü görmə qabiliyyətinə malik olub və inanılmaz bədii qabiliyyətinin inkişaf etməsi fiziki qüsurunun yaradıcılığına sızmasına səbəb olub. Çəplik və ya Akçıl göz bəbəyi problemindən əziyyət çəkən insanların beyni gözdəki problemdən dolayı məlumatı üç ölçülü deyil, ikiölçülü qəbul edir.
"Stereo/ üç ölçülü korluq" ümumiyyətlə erkən yaşlarda özünü göstərməyə başlayır. Görünür, Rembrandtda da bu xəstəlik çox kiçik yaşdan başlayıb. Aparılan araşdırmalar göstərir ki, belə xəstəlik tək məşhur rəssamda deyil, digər rəssam həmkarlarında müşahidə edilib. / ann.az



## Bunları bilmək lazımdır...

* Tərləyən ayaqları 10%-li formalin məhlulu ilə silirlər. Formalin məhlulunu həftədə 2-3 dəfə ayaqları yuyub quruladıqdan sonra çəkirlər.

* Yayda saçlara çoxlu toz qonur. Bunun üçün baş şotkasına köhnə kapron corab dolayır, sonra darayırlar.

* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və ya bitki yağı sürtürlər.

* Yanmış yerə yumurta ağında isladılmış əski qoyurlar. Bu ağrını azaldrır və yara daha tez sağalır. Yanmış yerə tünd çay, marqanez məhlulu da qoymaq faydalı olur.

* Yorğunluğu götürmək üçün ayaqları duzlu suyla vanna etməkdə fayda var.

* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumuşaq və elastik olur.

* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.

* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.

* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.

* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.

* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ılıq suya tökub ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.

## Sarımsaq ilə təzyiqimizi sabitləşdirək

***Acılı-ədavalı bir dadı olan sarımsaq, bir çox yemək üçün yalnız ətirli bir ədviyyat deyil. Bu bitki immunitet üçün çox faydalıdır, qanı toksinlərdən təmizləyir və təzyiqi normallaşdırır, həmçinin bir çox xəstəliklərin öhdəsindən gəlməyə kömək edir, xüsusəndə sağlamlığı qoruyur. Gəlin, sarımsağın təzyiqi artıra biləcəyini və ya aşağı salacağını öyrənək?***

Hər hansı bir formada sarımsağın istifadəsi, hətta salatlara, tərəvəz və ət yeməklərinə adi bir diş əlavə olaraq, təzyiqi normallaşmağa kömək edir. Yeganə şərt budur ki, dilimlər əzilməlidir, incə doğranmalıdır.

Sarımsaq təzyiqə necə təsir edir?

Əsas səbəb, sarımsaq və ya onun həlimini istehlak edərkən serotoninin "xoşbəxtlik hormonu" istehsal etməsidir. Ancaq təzyiqi azaltmaq üçün bu bitkini istifadə etməyin ən təsirli yolu, gündə bir diş sarımsaq mixəsi və ya xüsusi hazırlanmış infuziya, şirniyyat və qarışıqları çeynəməkdir. Beləliklə, sarımsaq qan təzyiqinə müsbət təsir edir. Belə bir ədviyyatın istifadəsi bir mütəxəssisin təyin etdiyi dərmanlarla birlikdə qəbulu ən yaxşı nəticə verir. Sarımsaq eyni zamanda hipertansiyon üçün əla bir profilaktikadır. Bir neçə diş sarımsağın qabığın soyub , yuyub , bir stəkan qaynar su da təxminən 7 saat dəmləyin.

Yaranan infuziyanı gündə 2-3 dəfə bir xörək qaşığı içmək lazımdır. Qəbul müddəti təxminən 10 gündür. Bundan sonra iki həftəlik fasilə etmək vacibdir. Bununla da təzyiqinizin normallaşdığını hiss edəcəksiniz.

# Koronavirusun hamilə qadınlara təhlükəsi

***"Koronavirus hamilə qadınlar üçün ciddi bir təhlükə yaratmır" İngilis mütəxəssisləri bildiriblər . Mövcud tədqiqatların təhlili göstərdi ki, xəstəlik hamiləlik zamanı ağırlaşmalara səbəb olmur və virus yenidoğulmuşa ötürülmür.Koronavirus, hamilə qadınları digər populyasiyalardan daha çox təhdid edir.***

Mütəxəssislərin fikrincə, hamilə qadınlardan biri virusa tutulsa belə, körpəyə ötürüldüyünə dair hələ də sübut yoxdur."Bu tamamilə yeni bir virusdur, biz yalnız bu barədə öyrənməyə başlayırıq, mütəmadi olaraq yeni dəlillər ortaya çıxdıqca nəzərdən keçiriləcək" bildirilmişdir. - Önümüzdəki həftə və aylarda İngiltərədəki hamilə qadınların koronavirus testindən keçmək ehtimalı var. Hal hazırda məlumatlar məhdud olsa da, virusun hamiləlik dövründə körpəyə ötürüldüyünə dair heç bir dəlil yoxdur. Xüsusilə, tədqiqatçılar Çindən koro-



navirusdan təsirlənən 147 hamilə qadın haqqında bir hesabatı təhlil etmişdilər. Yalnız 8% -də ağır simptomlar var və yalnız 1% -i ağır vəziyyətdə idi. Qadınların böyük əksəriyyətində yüngül və ya orta dərəcədə simptomlar olur.Hamilələrdən birinə təcili keysəriyyə əməliyyatı tələb olundu, əməliyyat uğurla başa çatdı və qadın sonradan sağaldı. Yoluxma ehtimalını bilən böyüklər, gigiyenaya ciddi əməl etməli və simptomlar görünəndə uşaqlardan uzaq durmalı, bu da virusun yayılmasına maneə törədəcək.Tədqiqatçılar qeyd edirlər ki, xüsusi olaraq uşaq xəstəxanalarından məlumat toplanmayıb deyə, buna görə tapıntılar tamamilə dəqiq olmaya bilər. Ancaq uşaqlarda koronavirus infeksiyasına yoluxma riski olsaydı, daha çox sayda infeksiya bilinərdi.Mütəxəssislər yeni məlumatlar əldə edildikdə nəticələrin dəyişə biləcəyini etiraf edirlər və buna görə tövsiyyələr mütəmadi olaraq nəzərdən keçiriləcəkdir. Ancaq mövcud məlumatlara əsasən, ana südü ilə qidalanma və yeni doğmuş bir ananın yanında qalmağın faydaları mümkün riskləri üstələyir.

COVID-19-un uşaqlara demək olar ki, heç bir təsiri olmadığı bildirilib.

# Günahkarlıq hissindən xilas olmanın yolları

***Evdə görüləsi işlərin çox olduğu bir vaxtda siz sakitcə kənarda oturduqda özünüzü günahkar hiss edirsinizmi? Və yaxud iş yerinizdə görə biləcəyiniz işi görmədən, başqasının sizin yerinizə işlədiyi zaman günahkarlıq hissi yaşayırsınız? Əgər sizdə bu hiss olursa və ondan xilas olmaq istəyirsinizsə, o zaman aşağıdakı qaydalara əməl edin:***

İnsanın özünə qarşı günahkarlıq hissi duyması əslində təbii bir haldır. Bu hissi sosial çevrədəki adamların yaşam təhdidlərindən başqa bir şey deyil. Buna görə də bu cür təhdidlərə boyun əyməmək üçün daima hazırlıqlı olmalısınız. Əgər siz etmək istəmədiyiniz bir hərəkət üçün başqalarından danlaq eşidirsinizsə, özünüzü buna əvvəlcədən hazırlamalısınız. Beyniniz, vicdanınız sizə ətrafdakıların xahişlərini rədd etməməyi deyirsə, o zaman siz özünüzlə mübarizə aparmalısınız. Yoxsa bir ömür boyu başqaları üçün özünüzü fəda etməyiniz lazım gələ bilər.

İlk dəfə kiminsə yardımına getmədinizsə, bunun üçün heç də özünüzü danlamayın. Əksinə özünüzü təbrik edin. Ola bilər ki, başqalarının yardımına getmədiyiniz üçün özünüzü piss hiss edə bilərsiniz. Yardıma getsəydiniz özünüzü daha yaxşı hiss edərdiniz deyə düşünürsünüzsə, çox səhv yoldasınız. Siz əgər belə düşünsəniz onda bir ömür boyu ətrafdakı insanların təhdidinə məruz qalacaqsınız. Unutmaq lazım deyil ki, yaşadığınız həyat sizindir, ona kimsənin qarışmağa və sizdən almağa ixtiyarı yoxdur.

İnsan beyni, enerjisini hansı tərəfə



yönəldirsə, onun həyatı da o istiqamətə doğru gedir.

Əgər sizin də beyniniz, özünüz üçün yaşadığınızı və bu həyatda heç kimə borclu olmadığınız düşüncələriylə yaşayırsa, inanın ki, həyatınız çox rahat və gözəl keçəcək.

# Boyun uzanmasına səbəb olan qidalar

***Yeniyetmə dövrdə uşaqların boyunun uzanması genetik faktorlarla bağlı olsa da, qəbul edilən qidalardan da asılıdır. Belə ki, mütəxəssislər yeniyetmə dövründə düzgün qidalanan uşaqların valideyinlərinin ortaboylu olmasına baxmayaraq ucaboy olmaq şansının olduğunu söyləyirlər. Dietoloq Aslıhan Küçük uşaqların boyunun hündür olmasında genetik faktordan başqa qidalanmanın, idmanın, normal yuxunun, ağır iş görüb-görməməyin də rolu olduğunu söyləyir. O boyun uzanmasına yardım edən bir-neçə qida vasitələrinin adını qeyd edir.***

Dietoloq öz qeydlərində hündür boya sahib olmaq istəyənlərin ilk növbədə sağlam sümük sisteminə sahib olmalarını yazır. 11-24 yaş arasında olan və sağlam sümük sisteminə sahib olmaq istəyənlərin bol fosfor və kalsium qəbul etmələrini tövsiyə edir. Aslıhan Küçük sümük sisteminin sağlam olması üçün vitamin D-nin də yetərincə qəbul edilməsinin, boyun inkişafında rolu olduğunu qeyd edir. D vitamininin qaynağı Günəş olduğunu nəzərə alaraq dietoloq hər gün 15-30 dəqidə gün şüaları altında durmağın da orqanizm üçün faydalı olduğunu yazır. Beləliklə sizlərə boyun uzanması üçün Aslıhan Küçüyün tövsiyə etdiyi qidaların siyahısını təqdim edirəm:

1. Dəniz məhsulları.
2. Vitamin D.
3. Susam toxumu (100 qr susam toxumunda 160 mq kalsium var).
4. Ət (tərkibində olan protein və zülalların olmasına görə).
5. Süd və süd məhsulları (süd uşaq azyaşlı olduqda yaşına görə, yeniyetmə dövründə gün ərzində ən azı 2 stəkan içilməlidir).
6. Brokkli kələmi (müqaviməti artırmaq üçün).
7. Quru meyvələr (bol vitamin və kalsium qaynağı olduqlarına görə).

Dietoloq gün ərzində 4-5 qaysı, 2 quru əncir, 1 ovuc qara kişmişin orqanizm üçün əvəzolunmaz faydası olduğunu söyləyir.

8. Balıq yağı.

# AFFA milli komandaların baş məşqçiləri ilə müqavilələri yenilədi



***AFFA-nın İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib.***

"Unikal" qəzeti AFFA-nın saytına istinadən xəbər verir ki, iclasda AFFA-nın prezidenti Rövnəq Abdullayev, İcraiyyə Komitəsinin üzvləri Elşad Nəsirov, Elxan Məmmədov, Vaqif Sadıqov, Mahir Məmmədov, Firudin Qurbanov, Elmar Məmmədyarov, Zaur Axundov, Fərid Mansurov və Könül Mehdiyeva iştirak ediblər.

Müzakirələrdən əvvəl Vətən müharibəsində, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

AFFA-nın prezidenti, İcraiyyə Komitəsinin sədri Rövnəq Abdullayev iclası giriş sözü ilə açaraq deyib:

"Vətən müharibəsində qazandığımız zəfər münasibətilə hər birinizi təbrik edir, başda cənab Ali Baş Komandan olmaqla bu zəfərin qazanılmasında xidməti olmuş hər kəsə təşəkkür edir, yaralılarımıza şəfa arzulayıram.

İclasın gündəliyində olan məsələlər barədə məlumatınız var. Müzakirələrə başlaya bilərik".

Aparılmış müzakirələrdən sonra aşağıdakı qərarlar qəbul olunub:

1. 2021/2022-ci il mövsümündə UEFA klub yarışları və Azərbaycan Premyer Liqasında iştirak üçün klubların Lisenziyalaşdırma qaydaları təsdiq olunsun.

2. Müqavilə müddəti başa çatmış və yekunlaşmaqda olan aşağı yaş qruplarından ibarət milli komandaların baş məşqçilərinin müqaviləsi qarşılıqlı razılıq əsasında uzadılsın (məşqçilərin yaş qruplarında fəaliyyəti pandemiya ilə əlaqədar UEFA tərəfindən müxtəlif turnirlərin ləğv olunması və ya təxirə salınması barədə qərarlara müvafiq şəkildə tənzimlənəcək və müqavilələrin müddəti seçmə mərhələni əhatə edəcək):

Milan Obradoviç
Samir Əliyev
Elxan Abdullayev
Miloş Velebit
Aqil Nəbiyev

3. AFFA-nın növbəti konfransı 2021-ci il yanvarın sonu-fevralın əvvəlində videokonfrans formatında keçirilsin.

Rövnəq Abdullayev iclasın yekununda bunları deyib:

"Səmərəli müzakirələr apardıq, müvafiq qərarlar qəbul olundu. Hər birinizə iclasda iştirakınıza görə təşəkkür edirəm. Bu il üçün İcraiyyə Komitəsinin sonuncu iclası idi. Pandemiya ilə əlaqədar bu il bütün dünya üçün yaddaşlarda uğursuz il kimi qala bilər, amma Azərbaycan üçün, xalqımız üçün 2020-ci il zəfər ilidir. Uzun müddət işğal altında olan torpaqlarımızı cənab Ali Baş Komandanın qətiyyəti, cəsarəti və ordumuzun rəşadəti sayəsində azad etməyə nail olduq. Arzu edirəm ki, bundan sonra bütün illər ölkəmizin quruculuq, inkişaf illəri olsun. Hər birinizi qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edir, bu pandemiya günlərində sağlam olmağınızı, cansağlığı arzulayıram!".

# 145 milyonluq futbolçu "Barselona"ya ziyan vurur - Bu dəfə 20 milyon avro

***"Barselona"nın 2018-ci ildə "Liverpul"dan 145 milyon avroya (bonuslarla birlikdə) transfer etdi yi Filip Kountinyo Kataloniya klubuna zərər vurmaqda davam edir.***



"Unikal" qəzetinin məlumatına görə, ötən mövsüm "Bavariya"ya icarəyə verilən braziliyalı futbolçu Çempionlar Liqasının 1/4 finalda "Barselona"ya 8:2 hesabı ilə qalib gəldikləri matçda 2 qol vurmuş və bir məhsuldar ötürmə etmişdi. Münhen klubu Çempionlar Liqasını qadandığı üçün müqaviləyə əsasən Kataloniya təmsilçisi "Liverpul"a 5 milyon avro bonus ödəmişdi.

Bu mövsümün əvvəlində "Barselona"ya qayıdan Kountinyo 13 oyunda meydana çıxaraq 3 qol vurub və 2 məhsuldar ötürmə edib. Braziliyalı daha 9 matça çıxaraq oyun sayını 100-ə çatdırsa, kataloniyalılar "Liverpul"a əlavə 20 milyon avro verməli olacaq.

İddialara görə, maliyyə böhranında olan "Barselona" Kountinyonun 100 oyuna çatmasını istəmir və bu səbəbdən qış fasiləsində onu satmaq niyyətindədir.

# Ronaldo "Yuventus"u tərk etdi - karantinə alınacaq

***İtaliyanın "Yuventus" klubunun hücumçusu Kriştianu Ronaldo İtaliyanı tərk edib.***



"Unikal" qəzetinin məlumatına görə, futbolçu Milad bayramını qeyd etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə yollanıb.

Turin klubunun rəhbərliyi 35 yaşlı qolçunun Dubaya yollanmasına icazə verib. Onun dekabrın 28-də İtaliyaya dönməsi gözlənilir. Lakin portuqaliyalı qayıtdıqdan sonra karantinə alınacaq.

Qeyd edək ki, Kriştianu Ronaldo 12 qolla A seriyasında bombardirlər yarışına başçılıq edir.

# Bütün müqavilələr uzadıldı - Tokio-2020-də



***2021-ci ildə Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya və Paralimpiya Oyunlarının Təşkilat Komitəsi bütün sponsorlarla müqavilələri uzadıb.***

"Unikal" qəzeti məlumatına görə, bunu qurumun rəhbəri Yesiro Mori açıqlayıb.

O bildirib ki, 68 tərəfdaşın hamısı ilə müqavilələr uzadılıb. Sponsor şirkətlərlə anlaşmalar 2020-ci ilin sonunda başa çatmalı idi. Lakin koronavirus pandemiyası üzündən yarışlar 2021-ci ilə təxirə salınıb. Müqavilənin uzadıldığı şirkətlər arasında "Toyota", "Panasonic" və "Bridgestone" kimi nəhənglər də yer alıb.

Qeyd edək ki, Olimpiya Oyunları iyulun 23-dən avqustun 8-dək keçirilməlidir.

# Türk futbolçu Premyer Liqa klubundan ayrılır

***Türkiyə millisinin və İngiltərə "Everton"unun futbolçusu Cenk Tosun qış fasiləsində komandasını dəyişəcək.***



"Unikal" qəzeti AD nəşrinə istinadən xəbər verir ki, Mersisayd təmsilçisində əsas heyətə düşməkdə çətinlik çəkən 29 yaşlı hücumçu karyerasını Niderland Erediviziyasında davam etdirəcək.

İddiaya görə, "Feyenoord" təcrübəli forvardı icarəyə götürmək istəyir. Klub 2020/2021 mövsümünün sonunda isə onu birdəfəlik transfer edə bilər.

Qeyd edək ki, Cenk Tosun bu mövsüm İngiltərə Premyer Liqasında cəmi 4 oyunda meydana çıxıb.

# Rusiya idmançısına danışılmış oyunlara görə 5 illik cəza verildi

***Dünya Badminton Federasiyası (BWF) Rusiyani təmsil edəm Nikita Hakimovu 5 il müddətinə cəzalandırıb.***

"Unikal" qəzeti BWF-nin rəsmi saytına istinadən xəbər verir ki, 32 yaşlı idmançı danışılmış oyunlarda iştirakda günahlandırılır.

Hakimov 2018-ci ildə Kazanda təşkil edilmiş komandalararası Avropa çempionatının oyunlarına təsir etməkdə ittiham olunur.

Badmintonçu bütün iddiaları rədd edib, lakin BWF Müstəqil Komissiyası onun izahatını qəbul etməyib.

Qeyd edək ki, Nikita Hakimovun cəzası 2020-ci il oktyabrın 13-dən qüvvəyə minəcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı